**BULUDXAN XƏLİLOV**

# ZAMANIN SINAĞINDAN KEÇƏNLƏR...

**Bakı – 2016**

**Redaktor:** ***Fikrət Rzayev,***
*filologiya üzrə elmlər doktoru, professor*

**Rəyçilər:** ***Yeganə Ergin (Qəhrəmanova),***
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

***Cəlal Allahverdiyev,***
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

***Arif Kazımov***

**Buludxan Xəlilov. "ZAMANIN SINAĞINDAN KEÇƏNLƏR...".** Bakı, "Adiloğlu", 2016, 252 səh.

Kitabda Qulu Xəlilov, Mirzə İbrahimov, Mir Cəlal, Mehdi Hüseynlə bağlı hadisələr verilir. Bundan başqa, Cəlil Məmmədquluzadə üslubundan qidalanan publisistik məqalələr, o cümlədən təhsilin inkişafı üzrə Dövlət Strategiyasının əsas hədəfləri təhlil olunur. Həm də həyat, cəmiyyət, dünya ilə bağlı zamanın sınağından keçmiş hadisələr özünə yer alır.

Kitabda Gəmiqaya-Qobustan əlifbası, özündə tarixi yaşadan daşlarla bağlı məqalələr və mən-biz, sən-siz, o-onlar barədə deyimlər – zamanın sınağından çıxan deyimlər, məhz müəllifin deyimləri verilir.

**İSBN 978-9952-7301-6-6**

© Xəlilov B, 2016

# Yaşamaq istəyən adam

Azərbaycan ədəbiyyatında elə bədii əsərlər var ki, onların təkcə adları oxucuya çox şey deyir. Oxucunu düşünüb - daşınmağa məcbur edir. Belə bədii əsərlərin adları yazıçının istedadı və bədii tapıntısı kimi qiymətləndirilməlidir. Məsələn, “Qılınc və qələm”, “Şikayətnamə”, “Aldanmış kəvakib”, “İnsan”, “Yeraltı çaylar dənizə axır” və s. Bu kimi saysız - hesabsız əsərlərin adları hələ məzmununu oxumamışdan əvvəl, təkcə ad kimi oxucunu özünə cəlb edir. “Yaşamaq istəyirəm” əsəri də bu qəbildən olanların sırasındadır. Əməkdar elm xadimi, filologiya üzrə elmlər doktoru, professor, görkəmli tənqidçi Qulu Xəlilovun “Yaşamaq istəyirəm” əsərinin adı məni neçə - neçə il bundan qabaq özünə çəkdi. Adı məcbur etdi ki, əsəri oxuyum. Və əsəri oxudum. Özü də indi yox, çox - çox illər qabaq. Nə isə... Burada məqsədim “Yaşamaq istəyirəm” əsərindən danışmaq deyil. Məqsədim bu əsərin müəllifi Qulu Xəlilovdan bəhs etməkdir. Qulu Xəlilov vaxtilə – ömrünün sonlarına yaxın televiziya müsahibələrinin birində deyirdi: “Allah mənə bir yaratmaq, yaşatmaq arzusu verə... Həyat eşqi olmasa, insan özünü, qamətini çətin düzəldər. Heç yaralı ağac da özünü düzəldə bilməz”. Bu fikri söyləyən Qulu Xəlilov uzun müddət xəstə olmuşdur. O, 30-40 yaşlarından başlayaraq

ömrünün sonuna qədər xəstəlikdən əziyyət çəkmişdir. Qulu Xəlilovun üzərində doqquz dəfə cərrahiyyə əməliyyatı aparılmışdır. Nə isə... Bunlar da öz yerində...

Hər bir ədəbiyyatşünas, ziyalı, o cümlədən Qulu Xəlilovun tələbələri çox yaxşı bilir ki, o, çox güclü tənqidçi idi. Özü də qərəzdən çox - çox uzaq və cəsarətli tənqidçi idi. Tənqid deyəndə yadıma bir hadisə düşür. 1992-ci ilin dekabr ayı idi. O vaxtkı APİ-nin (indiki ADPU-nun) kiçik zalında filologiya ixtisası üzrə elmlər namizədi alimlik dərəcəsi verən müdafiə şurasının iclası keçirilirdi. Qulu Xəlilov da müdafiə şurasının üzvü idi. Növbəti müdafiə şurasında mənim də müdafiəm olacaqdı. Ona görə də müdafiə şurasının iclasında arxada oturub özüm üçün təcrübə toplayırdım. Həmin müdafiə şurasında müdafiə edən dissertantın mövzusu ədəbiyyatdan idi. Opponentlərdən biri də (birinci opponent) Qulu Xəlilov idi. O, yuxarıda – səfarətdə əyləşmişdi. Qulu Xəlilov birinci opponent kimi rəyini söylədi. Sonra söz ikinci opponentə verildi. İkinci opponent (Əflatun Saraclı) öz rəyində tez - tez türk kəlmələrini işlədirdi. Birdən Qulu Xəlilov yerindən opponentə etiraz etdi. Azərbaycan dilində kəlmələr olduğu halda, yerli - yersiz türk sözlərini işlətməsini qəbahət saydı. Əsəbləşdi və ayağa durub kiçik zalı tərk etdi. İkinci opponent rəyini söylədikdən sonra Qulu Xəlilov kiçik zala qayıtdı. Onun bu hərəkəti zaldakıların hamısının ürəyincə oldu. Çünki ikinci opponentin rə-

yindəki yersiz və süni görünən türk kəlmələri hamını qıcıqlandırmışdı.

Qulu Xəlilovun cəsarəti, məhz yerində və məqamında olan cəsarəti onu hamıya sevdirirdi. Və onun cəsarətli, səmimi, qərəzsiz tənqidi hamının xoşuna gəlirdi. Heç kəs onun tənqidindən incimirdi. Bu gün ədəbi tənqid arzuolunan səviyyədə deyil. Doğrudan da ədəbiyyat barədə tost deyənlər çoxalıbdır. Əksər vaxtlar ədəbiyyat barədə tost deyilir. İndi ədəbi tənqidin qədri bilinmir. Ona görə ki, ədəbi tənqidə qiymət verənlər, ədəbi tənqidin dəyərini bilənlər azalıbdır. Qulu Xəlilov ədəbi tənqidə qiymət verən və ədəbi tənqidin dəyərini bilən bir ziyalı idi. O deyirdi: "Mən zəif əsər haqqında güzəştə getməyi millətə xəyanət hesab edirəm". O, tənqidin qədrini bilənlər barədə deyirdi: "Tənqidin qədrini S.Vurğun, M.Hüseyn kimi adamlar bilibdir".

Yadımdadır, Qulu Xəlilovun yeznəsi (bacısının yoldaşı) Şirin Quliyev dəfələrlə mənə söhbət edərdi ki, bəzi şair və yazıçılar barədə xahiş edərdim ki, onların əsərləri barədə müsbət yazsın. O isə "Nə xahişin olsa, de, edərəm, ancaq bu xahişi etmə" söylərmiş. Qulu Xəlilov o qədər qərəzsiz adam olmuşdur ki, yaxşıya yaxşı, pisə pis deməkdən çəkinməmişdir. Hər hansı bir adamın yaxşı işini yaxşı, pis işini pis kimi üzünə deməkdən qorxmamışdır. Məsələn, o, M.Hüseyni tənqidin qədrini bilən bir tənqidçi kimi dəyərləndirməklə yanaşı, ona ürəyinin dediklərini söyləməkdən də yan keçməmişdir. Belə ki,

günlərin birində Qulu Xəlilov Yazıçılar Birliyindən icazə almadan rayona getməli olur. Mehdi Hüseyn onu bu əməlinə görə - icazəsiz getdiyinə görə işdən çıxarır. Qulu müəllim rayona gedəndə bilir ki, onun oğlu olub. Qulu Xəlilovun iki qızı varmış, oğlu yox imiş. O, oğlunun olmasına sevinir. Və Mehdi Hüseynə zəng vurub deyir:

– Siz məni işdən çıxartdınız. Mənim isə oğlum oldu.

Mehdi Heseyn ona deyir:

– Gəl ona Tahir adını qoy. Tahir mənim qəhrəmanımdır. O, “Neft daşları” əsərindəki qəhrəmanını nəzərdə tutur.

Qulu Xəlilov ona cavab verir:

– Mən öz qəhrəmanımın adını – Azər adını qoyacağam.

Qulu Xəlilov oğlunun adını Azər qoyur.

Qulu Xəlilovun həyat eşqi güclü olmuşdur. O, uşaqlarına da, nəvələrinə də böyük dəyər vermişdir. Ömrünün sonuna yaxın televiziya müsahibələrinin birində deyirdi: “...Mən xəstəyəm. Stola yazmaq üçün yaxınlaşmağa qorxuram. Mən uşaqlarımla, nəvələrimlə başımı qatıram. Allah heç kəsi övladsız, uşaqsız, atasız, anasız etməsin”. Düzü, onun bu dediklərinin səmimi olduğunun şahidi olmuşam. Ancaq şahidi olduğum vaxt o qədər də əhəmiyyət verməmişəm. İndi fikirləşəndə görürəm ki, doğrudan da, o, bütün uşaqlara səmimi olmuşdur. Ona görə də bir hadisəni xatırlamaq istəyirəm. 1992-ci ilin dekabr ayında APİ-də (indiki ADPU-da) olan müdafiə

şurasında dissertasiyamı müdafiə etdikdən sonra evimizdə (evimiz həyət evi idi) qonaqlıq təşkil etmişdik. Müdafiədən sonra qonaqlığa Qulu Xəlilov da gəlmişdi. Həyət evində qohum - qardaş manqalda qonaqlar üçün kabab çəkirdi və qardaşım uşaqları da həyətdə oynayırdılar. Bir də gördüm ki, Qulu müəllim müdafiə şurasının üzvlərindən və qonaqlardan ayrılaraq qardaşım uşaqlarını başına yığıb söhbət edir. Onlara müxtəlif suallar verir, onları danışdırır, onlara doğma münasibət göstərir. Hiss edirdim ki, uşaqların hazırcavablığı, diribaşlığı onun xoşuna gəlir. Bunun haradan qaynaqlandığını onun müsahibələrindəki bu fikirləri dinlədikdən sonra daha yaxşı anladım: "... Allah bizim övladlarımızı qığıldamaq səadətindən uzaq etməsin. Çörək səadətindən uzaq etməsin". Nə isə...

Qayıdıram yenə də həyətimizdəki qonaqlığa. Qulu müəllim tez - tez əlini manqalın içindəki ocağa uzadır və əllərini qızdırırdı. Sonra ocaqda qızmış əllərini sifətinə və üstünə çəkirdi. Bunu hava soyuq olduğu üçün edirdi. Bütün qonaqlar içəridə yeyib - içirdi. O isə həyətdə atamla, qardaşımla, qohumlarımla mehribancasına və səmimi şəkildə söhbət edirdi. Bəlkə buna o vaxt o qədər də əhəmiyyət vermirdim. İndi isə görürəm ki, Qulu Xəlilov nə qədər təbii və sadə adam imiş. O birinci dəfə olduğu ailədə özünü nə qədər doğma aparırmış. Səbəbini indi axtaranda görürəm ki, o, torpağa, xalqa, millətə bağlı olduğundan belə edirmiş. Eyni zamanda zəhmətə və zəhmətkeş insanlara, təmiz və təbii ailələrə, dünyanın bütün

ağrı - acısını görmüşlərə bağlı olduğundan belə edirmiş. Mən indi başa düşürəm ki, o, Allahın imtahana çəkdiyi, bu imtahandan üzüağ çıxardığı və qoruyub saxladığı insanların, ailələrin hər birinə hörmətlə yanaşırmış. Bu da yenə Qulu Xəlilovun mərhəmətli, ədalətli və cəsarətli olmasından irəli gəlirmiş.

O, torpaq qədər müqəddəs, daş, qaya qədər möhkəm, od kimi isti, su qədər təmiz adam idi. Xarakterinin qeyri-adiliyi də elə bununla (müqəddəslik, möhkəmlik, kişilik, istilik, təmizlik) bağlı idi. Beləəri torpağı, daşı, qayanı, təbiəti, odu, suyu insan kimi qəbul edir və başa düşür. O, doğrudan da, torpaqdan, daşdan, qayadan, təbiətdən, oddan, sudan güc alan adam idi. Onun uyuduğu qəbir də bunu təsdiq edir. Oğlu Azər Xəlilovun dediklərindən aydın olur ki, Qulu Xəlilov öz vəsiyyəti ilə Şağanda bir qayanın yanında dəfn olunmuşdur. Qayanın hər tərəfi qumluq olsa da, qaya elə qayadır. Qulu Xəlilovun məzarı qayaya söykənməklə taleyini Vətən torpağındakı qayaların taleyinə bağladı. O, Məmməd Arazın şeirində söylənən fikri təsdiq etdi:

*Bir qayaya söykənmişəm,*
*Deyirəm kaş,*
*Bax beləcə daşa dönəm,*
*Yavaş - yavaş.*

O yenə də Məmməd Arazın şeirindəki fikri təsdiq etdi:

*Onda Vətən sanar məni*
*Bir balaca Vətən daşı,*
*Vətən daşı olmayandan*
*Olmaz ölkə Vətəndaşı!*

Qulu Xəlilov “Yaşamaq istəyirəm” əsərini yazmışdı. Və onun həyat eşqi güclü idi, yaşamaq istəyi hədsiz idi. Qulu Xəlilov yaşamaq, yaratmaq istəyirdi. Ancaq həyatın çətinlikləri, ağrıları ədalətsizlik və haqsızlıq onu cana gətirmişdi. Televiziya müsahibələrinin birində dediyi kimi: “Dünyanın ən böyük adamlarını həyat cana gətirdikdə yaşamaq istəmir. Amma mənim özüm də bəzən özümü ölü kimi hesab edirəm”. O, ruhən, təbiətən çox diri və mübariz adam idi. Ona görə də yaşamaq istəyirdi. Və “Yaşamaq istəyirəm” əsərini də yazdı. Harada mərd, cəsarətli, ədalətli, obyektiv mövqe varsa, orada Qulu Xəlilovun ruhu var. Orada Qulu Xəlilov yaşayır.

*17.09.2014*

# Mirzə İbrahimovun jurnalistlə əhvalatı…

Mirzə İbrahimov görkəmli yazıçı, ictimai-siyasi xadim kimi Azərbaycanın ədəbiyyat və mədəniyyət tarixində həmişə yaşayacaq. Onun insanlara münasibətində, qayğısında və xeyirxahlığında bir səmimilik, sadəlik olub. Bu xeyirxahlığı, qayğını görənlərdən biri də Rövşən Novruzoğludur. Rövşən Novruzoğlu – gənc Rövşən Cənubi Azərbaycan Radiosunda Aqşin Babayevin yanında jurnalist kimi işləyirmiş. O vaxt Mirzə İbrahimov SSRİ- nin Afrika və Asiya ölkələri üzrə komitəsinin sədri imiş. Mirzə müəllimin səfərləri o qədər çox olurmuş ki, o, jurnalistlərə vaxt ayıra bilmirmiş. Jurnalistlər ona sual verib nəyisə öyrənə bilmirlərmiş. Daha doğrusu, jurnalistlər ondan heç cür müsahibə ala bilmirlərmiş. Günlərin birində Aqşin Babayev Rövşən Novruzoğluna deyir:

– Əgər sən Mirzə müəllimlə görüşüb ondan müsahibə ala bilsən, sənə mükafat yazacağıq və (o vaxt əlavə 13-cü ay maaşı varmış) 13-cü maaş verəcəyik.

Beləliklə, Aqşin müəllim Mirzə İbrahimovun ev telefonunu Rövşən Novruzoğluna verir. Rövşən Novruzoğlu fikirləşir ki, necə etsin, nə cür etsin ki, Mirzə müəllimlə görüşə bilsin. Nəhayət, Rövşən Novruzoğlu gün-

lərin birində səhər tezdən (saat 9:00-da) Mirzə İbrahimova zəng edir. Təsadüfən iş elə gətirir ki, telefonun dəstəyini Mirzə müəllimin özü götürür. Salam-kalamdan sonra Rövşən Novruzoğlu Mirzə müəllimin xoş damarına düşür. Mirzə müəllimin dilini tapır. Rövşən Novruzoğlu ona deyir:

– Evə kəndindən (Cənubi Azərbaycanda Mirzə İbrahimovun anadan olduğu kənd) məktublar yazırlar və deyirlər ki, Mirzə müəllimin səsini eşitmək istəyirik.

Bu fikir Mirzə müəllimi tutur. Yeri gəlmişkən, Rövşən Novruzoğlu nə dediyini yaxşı bilir. Bilir ki, Mirzə müəllimi bu yolla ələ almaq olar. Yazıçı səhərisi gün saat 9:00-da onu gözləyəcəyini deyir. Rövşən Novruzoğlu əhəmiyyət vermir ki, Mirzə müəllim onu harada gözləyəcək. Səhəri gün onun görüşünə gedəndə yadına düşür ki, bəs onlar harada görüşəcəklər?! Birtəhər öyrənir ki, Mirzə İbrahimov səhər tezdən görüşəndə öz evində görüşür. Və Rövşən Novruzoğlu Mirzə müəllimgilə gedir. Yazıçı onu qəbul edir. Sonra soruşur:

– Ay oğul, harada işləyirsən?

– Cənubi Azərbaycan Radiosunda Aqşin Babayevin yanında.

Mirzə müəllim görür ki, Rövşən çox diribaş, vətənpərvər oğlandır. Elə həmin gündən yazıçının, necə deyərlər, quşu Rövşənə qonur. Rövşənə geniş bir müsahibə verir. Onların arasında səmimiyyət yaranır. Bir müddətdən sonra Mirzə müəllim Rövşəni mətbuat katibi kimi öz ya-

nında işə götürür. Və bu da Mirzə İbrahimovun jurnalistlərə müsahibə verməsi işini də asanlaşdırır.

Rövşən Novruzoğlu tez-tez Mirzə müəllimin maddi cəhətdən qayğısını da görür. Adətən belə qayğını Mirzə İbrahimov o vaxt gənclərə edərmiş. İş elə gətirir ki, bu qismət Rövşən Novruzoğluna da nəsib olur. Günlərin birində o, Mirzə müəllimin evinə gəlir. Əynindəki pencəyini soyunub asılqandan asır. Çay içib, çörək yedikdən sonra təbii ki, getməli olur. Pencəyini əyninə geydikdən sonra yolda əlini cibinə salanda görür ki, orda nəsə var. Hiss edir ki, puldur. Elə bilir ki, kimsə çaşıb qoyub. Geri qayıdıb bunu demək istəyir. Ancaq həyətdə Mirzə müəllimi yaxşı tanıyan ağsaqqal bir kişi Rövşən Novruzoğlunu görüb deyir:

– Bala, sən indi Mirzə müəllimin yanından çıxdın. Nə tez geri qayıtdın.

Rövşən Novruzoğlu:

– Dayı, Mirzə müəllimə sözüm var...

Ağsaqqal deyir:

– Bala, mən bilirəm niyə qayıdırsan. Qayıtmaq lazım deyil. Mirzə müəllimin özü hər şeyi yaxşı bilir. O kişi ilə görüşməyə ehtiyac yoxdur.

Ağsaqqal bilirmiş ki, Mirzə müəllim evinə gələn gənclərə belə qayğını heç zaman əsirgəmir. Mütləq onları yedirib-içirdir, ciblərinə hansı yollasa pul qoyur. Onların ehtiyaclarını az da olsa, ödəmək istəyir. Və belə hadisələr

tez-tez təkrar olunduğundan ağsaqqal bilir ki, Rövşən Novruzoğlu niyə tez bir vaxtda geri qayıtdı.

Beləliklə, Mirzə İbrahimovun qayğısını görənlər onu unutmur və yəqin unutmayacaqlar da…

*22.09.2014*

# Mir Cəlalla Mehdi Hüseynin zarafatı

Mir Cəlal Paşayev Mehdi Hüseynin xətrini çox istəyirmiş. Təbii ki Mehdi Hüseynin də Mir Cəlala böyük hörməti və məhəbbəti varmış. Hətta onların arasında tez-tez zarafatlar da olurmuş. Zarafatları ilə bir-birinin xətrini xoş edərlərmiş. Günlərin birində Qazaxdan Mehdi Hüseynin yaxınlarından - qohumlarından biri onun yanına gəlir. Mehdi Hüseyndən məsləhət almaq istəyir. Mehdi Hüseynə deyir:

– Qağa, mənim oğlum olmur, məsləhətin nədir?

Mehdi Hüseyn zarafatından qalmayaraq öz həmyerlisinə deyir:

– Sən Mir Cəlalın yanına get, o, məsləhət versin. O daha hörmətli, nüfuzlu adamdır. Həm də seyiddir. Onun göstərdiyi yol daha yaxşı olar.

Belə də olur. Mehdi Hüseynin qohumu Mir Cəlalın yanına gəlir. Mir Cəlal müəllimə müraciətlə:

– Ay müəllim, hər bir əyər-əskik işimiz barədə Mehdidən məsləhət alırıq. Onun yanında oldum. Məni sizin yanınıza göndərdi. Dedi ki, siz ondan da hörmətli, nüfuzlu adamsınız. Başınıza dönüm, mənə bir yol göstərin.

Mehdi Hüseynin qohumu kənd adamı olduğundan hiylə - məkr nə olduğunu bilmir. Ürəyində nə varsa, dilində də onu deyir:

– Qağa, qurbanın olum, mənim başqa elə bir adamım yoxdur ki, ondan məsləhət alım. Mehdi qağam idi, o da sizin yanınıza göndərdi. İndi məsləhət yerim sizsiniz. Qağam Mehdidir, bir də siz. Qağam Mehdi sizi daha ağıllı, müqəddəs adam hesab eyləyir. Odur ki, məni sizin yanınıza göndərdi. Mənə məsləhətinizi əsirgəməyin. Bu qağanız da elə-belə adam deyil. Sizin xəcalətinizdən çıxar...

Mir Cəlal müəllim işin nə yerdə olduğunu başa düşür. Bilir ki, bu xata Mehdi Hüseyndən keçibdir. Ona görə də özünü o yerə qoymur. Soyuqqanlı və ciddi bir görkəm alır. Öz təmkinini pozmadan kişiyə məsləhət verir:

– Ay kişi, axşam ailənlə yatanda başına papağını qoy və yat. Axşam yatanda heç zaman başından papağını çıxartma.

Kişi olduqca sadəlövh olur, Mir Cəlalın verdiyi məsləhətə qulaq asır. Və Allahın izni ilə vaxt-vədə yetişir və həmin kişinin oğlu dünyaya gəlir. Mir Cəlalın seyidliyi kişinin gözündə daha da böyüyür. Bakıya Mehdi qağasının yanına əlidolu, sovqatla gəlir.

– Ay qağa, bu kişi nə qədər Allah adamıymış. Onun dediyini elədim, oğlum oldu.

Mehdi Hüseyn deyir:

– Ay kişi, indi də get Mir Cəlala minnətdarlıq et. Qoy bilsin ki, yaxşılığı unutmursan. Belə xeyirxah adamı heç yerdə tapa bilməzsən. Hər zaman sənə lazım olan adamdır.

Mehdi Hüseynin bu qohumu tənbəllik etmir. Mir Cəlal müəllimin yanına gedir. Mir Cəlala öz minnətdarlığını da bildirir. Həmin vaxtdan kişinin məsləhət aldığı adamın biri də Mir Cəlal olur. Kişi tez-tez Mir Cəlal müəllimin yanına gəlir qayğı və problemləri ilə bağlı ondan məsləhətlər alır.

*08.10.2014*

# Hər şeydən yazan Mirzə Cəlil...

***O, bütün zamanların yazıçısıdır.***

Allah rəhmət eləsin Mirzə Cəlilə. Cəlil Məmmədquluzadəni deyirəm. Rəhmətlik nədən yazmayıb? Hər şeydən yazıb. Özü də elə yazıb ki, adamın ürəyindən tikan çıxarır. Elə yazıb ki, onun yazdıqları ilə hər gün dəfələrlə qarşılaşırsan. Onun yaratdığı tipləri hər gün görürsən. Onlarla təmasda olursan. Nə isə...

Rəhmətlik Mirzə Cəlil qədər milləti tanıyan, onun psixologiyasını bilən, az qala millətin hər bir fərdini dərindən öyrənən ikincisi yoxdur. Söhbət Mirzə Cəlil qədər tanıyandan gedir. Rəhmətlik nədən yazıbsa, gözəl yazıb. Yazdıqları içərisində bir dənə də olsun elə - beləsi yoxdur. Hamısı orijinaldır: felyetonu da, hekayəsi də, dramları da. Ay qardaş, bu kişi Nobel mükafatına layiq görülmüşlərdən də yaxşı mənada fərqlənir. Nobel mükafatı alanların heç biri onun qədər öz millətini tanımayıb, dərk etməyibdir. Bu kişi elə bil ki, hər bir fərdin yanında olub, onu öyrənib, müşahidə edib, sonra da yazıb. Elə dərindən yazıb ki, yazdıqları həmişə aktual görünür. Yenə də deyirəm ki, rəhmətlik Mirzə Cəlil nədən yazmayıb? Onun yazdıqları bu gün də həyatda təkrar olunur. Onun yazdıqlarını bu gün də görürük. Onun yazdıqları ilə

bu gün də qarşılaşırıq. Onun yazdıqlarında bu gün də özümüzü tapa bilirik. Kim özünü axtarırsa, Mirzə Cəlili oxusun. Kim özünü görmək istəyirsə, yenə də onu oxusun. Kim özünü tanımaq istəyirsə, yenə də onun yazdıqlarına üz tutsun. Bir sözlə, Mirzə Cəlil bütün zamanların yazıçısıdır.

Hər gün qarşılaşdığım hadisə Mirzə Cəlilə rəhmət oxudur. Bilirsinizmi niyə? Ona görə ki, qarşılaşdığım hadisələrdən rəhmətlik yazıb, sadəcə olaraq yazmayıb, həm də atasını yandırıb. Onun yazdıqları hadisələr indi də baş verir. Ancaq bir az fərqli formada, fərqli ölçüdə, fərqli məkanda. Mirzə Cəlilin yazdıqlarının qarşısında bunlar nədir ki? Ancaq hər nə olsa da, mətləbə keçmək istəyirəm. İstəyirəm ki, gördüyümü sizlərə nəql edim. Elə bu yaxınlarda gördüm ki, Dəymədüşər kişi ilə Naznaz xanım bazara gedirlər. Olan hadisədir. Bircə adları dəyişmişəm. Kişinin adını Dəymədüşər, xanımın adını Naznaz qoymuşam. Əlqərəz... Dəymədüşər kişi ilə Naznaz xanım bazara gedir. Dəymədüşər kişi iti sürətlə qabaqda gedir, xanımı isə onunla ayaqlaşa bilmir. Avtobusa minmək üçün dayanacağa gedən ər və arvad yolda bir-birini itirir. Ər qabaqda iti sürətlə gedərək dayanacağa çatır. Arvad isə arxada qalır və ərini gözdən itirir. Avtobus gəlir. Dayanacaqda saxlayır. Dəymədüşər avtobusa minhamində bir də görür ki, Naznaz xanım onu arxadan səsləyir:

– Məni də gözlə, gəlirəm.

– Gəl, gözləyirəm.

Bunlar bir-birinə səs verməkdə olsunlar, görək avtobus şoferi nə edir. İndiki avtobuslar axı saniyələrlə, dəqiqələrlə işləyirlər. Pah atonnan! Bir saniyə, bir dəqiqə belə yubanmırlar. Odur ki, avtobus şoferi dəymədüşərin xahişini eşitmir:

– Xahiş edirəm, gözlə, arvad da gəlsin.

– Gözləyə bilmərəm. Yubanıram.

– Ay kişi, görürsən arvad arxadan çağırır.

– Mənə nə, mənim gözləməyə vaxtım yoxdur.

Birdən arxadan Naznaz xanımın səsi gəlir:

– Gözlə, çatdım.

– Avtobus şoferi gözləmir. Mən avtobusla getdim.

– Bəs mən nə edim?

– Sən də gəl.

– Hara?

– Ora.

Ay qardaş, bu Bakı şəhərində o qədər bazar var ki... Axı bu yazıq Naznaz xanım hara gəlsin?! “Ora” deməklə iş bitmir. Bir də “ora” deyəndə yadıma “Bəyin oğurlanması” filmində Arif Quliyevin qızın “Hara gəlim” sualına “ora” deməsi düşür. Bəlkə də Arif Quliyev “ora”da qızla çox görüşüb. Bəs Dəymədüşərlə Naznaz xanım necə? “Ora” deyəndə haranı nəzərdə tuturlar. Nə isə... Avtobus şoferi tələm-tələsik avtobusu sürüb gedir. Dəymədüşər kişi də avtobusun içində. İndi avtobusun içində nələr baş verir onu bir Allah bilir, bir də Dəymədüşər, sürücü və

sərnişinlər. İndi sizə kimdən xəbər verim – Naznaz xanımdan. Naznaz xanım dayanacağa çatanda avtobus getmiş olur. O, kor-peşman dayanacaqda oturub Dəymədüşər kişini gözləyir. Fikirləşir ki, Dəymədüşər kişi hara getsə də, gəlib buradan keçəcək. Mirzə Cəlilin Novruzəlisi məktubu poçt qutusuna salıb gözlədiyi kimi, Naznaz xanım da Dəymədüşər kişini gözləməli olur. Xeyli vaxt keçir, Dəymədüşər qayıtmır. Ağsaqqal bir kişi görür ki, bu xanım neçə saatdır ki, dayanacaqda gözləyir. Yaxınlaşıb ona deyir:

– Ay bacı, sən neçə saatdır nə gözləyirsən, kimi gözləyirsən?

– Yoldaşımı gözləyirəm. Birlikdə bazara getməliydik. O, avtobusla getdi, mən isə avtobusa çata bilmədim. İndi gözləyirəm ki, yoldaşım geri qayıdanda heç olmazsa, yükünə kömək edim.

– Ay bacı, bəlkə yoldaşın taksi ilə qayıdacaq, bəlkə ayrı bir avtobusla qayıdacaq. Sən burada neçə saatdır gözləməkdən yorulmadınmı?!

Hə, belə yerdə Allah Mirzə Cəlilə də, onun Novruzəlisinə də rəhmət eləsin! Rəhmətlik Mirzə Cəlil elə dərin yazıb ki, oxuyanlar onun Novruzəlisini təqlid etməyi bir savab kimi başa düşürlər. Novruzəliyə də rəhmət eləsin ona görə ki, axı o yazıq nə pis iş görübdür?! Əgər pis bir iş görübsə, bəs onda indiki Novruzəlilər niyə onun işini təkrar edirlər? Deməli, Novruzəlinin əməli yaxşı əməl kimi cahanda məşhurdur. Əlqərəz... Allah Mirzə

Cəlilə də, onun Novruzəlisinə də rəhmət eləsin. Dəymədüşər kişi ilə Naznaz xanım isə, necə deyərlər, Mirzə Cəlillə Novrzuəlinin torpağı sanı yaşasınlar. Amin!

*13.10.2014*

# Molla kitab açır

Yəqinki, belə adamlarla tez-tez qarşılaşırsınız. Deyə bilərsiniz ki, necə adamlarla? Bir az səbirli olun, indi deyəcəyəm. Hər zaman “Allaha şükür”, “Allah kərimdir”, “Yaxşı olar” deyənləri nəzərdə tuturam. Bir tərəfdən onlar Allah adamıdır, bütün işləri Allahın icazəsində, iznində görürlər. Allaha hər zaman şükranlıq edirlər. Belələri olanları, baş verənləri Allahın məqbul saydığı işlərdən hesab edirlər. Başqa sözlə, beləleri Allahını tanıyır, bəndələrinə isə hörmətli, izzətli və mərhəmətli olurlar. Ancaq beləleri bəzən daha çox əziyyət çəkirlər. Ona görə əziyyət çəkirlər ki, onlar bəzən zəhmətdən daha çox duadan, itaətdən asılı qalırlar. Elə fikirləşirlər ki, Allah onların əvəzinə hər işi görməlidir. Allah isə deyir ki, səndən hərəkət, məndən bərəkət. Yenə də mətləbdən uzaqlaşmayaraq qayıdıram ora ki, çoxları tez-tez “Allaha şükür”, “Allah Kərimdir”, “Yaxşı olar” deməklə həyatdakı ictimai və sosial məsuliyyətdən qaçırlar. Elə hesab edirlər ki, yaxalarını yana çəkməklə nəyəsə nail olurlar. Ancaq unudurlar ki, nə itirirlərsə, elə özləri itirir. Hansı işdə geri qalırlarsa, günah özlərinindir. Bu barədə saysız-hesabsız həyat hadisələri, əhvalatlar var. Birisini yada salmaq istəyirəm. Belə ki, birisinin var-dövləti – bircə inəyi varmış. Günlərin birində inək meşədən qayıtmır. İnəyin otlaq sahəsi meşədə imiş. İnəyin sahibi çox narahat olur. Heyvan nə qədər axtarırsa, tapa

bilmir. Kimdən soruşursa, inəyi gördüm deyən də olmur. Əli hər yerdən üzülür. Mollaya üz tutur. Mollaya hadisəni danışır, ondan kömək istəyir. Molla kitab açır və tez-tez deyir:

– Yaxşı olar. Şükür Allaha. Allah kərimdir.

– Yəni deyirsiniz inək tapılacaq?

– Əlbəttə. Tapılacaq.

Molladan başqa bir inam yeri qalmayan inək sahibi bir az təsəlli tapır və onun müqabilində minnətdarlıq etməyini də unutmur.

– Çox sağ ol, molla qardaş.

– Get axtar, kitab da deyir ki, axtarsan taparsan.

Sahibi bir daha öz inəyini axtarmalı olur və nəhayət, meşənin içərisində tapır. Ancaq necə tapır?! Görür ki, inək yerə sərilib, bir tərəfindən bir canavar, digər tərəfindən başqa canavar didişdirir. Belə bir vəziyyətdə o heç nə edə bilmir. Geri qayıdır və mollanın yanına gəlir.

– Molla qardaş, inəyi tapdım.

– Dedim axı tapacaqsan. Harada idi?

– Meşədə idi. Ancaq inəyin bir tərəfindən Şükür, o biri tərəfindən Kərim tutub dartışdırırdı. Mən onların əlindən inəyi ala bilmədim. Əsas odur ki, sənə inanmayan kafirdir. Demişdin ki, get axtar, tapılacaq. Elə də tapıldı.

Belə - belə işlər dünyada tez-tez baş verir. Ancaq nə inək sahibləri öz sadəlövlüyündən əl çəkir, nə də molla öz əməlindən. Əksinə... Sadəlövhlər də gün-gündən çoxalır, mollalar da gün-gündən artır.

Hələ onu demirəm ki, itkisi olanlar, var-dövlətini, mal-mülkünü itirənlər bütün dost-tanışlarına, qohum - əqrabalarına mollanın "Allah kərimdir, naümid olmayın" kimi müqəddəs kəlamlarını təbliğ edirlər. Deyirlər ki, bu molla nə qədər savadlı, bilikli adamdır. Hər şeyi bilir. Elə ki itirdiyiniz barədə deyirsə ki, tapılacaq, mütləq tapılır. Nə isə...

İnəyi itən kişidən onu da deyim ki, bütün hamıya indiyə qədər car çəkir ki, mənim mollaya borcum var. Görün nə deyir:

– Molla açılmayan bütün sirləri aça bilir. Yetər ki, mollaya kitab açdırasınız.

Ancaq kişinin işi də, mollanın işi də xatalı işdir. Ay qardaş, xatalı iş birdir, ikidir, üçdür?.. Birincisi budur. İkincisi, üçüncüsü, dördüncüsü də var... Danışmaqla qurtarmaz. Yaxşısı budur ki, elə buradaca qurtaraq. Yoxsa başqa məmləkətlərdə itkisi olanlar da bu mollanın qeyri-adi istedadını eşidər, durub gələrlər onun görüşünə. Mollanın növbəsi o qədər çox olar ki, heç bizim özümüz də aylarla onun qəbuluna düşə bilmərik. Yaxşısı budur ki, çox danışmayaq. Mollanı başqa məmləkətin adamlarına tanıtmayaq. Sizdən də xahişim budur ki, belə əhvalatları əcnəbilərə danışmayın. Onları ayıq-sayıq etməyin. Qoyun molladan bixəbər olsunlar. Yoxsa mollamızı əlimizdən alarlar. Axı əcnəbilər belə qeyri-adi istedad sahiblərini əllərinə çıraq alıb axtarırlar...

*20.10.2014*

# Azərbaycanda tələbələrin problemlərini necə həll etməli –TƏKLİFLƏR

Təhsil millətin gələcəyidir. Bu sahəyə qoyulan xərclər tez-gec cəmiyyətə və onun inkişafına fayda gətirəcəkdir. Odur ki, müasir dövrdə universitetlərin maliyyə imkanlarının genişlənməsinə ehtiyac var. Həm də universitetlərdə təhsil alan tələbələrin sosial problemlərinin həlli istiqamətində mühüm işlər görülməlidir. Bu mənada bəzi təklif, fikir və mülahizələrimizi söyləməyi vacib sayırıq.

I. Yaxşı olar ki, maddi imkanı olmayan tələbələr maliyyə yardımı ala bilsinlər. Bu yardım tələbələrin sosial problemlərinin, təhsil haqqının ödənilməsi xərclərinin stimullaşmasında mühüm rol oynaya bilər. Azərbaycanın ən ucqar rayonlarından, kəndlərindən, qəsəbələrindən ali məktəblərə təhsil almaq üçün gələn tələbələr (gənclər) maddi imkan olmadan necə oxuya bilər, kadr kimi yetişə bilər? Dünyada tələbələrin maliyyə yardımı alması barədə təcrübə vardır. Məsələn, ABŞ-da, Massaçusets ştatında, Kembric şəhərində yerləşən Harvard Universitetində tələbələrin üçdən ikisi maliyyə yardımı alır.

Tələbə təhsil haqqını ödəmək üçün dövlətdən borc götürsə, nəticədə tələbənin ictimai məsuliyyəti də arta

bilər. Tələbə həm də gələcəkdə həmin borcu ödəmək xatirinə yaxşı oxumaq, yaxşı kadr olmaq məsuliyyətini hiss etməli olacaqdır. Məsələn, Böyük Britaniya Krallığında Kembric şəhərində yerləşən Kembric Universitetində təhsil almaq üçün yalnız Britaniya vətəndaşları dövlətdən maliyyə yardımı ala bilirlər. Və təhsili başa vurduqdan sonra götürdükləri maliyyə yardımını universitetə ödəyə bilirlər. Bu zaman şəxsin minimum əmək haqqına, az gəlirli ailədən olmasına diqqət yetirməklə dövlətin əvəzsiz yardım (qrant) təqdim etməsinə də ehtiyac vardır.

II. Dünyada olan təcrübəyə əsaslanaraq universitetlər öz məzunları ilə əlaqə yaratmalıdır. Məzunlar arasında dövlət və özəl sektorlarda çalışan imkanlılardan istifadə etmək lazımdır. Onların maliyyə dəstəyini həyata keçirmək üçün mühüm və ciddi addımlar atılmalıdır.

III. Universitetlər tələbələrin fəaliyyətini elə istiqamətləndirə bilərlər ki, həm tələbələrin bir qisminin ictimai adaptasiya prosesi gedə bilər, həm də tələbələr asudə, boş vaxtlarında öz istedad, bacarıqları hesabına maddi durumlarını yaxşılaşdıra bilərlər. Hər halda bu işə universitet ciddi nəzarət etməlidir. Məsələn, Azərbaycan Dövlət Pedaqoji Universitetində musiqi, rəssamlıq ixtisasına yiyələnən tələbələr, eləcə də ingilis, fransız ixtisasını öyrənən tələbələr öz sahələri üzrə fəaliyyət göstərə bilərlər. Belə ki, rəssamlar rəsmlər çəkib sərgisini təşkil edər, xarici dil mütəxəssisi olmaq istəyənlər tərcümə prosesinə qoşula bilər və s. Bu istiqamətdə görüləcək işlərə

müvafiq universitetlərin müvafiq fakültələri qoşulmalı və universitetin maddi imkanlarını genişləndirməyə səy göstərməlidirlər. Bu cür fəaliyyət müvafiq sahələrdə, müvafiq layihələrdə universitetlərin iştirak etməsinə gətirib çıxara bilər. Nəticədə müəyyən qrantlar, maliyyə imkanları əldə etmək olar. Məsələn, Azərbaycan Dövlət Pedaqoji Universitetinin simasında belə etmək olar: Müvafiq fakültələr, kafedralar, mütəxəssislər orta məktəb dərsliklərinin yazılmasında fəal iştirak edə bilər. Nəticədə orta məktəblə müəllim hazırlayan Pedaqoji Universitet arasında əlaqə möhkəmlənə bilər, həm də dövrün tələblərinə cavab verə bilən dərsliklərin yazılması universitetə maliyyə gətirə bilər.

IV. Dünyanın ən yaxşı universitetlərinin və ümumiyyətlə, universitetlərin nəzdində uşaq bağçaları, məktəblər, kolleclər, dükanlar və s. fəaliyyət göstərir. Bir sözlə, universitet bir şəhərciyi xatırladır. Universitet şəhərciyi bir sistem halda fəaliyyət göstərir. Universitetlərin imkanlarının və fəaliyyət dairəsinin genişlənməsində şəhərcikdəki bütün obyektlərin mühüm rolu vardır. Məsələn, Koreya Qabaqcıl Elm və Texnologiya İnstitutu Cənubi Koreya Respublikasının Tecon şəhərinin Yuseonq rayonunda yerləşir. Müəllimlərinin ümumi sayı 701 nəfər, təlbələrinin sayı 8217 nəfər, illik büdcəsi 397 milyon ABŞ dollarıdır.

İnstitutda tələbələrin sağlam qidalanmasına xüsusi diqqət yetirilir. Ali məktəbin kampusunda çoxlu sayda ka-

fe və restoranlar fəaliyyət göstərir. Burada istənilən xidmət sahəsi var (banklar, bərbərxanalar, paltar mağazası və s).

Həftə sonları açıq havada və qapalı zallarda müxtəlif konsertlər, şoular, tədbirlər, canlı çıxışlar təşkil olunur. Gənclər təhsil aldıqları ali məktəbin onlara təqdim etdiyi belə tələbə həyatından xüsusi zövq alırlar.

V. Azərbaycandakı univeritetlərin, demək olar ki, əksəriyyəti respublika səviyyəli və dünya səviyyəli layihələrdə iştirak etmirlər. Bu layihələrdə iştirak etmədikləri üçün heç bir qrant ala bilmirlər. Bunun üçün universitetlərin potensialı yeniləşməli, müasirləşməlidir. Universitetlərdə universitetlərin imicinə, nüfuzuna xidmət etmək imkanında olmayan xeyli miqdarda əməkdaşlar vardır. Bunlar universitetlərdə fəaliyyət göstərmək əvəzinə, yalnız və yalnız universitetlərdən hər şeyi umurlar. Bu işin bir tərəfi, ikinci bir tərəfdən universitetlərimizin təkcə kadr potensialı deyil, həm də maddi-texniki bazası beynəlxalq layihələrdə iştirak etməyə imkan yaratmır. Məsələn, fizika, kimya, biologiya və s. laboratoriyalarının imkanı hansı səviyyədədir? Bu suala cavab onu göstərir ki, laboratoriyaların imkanları məhduddur. Dünyadakı universitetlərin birinin təcrübəsindən nümunə: Fransa Politexnik Məktəbi (Fransada Paris şəhərində yerləşir) 2009-cu ildə tədqiqatlar aparmaq üçün 12 milyon avro xərcləyibdir.

VI. Universitetlərin geniş ərazisi olmalıdır. Dünyanın müxtəlif universitetləri bu sahədə nümunədir. Müasir dövrün tələblərinə cavab verən yataqxanaları tikilməlidir.

Bu gün universitetlərin nəşriyyatlarının müasir tələblər səviyyəsində fəaliyyətinə böyük ehtiyac var. Burada əməkdaşların və digər müəlliflərin kitabları çap oluna bilər və bundan gələn gəlir universitetin maddi imkanını artıra bilər. ABŞ-da Kornel Universitetində universitetin zavodu fəaliyyət göstərir. Dünya universitetlərində tikiş fabrikləri, maşın proflaktoriyaları vardır. Məsələn, Avstraliya Milli Universitetində 7 kollec yaradılıbdır.

Bunları bizim universitetlərdə də yaratmaq mümkündür. Ancaq gərək universitetlər şəhərcik kimi fəaliyyət göstərə bilsin.

VII. Universitetlərdə tədrisin keyfiyyətini yüksəltmək üçün elə bir sistem yaratmaq lazımdır ki, tələbə də, müəllim də vicdanlı olsun. Məsələn, ABŞ-da Prinston Universitetində imtahan yazılı keçirilir. İmtahan "Vicdan sistemi" ilə aparılır. Tələbələr vicdanlı imtahan verməyə söz verirlər, ona görə də imtahana müəllim nəzarət etmir. Nəzarətçilər vərəqi paylayır. Sonda vərəqləri toplayır. Tələbələrin hər biri işini imzalayarkən yazır: "Vicdanıma and içirəm ki, imtahan zamanı vicdan kodeksini pozmamışam".

VIII. Universitetlərdə dil öyrədən kurslar yaratmaq olar. Azərbaycan Dövlət Dillər Universiteti, Bakı Dövlət Universiteti, Bakı Slavyan Universiteti, Azərbaycan

Dövlət Pedaqoji Universiteti və digərləri bu sahədə fəaliyyət dairələrini genişləndirə bilər. Universitetlərdəki müvafiq dil kafedraları bu işi təşkil edə bilər.

IX. Universitetlərə yardım verilsə, onların fəaliyyəti daha da yaxşılaşar. Məsələn, Kanadada Toronto Universiteti 1 milyard yardım alır.

Universitetlər fəaliyyətlərini elə qura bilər ki, dövlətdən kredit götürməklə müasir tələblərə uyğun görkəm və imic qazana bilərlər.

X. Bu gün Azərbaycandakı universitetlərin bir çoxunun yataqxanası yoxdur. Özəl universitetlərin ümumiyyətlə yataqxanası yoxdur. Dövlət Universitetlərinin isə yataqxanaları məlum səbəbdən tələbələrə xidmət etmir. Halbuki yatqxanalar tələbələrin ictimai adaptasiya prosesinə yardım edir. Həm də yataqxanada tələbələr kollektiv şəkildə fəaliyyət göstərir, oxuyurlar. Bu da tələbələrin formalaşmasına yaxşı təsir göstərir.

XI. Bu gün Universitet əməkdaşlarının universitetdən əməkhaqqından əlavə aldıqları yardımlar təkcə elmi dərəcələrə görə deyil, həm də məhsuldar iş qabiliyyətinə görə fərqlənməlidir. Ümumiyyətlə, universitetlərdə əməkdaşların əməkhaqqı hər kəsin qabiliyyətinə, elminə, faydasına görə olmalıdır. Məsələn, ABŞ-da Braun Universitetində müəllimlərin əməkhaqqı onların elmi dərəcələrindən asılı olaraq dəyişir. Belə ki, professor orta hesabla ildə 134500, elmlər diktoru 87276, dosent 75768, müəllimlər 59858, stajlı müəllimlər isə 71983 ABŞ

dolları dəyərində maaş alır. Bu universitetdə əməkhaqqının məbləği universitetin məktəb və fakültəsindən asılı olaraq dəyişir.

XII. Azərbaycanda iş adamları heç də az deyil. Ancaq nədənsə onlar məktəbə, təhsilə pul ayırmırlar, vəsait qoymurlar. Söhbət təkcə iş adamlarının təhsilə pul ayırmasından deyil, həm də onların tələbələrə, magistrlərə təqaüd təsis etmələrindən gedir ki, bu da işin xeyrinə olar. Dünyanın müxtəlif universitetlərində bu təcrübə vardır. Məsələn, ABŞ-da Braun Universitetində 2007-ci ildə iş adamı Uorren Alpert Universitetə 100 milyon dollar məbləğində yardım edibdir. Bizdə evlər, binalar, məscidlər tikən iş adamları var, ancaq məktəb, universitet tikən və təhsilə pul ayıran iş adamları yoxdur.

XIII. Dünyadakı universitetlərin bir qisminin imicini həmin universitetlərin tələbələr, magistrlər üçün təsis etdikləri yüksək məbləğli təqaüdlər daha da artırır. Məsələn, ABŞ-dakı Los-Anceles Kaliforniya Universiteti tələbələr və magistrlər üçün çoxsaylı təqaüdlər təklif edir. Onlardan ən mühümü Kot-Robles təqaüdüdür. Onun məbləği 20 min ABŞ dolları məbləğindədir. Los-Anceles Kaliforniya Universitetindəki bu vəziyyət tələbələrdə o qədər həvəs yaradır ki, onların yarıdan çoxu burada qalıb işləmək və tədqiqatlarını davam etdirmək arzusunda olurlar. Tələbələrin 33 faizi Pell qrantı alır.

XIV. Bu gün belə bir sual bütün universitetləri düşündürməlidir: Universitetlərin özəl xüsusiyyətləri nədən

ibarətdir? Yeri gəlmişkən onu da qeyd edək ki, keçmişdəki institutlar universitetlərə çevrildikdən sonra onların özünəməxsus özəllikləri də "universitet" adı altında sıradan çıxdı. Məsələn, Azərbaycan dili və ədəbiyyatı müəllimliyi ixtisasını Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı Dövlət Universiteti, Bakı Slavyan Universiteti, Azərbaycan Dillər Universiteti və digərləri hazırlayır. Bir sözlə, biz mövcud universitetlərimizi necə xarakterizə edə bilərik?

Ancaq Los-Anceles Kaliforniya Universitetinin konseri Sen Blok rəhbərlik etdiyi ali təhsil ocağını belə xarakterizə edir: "Los – Anceles Kaliforniya Universiteti tədris və tədqiqatların səviyyəsinə görə dünya liderlərindən biridir. Tələbələrimiz yaxşıların ən yaxşısıdır, müəllimlərimizin hər biri isə öz sahələri üzrə aparıcı alimlərdir. Onlar təhsili və yeni-yeni kəşfləri çox sevirlər. Mən ümid edirəm ki, siz bizim gözəl kampusumuzu ziyarət edəcək, mədəni və idman tədbirlərimizə qatılacaqsınız".

Bizim hazırladığımız kadrlar Biləcəridən o yana getmir. Fikir verin, İngiltərədə Bristol şəhərində olan Bristol Universitetinə rəhbərlik edən Universitetin vitsekonsleri Erik Tomas yazır: "Bristol Universiteti gözəl Bristol şəhərinin mərkəzində yerləşən valehedici akademik reputasiyaya malik bir elm mərkəzidir. Tələbələrimiz cəmiyyətin müxtəlif təbəqəsini təmsil edirlər, bu isə universitetimizi daha da zənginləşdirir. Biz bütün insanların bərabərliyinə inanırıq və bəşəriyyət üçün hərtərəfli

inkişaf etmiş şəxsiyyətlər yetişdiririk". Yaxud Osaka Universiteti (Yaponiyada Osaka şəhərində yerləşir).

1724-cü ildə yaranıb. İllik gəliri 128 milyard yapon yeni, illik xərcləri 128 milyard yapon yeni. Osaka Universitetinin prezidenti Uoşida Kiyokazu rəhbərlik etdiyi ali təhsil müəssisəsi haqqında deyir: "Osaka Universiteti cəmiyyətin tam inamını qazana biləcək mütəxəssis və tədqiqatçılar yetişdirir. Başqa sözlə, əsl müdrik, nəcib və yüksək səviyyədə ünsiyyət qurmağa malik insanlar bu ali məktəbin məzunlarına çevrilir. Universitetin hər bir işçisi, tələbəsi, tədqiqatçısı bütün qüvvələrini birləşdirərək çalışır ki, cəmiyyət onların haqqında "Osaka Universitetini bitirən şəxslər həqiqətən başqa insanlardan bir addım qabaqdadır" desin.

Yaxud Tsinxua Universiteti (Çin Xalq Respublikası, Pekin şəhəri) Dövlət tipli Universitetdir, 1911-ci ildə yaranıbdır.

Devizi "Şəxsi intizam və ictimai məsuliyyət", əzmi isə "Fəaliyyət sözlərdən daha uca danışır" kəlmələrindən ibarət olan Tsinxua Universiteti özünü Çin cəmiyyətinin rifahı və dünya elminin inkişafına həsr edib.

Tsinxua Universiteti özünün yüksək elmi səviyyəsi və təhsil keyfiyyəti ilə dünyada xüsusi nüfuza malikdir. Universitet yüksək səviyyəli kadr hazırlayan ali təhsil ocağıdır. Ali məktəb Mərkəzi hökümət və Maarif Nazirliyinin köməyi ilə onların tədqiqatlara ayırdığı qrantlar, "Layihə - 211" və "Layihə - 985" Dövlət Proqramlarının

dəstəyi nəticəsində yeni inkişaf mərhələsinə qədəm qoyub.

ABŞ-dakı Nyu-York Universitetinin devizi belədir: "Ciddi məşğul olmağa davam etmək və ötüb-keçmək". ABŞ-dakı Biston Universitetinin devizi: "Öyrənmək, ləyaqət, möminlik".

*13.09.2014*

# Təhsilin inkişafı üzrə Dövlət Strategiyası: Ən vacib hədəflər

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə 2013-cü il 24 oktyabr tarixində Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası təsdiq edildi. Əlbəttə bu Dövlət Strategiyası məzmun, beynəlxalq təcrübə və meyillər, Azərbaycanda təhsilin vəziyyəti, təhsil sisteminin başlıca vəzifələri, məqsəd, əsas istiqamətlər, hədəflər və tədbirlər, Strategiyanın həyata keçirilməsi baxımından böyük əhəmiyyət daşıyır. Bu gün Azərbaycanda davamlı inkişaf mərhələsi başlamış, əhalinin sosial-iqtisadi həyatında baş verən müsbət dəyişikliklər insan kapitalının inkişafını, şəxslərin bilik və bacarıqlara yiyələnməsini başlıca vəzifəyə çevirmişdir. Ölkədə qabaqcıl beynəlxalq təcrübəyə uyğunlaşmaq, iqtisadiyyatı inkişaf etdirmək, əhalinin həyat səviyyəsini yüksəltmək üçün elmi nailiyyətlər əsasında yaranan innovasiyalardan istifadə etmək vacib bir məsələdir. Ona görə də ölkənin təhsil sisteminin başlıca vəzifələrindən biri də insan kapitalının inkişafına nail olmaqdır. Bunun sayəsində insanlar öz həyatlarını daha yüksək səviyyədə qura bilərlər. Təbii ki, əmək bazarında öz mövqelərini tutmaqla bərabər, cəmiyyətdə də fəaliyyətlərini düzgün stimullaşdıra bilərlər. Bunun üçün təhsil və

bütövlükdə bu proses böyük əhəmiyyət kəsb edir. Belə ki, təhsil hər bir fərdin cəmiyyətin layiqli üzvü olmasına şərait yaradır, onu nümunəvi vətəndaşa çevirir. Son illərdə bu istiqamətdə təhsil sahəsində əhəmiyyətli işlər görülür. Təhsil müəssisələrinin (xüsusilə orta məktəblərin) maddi-texniki bazası gücləndirilir, yeni-yeni məktəb binaları tikilir, təmir-bərpa işləri aparılır. Eyni zamanda informasiya-kommunikasiya texnologiyaları tətbiq olunur. Məqsəd ondan ibarətdir ki, Azərbaycanda təhsilin keyfiyyəti Avropa standartlarına uyğunlaşa bilsin. Təhsilin keyfiyyətini Avropa standartlarına uyğunlaşdırmaq üçün təkcə maddi-texniki bazanı inkişaf etdirmək, informasiya-kommunikasiya vasitələrini tətbiq etmək kifayət etmir. Həm də idarəetmə sistemi yenidən qurulmalı, təhsil sahəsində insan resursları inkişaf etdirilməli, müəllimin nüfuzu yüksəlməlidir. Bunların hamısı ölkədə həyata keçirilməsi vacib olan məsələlərdir. Bu mənada "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" öz məzmunu baxımından strateji istiqamətdə ən vacib hədəfləri əhatə edir. Strategiyada dünya ölkələri arasında aparıcı mövqedə olan şəriştəli müəllimləri və təhsil menecerlərini, eləcə də qabaqcıl texnologiyalara əsaslanan təhsil sistemini yaratmaq üçün beş strateji istiqamət əsas kimi götürülür. Bu istiqamətin hər biri genişmiqyaslı tədbirlər kimi diqqəti cəlb edir. Odur ki, bu istiqamətlərin üzərində dayanmaq lazım gəlir.

Birinci strateji istiqamətdə əsas hədəf kimi səriştəyə əsaslanan şəxsiyyətyönlü təhsil məzmununun yaradıl-

masını diqqət mərkəzində saxlamaqdır. Burada əsas məqsəd təhsilin bütün pillələrində (məktəbəqədər, ümumi, ilk peşə - ixtisas, orta ixtisas və ali ixtisas) kurikulumların inkişafına nail olmaqdır.

İkinci strateji istiqamətdə əsas hədəf kimi təhsil sahəsində insan resurslarının müasirləşməsini diqqət mərkəzində saxlamaqdır. Bunun sayəsində səriştəli, təcrübəli təhsilverəni formalaşdırmaq mümkündür. Səriştəli, təcrübəli təhsilverən innovativ metodları tətbiq edərək təhsilalanların istedadını üzə çıxarmaqda, onların nailiyyətlərini yeni sistemlərin tələbinə uyğun qiymətləndirməkdə, onların inkişafına nail olmaqda, qayğı və ehtiyaclarını ödəmək üçün inklüziv təlim metodologiyasının yaradılmasında ciddi, məsuliyyətli işlər görməliyik.

Üçüncü strateji istiqamət kimi təhsildə səmərəli idarəetmə mexanizmlərinin yaradılması əsas hədəf kimi götürülür. Burada səmərəli idarəetmə mexanizmi dedikdə cavabdehlik, şəffaflıq, bir də səmərəliliyin özü üçüncü strateji istiqamətin əlamətləri sırasına daxil olur. Səmərəli, cavabdeh, şəffaf idarəetmə qabaqcıl beynəlxalq təcrübəyə əsaslanmaqla müasirləşməli, təhsilin keyfiyyət təminatını artırmalı, eyni zamanda təhsildə yeni məlumat, hesabat sistemlərini yaratmalıdır.

Dördüncü strateji istiqamət kimi təhsil infrastrukturunun yaradılmasıdır. Təbii ki, təhsil strukturu müasir tələblərə uyğun olmaqla təhsil prosesini təmin etməlidir. Burada əsas məqsəd kimi təhsil müəssisələrində informa-

siya kommunikasiya texnologiyalarının formalaşması, distant təhsil sisteminin qurulması, istedadlı uşaqların inkişafını təmin edən təhsilin yaradılması, yaşlıların təhsilini qurmaq, peşə - ixtisas və təhsil müəssisələri üzrə regionlarda məsləhət mərkəzlərinin fəaliyyətini təmin etmək, kampusların yaradılması və s. məsələlər ehtiva olunur.

Beşinci strateji istiqamət Azərbaycan təhsilində dünya təhsil standartlarına uyğun maliyyələşdirmə modelinin qurulması ilə bağlıdır. Doğrudan da, hal-hazırda təhsilin maliyyələşdirilmə mexanizminin təkmilləşməsinə ehtiyac vardır. Ona görə də təhsil müəssisələrində adambaşı maliyyələşdirmə artıq başlanmalıdır. Eyni zamanda təhsil müəssisələrində ödənişli təhsil xidmətləri dəstəklənməlidir. Bunun üçün Təhsilin İnkişaf Fondunun yaradılması müasir təhsil sisteminin tələbidir.

Beləliklə, qabaqcıl təhsil sisteminə əsaslanan strateji istiqamətdə səriştəyə əsaslanan şəxsiyyətyönümlü təhsil məzmununun yaradılması, təhsil sahəsində insan resurslarının yaradılmasını müasirləşdirmək, səmərəli, şəffaf, cavabdeh, idarəetmə mexanizmlərini yaratmaq, təhsildə müasir tələblərə uyğun infrastruktur qurmaq, dünya təhsil standartlarına uyğun maliyyələşdirmə modelini formalaşdırmaq əsas hədəf kimi götürülür.

*03.11.2014*

# Təhsilin İnkişafı üzrə Dövlət Strategiyasının əsas hədəfi

Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasında təhsil sahəsində beynəlxalq təcrübə və meyillər yüksək təhsil səviyyəsinə nail olmaq üçün diqqət mərkəzində saxlanılır. Bu da çox düzgün seçilmiş və elmi-nəzəri əsası olan bir hədəfdir. Ona görə ki, təhsilin sosial, iqtisadi, mədəni həyatda böyük rolu vardır. Ölkədə təhsilin səviyyəsi nə qədər yüksək olarsa, peşəkar kadrlar, intellektual səviyyəli insanlar da çoxalar. Nəticədə ölkədə iqtisadi, sosial, mədəni həyatda inkişaf, yüksəliş baş verə bilər. Dayanıqlı inkişaf mərhələsində olan ölkəmizdə bunun davamlı və uğurlu gələcəyi üçün insan kapitalının inkişafına nail olmaq olduqca vacib və əhəmiyyətlidir.

İndi dünya elə bir mərhələyə qədəm qoymuşdur ki, burada hər bir vətəndaşın biliyinin, bacarığının cəmiyyətə inteqrasiyası mühüm rol oynayır. Hərtərəfli bilik, bacarıq və vərdişlərə malik olan vətəndaşlar cəmiyyətə inteqrasiya olunmaqla təkcə özlərinin deyil, həm də cəmiyyətin də tələbatını ödəyə bilərlər. Belə vətəndaşlar ölkənin iqtisadi inkişafına, sosial inkişafına, mədəni inkişafına öz elmləri, bilik və bacarıqları ilə yardımçı ola bilərlər. Təbii ki, bi-

lik və bacarığın cəmiyyətə inteqrasiyasında müasir ixtisaslara yiyələnmək imkan verir ki, bilik və bacarıqlar yeniləşsin, müasirləşsin, dünyəvi bir mahiyyət və məzmunda olsun. Məhz bilik və bacarığın yeniləşməsi təhsilin prioritetliyini daha da artırır. Bu da tələb edir ki, təhsilin keyfiyyəti yüksəlsin və əhatəliliyi artsın. Təhsilin keyfiyyətini artırmaq təkcə təhsil müssisələrinin sayı və təhsilin müddəti ilə bağlı deyil. Düzdür, bunlar da vacib şərtdir. Ancaq bunlardan da vacib olanlar vardır. Vacib olanlar sırasında təhsil prosesinin özünün keyfiyyətini artırmaqdır. Təhsil prosesinin keyfiyyəti artmasa, təhsildə müsbət nəticələrin əldə olunması asan olmayacaqdır. Onu da qeyd edək ki, təhsildə infrastrukturun yeniləşdirilməsi, təhsil müəssisələrinin yeni avadanlıqlarla təmin edilməsi hələ təhsilin keyfiyyətində irəliləyişlər əldə etmək deyildir. Bu mənada Strategiyada beynəlxalq təcrübəyə istinad edərək qeyd olunur ki, bir sıra ölkələrdə yazmaq, oxumaq, hesablamaq vərdişlərinə yiyələnə bilməyən çoxlu sayda insanlar vardır. Halbuki həmin ölkələrdə təhsilə xeyli xərclər ayrılmış, təhsil müəssisələri avadanlıqlarla təhciz olunmuş, təhsil infrakstrukturu yeniləşmişdir. Bunlara baxmayaraq, həmin ölkələrdə təhsilin keyfiyyətində müsbət irəliləyiş olmamışdır. Ona görə də təhsilin keyfiyyətini, ədalətliliyini prioritet sahə kimi diqqət mərkəzində saxlamaq lazımdır. Həm də Strategiyalı təhsilin keyfiyyətinə və əhatəliliyinə qoyulan yeni tələbləri həyata keçirmək lazımdır. Həmin tələblər sıra-

sında formal (dövlət təhsil sənədinin verilməsi ilə başa çatan), informal (özütəhsil yolu ilə biliklərə yiyələnmə), qeyri – formal (müxtəlif kurslarda, dərnəklərdə və fərdi məşğələlərdə əldə edilən və dövlət təhsil sənədinin verilməsi ilə müşayiət olunmayan) təhsil formaları da nəzərdən yayınmır. Eyni zamanda zehni inkişafın təməlinin erkən yaş dövrlərində başlanması əldə rəhbər tutulur. Ona görə də uşaqların zehnini erkən yaş dövrlərindən inkişaf etdirmək üçün məktəbəqədər təhsilin inkişafı dövlət siyasətinin prioritet sahələrindən biri kimi dəyərləndirilir.

Strategiyada beynəlxalq təcrübədən çıxış edərək bir çox qabaqcıl ölkələrin ümumi təhsil müddəti təkcə müqayisə olunmur, həm də təhsilin keyfiyyətini artırmaq baxımından hər bir təhsil işçisini düşündürür. Məsələn, Kanadada, Fransada, Hollandiyada, Çexiyada ümumi təhsilin müddətinin 14 il, Almaniyada, Böyük Britaniyada, İsveçdə, Avstraliyada, Yeni Zelandiyada 13 il, Amerika Birləşmiş Ştatlarında, Finlandiyada, Cənubi Koreyada, Polşada və digər ölkələrdə 12 il, az sayda ölkələrdə 11 il olması təsadüfidirmi? Əlbəttə, bu, təsadüfi deyil. Belə ki, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının məlumatına görə, istənilən bir ölkədə istənilən təhsil pilləsinin təhsil müddətinin bir il artırılması həmin ölkədə Ümumi Daxili Məhsulun 3-6 faiz artımı ilə nəticələnir. Deməli, ümumi təhsil müddətinin artırılması təhsilin keyfiyyətinə xidmət edir. Və təhsilin keyfiyyətinin inkişafı Ümumi Daxili Məhsulun artımına gətirib çıxarır.

Strategiyada təhsil sahəsində beynəlxalq təcrübə və meyillər sırasında təhsilin məzmunu mühüm yer tutur. Belə ki, beynəlxalq təcrübədə təhsilin məzmunu ilə bağlı meyillərdən biri təhsil kurikulumlarının ölkənin sosial – iqtisadi inkişaf tələbləri ilə əlaqələndirilməsidir. Yəni kurikulumların məzmunu elə bilik, bacarıq, səriştə aşılamalıdır ki, onlar iqtisadi inkişafa xidmət etsinlər. Bilik, bacarıq, vərdiş, səriştə praktik yönümlü olmalıdır. Sırf nəzəri xarakterli bilik, bacarıq, vərdiş, səriştə fundamentallıqdan uzaqlaşır, tətbiq imkanlarını itirir. Ona görə də indi təhsilin məzmununun formalaşmasında nəzəri, akademik biliklərlə yanaşı, praktik bilik, bacarıq, vərdiş və səriştələr ön plana keçir. Əgər istənilən bir insanın bilik, bacarıq və vərdişləri konkret praktik imkana malik deyilsə, onun heç bir effekti olmur. Bu baxımdan kurikulumların məzmunu şəxsiyyətin hərtərəfli formalaşmasına xidmət etməklə yanaşı, əmək bazarının tələblərinə uyğun qurulmalıdır. Məhz strategiyada təhsilin məzmununda bu məqam xüsusilə diqqət mərkəzində saxlanılır.

Strategiyada təhsil sahəsində beynəlxalq təcrübə və meyillər sırasında müəllim və tədris metodikaları mühüm amillər kimi qiymətləndirilir. Doğrudan da, müəllim də, tədris metodikaları da təhsil prosesində ən vacib amillərdəndir. Belə ki, təhsilalanın formalaşmasında müəllimin biliyi, bacarığı, vərdişi, səriştəsi aparıcı rol oynayır. Ona görə də müəllim müntəzəm olaraq bilik və bacarıqlarını inkişaf etdirməlidir. Belə olmasa, o, təhsilalana yeni-ye-

ni biliklər verə bilməz, bacarıq, vərdişləri aşılamaqda heç bir nailiyyət əldə edə bilməz. Bu baxımdan da strategiyada müəllim amilinə, müəllim peşəkarlığına xüsusi diqqət yetirilir. Ona görə də təhsil islahatı zamanı müəllim hazırlığı və müəllim peşəkarlığı həlledici amil kimi unudulmur. Müəllimlərin mütərəqqi tədris metodlarına və müxtəlif sahələrə aid metodikalara xüsusi önəm verilir. Təcrübə onu göstərir ki, özünməxsus metodu olmayan müəllim təhsilalanın formalaşmasında, yaradıcı düşüncəsinin inkişafında uğurlu nəticə əldə edə bilmir. Ancaq özünəməxsus metodu olan müəllim təhsilalanın fərdi xüsusiyyətlərini nəzərə almaqla daha yüksək nəticələr əldə edir. Bununla da təhsil siyasətində müəllim və tədris metodikaları təhsilalanın inkişafında böyük rol oynayan amillər sırasında götürülür.

Strategiyada təhsil sahəsində beynəlxalq təcrübə və meyillər sırasında idarəetmə amili də başlıca amil hesab olunur. Belə ki, təhsil prosesinin iştirakçıları-təhsilverən və təhsilalan münasibətləri düzgün qurulmalıdır. Münasibətlər sistemini düzgün qurmaq, tənzimləmək, funksiyaları, səlahiyyət və cavabdehliyi dəqiq müəyyən etmək yenə də təhsil prosesinin keyfiyyətinə və inkişafına yetərincə xidmət edə bilir. Bu baxımdan strategiyada inkişaf etmiş ölkələrin təcrübəsinə istinad olunur. Bir daha məlum olur ki, inkişaf etmiş ölkələrdə təhsildə idarəetmənin ictimailəşməsi prosesi getdikcə sürətlənir. Əslində təhsildə idarəetmənin ictimailəşməsi o deməkdir ki, təhsilverə-

nin səlahiyyəti, funksiyası və cavabdehliyi cəmiyyətin hər bir üzvü tərəfindən tanınır və qəbul olunur. Bu da nəticədə təhsil strategiyasını uğurla həyata keçirir. Eyni zamanda təhsilin keyfiyyətinin dayanıqlı inkişafını təmin edir.

Təhsildə idarəetmənin ictimailəşməsi təhsil müəssisələrinin hər birini müstəqilləşdirir, təhsil prosesinin digər iştirakçılarını (valideynləri, şagirdləri, tələbələri) prosesə geniş şəkildə cəlb edir, nəticəni məqsədyönümlü və effektli edir. Həm də ali təhsildə özəl sektorun rolunu artırır. Bununla da ali təhsil müəssisələrində dövlət maliyyələşdirilməsi özəl sektorun maliyyələşməsi ilə əvəz olunur. Və bu baxımdan müxtəlif dövlətlərdə ali təhsil sisteminin maliyyələşdirilməsi müqayisə olunur. Məsələn, Almaniya, Avstriya, İtaliya kimi ölkələrdə dövlət maliyyələşdirilməsinin həcmi 90 faiz, ABŞ, Avstraliya, Yaponiya, Kanada və digər ölkələrdə isə 50-70 faiz təşkil edir. Bu da imkan verir ki, təhsilalan da, təhsilverən də maliyyələşdirmə məsələsinə dünya təcrübəsinə istinad etməklə yanaşsın. Deməli, ölkədəki ali təhsil müəssisələrinin maliyyələşdirilməsində yeni düşüncə və dünyagörüş təhsil sisteminə gəlməlidir. Bu yeni düşüncə və dünyagörüşlə təhsilin maddi-texniki bazasının inkişafına, müəllimin əmək haqqının artırılmasına və s. məsələlərə nail olmaq mümkündür.

Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasında Azərbaycan Respublikasında təh-

silin vəziyyəti məsələsi də əhəmiyyətli şəkildə özünə yer alır. Etiraf etmək lazımdır ki, son illərdə ölkəmizdə təhsilin inkişafı istiqamətlərində xeyli nailiyyətlər əldə olunmuşdur. Azərbaycan Respublikasının bütün regionlarında təhsilin infrastrukturu əhəmiyyətli dərəcədə yeniləşmişdir. Təhsil müəssisələri elmi-metodiki baxımından, təhsil infrastrukturunun yeniləşməsi baxımından, dərsliklərlə təminat baxımından, kadr təminatı baxımından yenidən qurulmuşdur. Azərbaycanda təhsilin keyfiyyəti və əhatəliliyi yüksəlmişdir. Belə ki, Birləşmiş Millətlər Təşkilatının 2010-cu il üzrə İnsan İnkişafı Hesabatına əsasən (2005-ci illə müqayisədə) Azərbaycan 169 ölkə arasında 101-ci yerdən 67-ci yerə yüksəlmişdir. Bununla da Azərbaycan "orta insan inkişafı" qrupundan "yüksək insan inkişafı" qrupuna daxil olmuşdur. Əlbəttə, bu, Azərbaycan təhsilinin beynəlxalq rəqabət prosesində davamlılığını, reytinq səviyyəsinin yüksəldildiyini göstərir. Bununla yanaşı, ali və ümumi təhsil üzrə təhsilalanların keyfiyyət göstəricilərini yüksəltməyi bir zərurətə çevirmək lazımdır. Eyni zamanda ümumi təhsil müəssisələrində dərsliklərin məzmununun, keyfiyyətinin elmi-metodik baxımdan təkmilləşdirilməsi də aktuallıq kəsb edir, bir zərurətə çevrilir. Bundan başqa, təhsilin keyfiyyəti və əhatəliliyi ilə bağlı digər vacib məsələlər də diqqət mərkəzində saxlanılır. Məsələn, həmin vacib məsələlər içərisində ali təhsil müəssisələrində kənd təsərrüfatı üzrə təhsil alan tələbələrin 1,2 faiz təşkil etməsidir. Bu, təbii

ki, gələcəkdə kənd təsərrüfatı sahəsində kadr çatışmazlığına gətirib çıxara bilər. Bundan başqa, regionlar üzrə ali təhsil almaq üçün ali təhsilə çıxış imkanları genişlənməlidir. Görünür ki, gələcəkdə ali təhsil müəssisələrinin regionlar üzrə qurulması həlli əhəmiyyətli hesab olunan işlərdən biri olacaqdır. Bu da imkan verəcəkdir ki, ali məktəb tələbələrinin sayı artsın. Strategiyada qeyd olunduğu kimi, hər 100 000 nəfərə düşən ali məktəb tələbələrinin sayı xeyli dərəcədə artacaqdır.

Respublikada təhsilin keyfiyyətini və əhatəliliyini artırmaq üçün məktəbəqədər təhsilə də xüsusi diqqət yetirilməlidir. Məktəbəqədər təhsilə cəlb olunanların sayı artmalıdır. Bu məsələ Strategiyada diqqət mərkəzində saxlanılır. Qeyd olunur ki, məktəbəqədər təhsil şəhərlərdə 23,4 faiz, kəndlərdə 8,7 faiz, ölkə üzrə 16,5 faiz təşkil edir. Düzdür, Bakı şəhərində məktəbəqədər təhsil müəssisələrində təhsil alanların sayı artaraq 27 faizə çatmışdır. Ancaq bu sahədə problemin tam həll edilmədiyi də bir faktdır. Bir fakt da odur ki, yaşayış məntəqələrimizin 75 faizində məktəbəqədər təhsil müəssisəsi yoxdur.

Strategiyada Azərbaycan Respublikasında təhsilin vəziyyəti reallıqların təhlili üzərində qurulur. Məsələn, təhsilin məzmununda görüləcək işlərin nə qədər zəruri olduğunu nəzərə çatdırmaq üçün ümumi təhsilin dövlət standartları və proqramları hədəf kimi götürülür. Doğrudan da fənn kurikulumları və dərsliklər ümumi təhsilin I-VI siniflərində tətbiq olunsa da, VII-XI siniflərdə bu isti-

qamətdə işlər davam etdirilməlidir. Ona görə davam etdirilməlidir ki, ümumtəhsil müəssisələrində indiyə qədər mövcud olan kurikulumlar müasir tələblərə cavab vermir, əmək bazarına uyğun deyildir. Ali təhsil müəssisələrində isə əmək bazarının tələbatına uyğun kadrların hazırlanmasına ehtiyac böyükdür.

Strategiyada Azərbaycan Respublikasında təhsilin vəziyyəti dedikdə idarəetmə, infrastruktur və s. məsələlər də təhsil sisteminin inkişafına xidmət edən amillər kimi diqqət mərkəzində saxlanılır.

Strategiyada "Təhsil sisteminin başlıca vəzifələri", "Strategiyanın məqsədi", "Strateji istiqamətlər", "Strateji hədəflər və tədbirlər", "Strategiyanın həyata keçirilməsi" təhsilin gələcəyi barədə geniş təsəvvür yaradır. Bunların hamısı ölkədə təhsilin gələcək inkişaf perspektivlərini bir məsuliyyətə çevirir. Artıq Strategiyada ən vacib amillər gündəmə gəlir: insan kapitalını inkişaf etdirmək, təhsildə beynəlxalq rəqabət qabiliyyətini yüksəltmək, müstəqil və yaradıcı düşünən vətəndaş, şəxsiyyət yetişdirmək, qabaqcıl mövqe tutan təhsil sistemini yaratmaq, müasir tələblərə cavab verən infrastrukturu yaratmaq, müxtəlif mənbələrdən istifadə olunmaqla yeni maliyyələşdirmə mexanizmini yaratmaq, səmərəli təhsil modelinə əsaslanan standart və kurikulumları hazırlamaq və s. Bütün bunların hamısını həyata keçirmək üzrə fəaliyyət planı Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq olunmuş və Strategiyanın icrasının gedişi barədə hər il

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin hesabat verməsi nəzərdə tutulmuşdur. Azərbaycan Respublikasının Nazirlər Kabinetinin hər il Azərbaycan Respublikasının Prezidentinə hesabat verəcəyi onu göstərir ki, Strategiyanın həyata keçirilməsi çox əhəmiyyətli və vacib bir işdir. Bu mənada Strategiyanın uğurla həyata keçirilməsi Azərbaycan Respublikasında təhsilin inkişafı ilə bağlı bir sıra nailiyyətləri vəd edir. Ölkənin gələcəkdəki mədəni, iqtisadi, sosial, elmi inkişafını şərtləndirir və stimullaşdırır.

*11.11.2014*

# Əziz dost, nə vaxt qayıdıb gələcəksən?!

14 mart 2014-cü il... Sübh tezdən işə gedirdim. İşə piyada gedirdim. Birdən əl telefonuma zəng gəldi. Baxdım ki, zəng vuran dostumuz Seyiddir. Onun adı Cavanşirdir, ancaq əsil-nəcabətli seyid nəslindən olduğu üçün ona bütün dostlar belə (Seyid) deyirlər. Fikirləşdim ki, bu vaxt nə zəngdir, görəsən. Heç ağlıma gəlmədi ki, onun mənə verdiyi xəbər bu qədər acı olarmış. Seyid telefonda mənə dedi ki, Suraxanıya gəl. Dedim nə olub. Dedi ki, gəl, bilərsən. Əl çəkmədim, dedim ki, nə olub. Gördü ki, əl çəkmirəm. Dedi ki, dostumuz İbrahim yoxdur. Dedim ki, necə yəni yoxdur?! O dedi ki, yoxdur da... İnfarkt oldu, dünyasını dəyişdi. Qolumdakı saat səhər tezdən $6^{37}$ dəqiqəni göstərirdi. Yer-göy başıma fırlandı. Özümün özümlə söhbətim belə oldu:

*Soyuqmuş bu qara torpağın üzü*
*Ay Seyid, sən bunu hardan bilirsən?!*
*Günbəgün, aybaay üyüdür bizi*
*Ay Seyid, sən bunu hardan bilirsən?!*

*Bunları babamız, nənəmiz deyib,*
*Bunları atamız, anamız deyib,*
*Kim deyib, düz deyib, çox təmiz deyib,*
*Ay Seyid, sən bunu hardan bilirsən?!*

*Ay Seyid, bu nə dərd, bu nə xəbərdi?*
*Ömrümün bu çağı qəddimi gərdi.*
*Bəlkə bir yalandı, ya kimsə gördü?!*
*Ay Seyid, sən bunu hardan bilirsən?!*

***

Bu bəd xəbərdən 3-4 gün əvvəl bazar günü görüşmüşdük. Mənə zəng vurmuşdu ki, sizə gəlirəm. Dedim ki, gözləyirəm, gəl. Gəldi xeyli söhbət etdik. Həmişə olduğu kimi ruhlu idi, həyat eşqi güclü idi. O qədər sevinirdi ki, hərəkətlərində də sevincini gizlətmirdi. Hətta pianinoda öz bildiyi kimi, özünəməxsus şəkildə bir mahnı da ifa etdi. Planlarımızdan, görəcəyimiz işlərdən danışdıq. Bir-birimiz barədə xoş sözlər dedik. Həmişə olduğu kimi zarafatımızdan da qalmadıq. Məndən ayrılanda həyətə qədər birlikdə çıxdıq. Həyətdə də xeyli söhbət etdik. Məndən ayrılanda dedi ki, üzümüzə gələn həftənin ya altıncı, ya da bazar günü dostlarla birlikdə görüşəcəyik. Bu görüşümüzün olacağına arxayın oldum və onunla nə zəngləşə bildim, nə də görüşə bildim. Hərdən özümü qınayıram ki, bəlkə zəngləşərdik, bəlkə görüşərdik. Bəlkə zəngləşsək, bəlkə görüşsək, bu hadisə baş verməzdi. Açığı deyim ki, bu bəlkələr də məni yaman yorur. Nə isə... Artıq bu bəlkələrdən keçib. Artıq ağlıma gəlməyən, yatsam belə, yuxuma girməyən hadisə baş verib. Artıq İbrahim onu tanıyanların hər birindən ayrı düşüb. O, hər gün, hər an onu tanıyanları, onun dostlarını, onun əzizlə-

rini, doğmalarını ağladır. Onda insani hisslər, duyğular o qədər güclü idi ki, onun fiziki yoxluğu ağlatmaya bilmir. Bu ağrı hamını – dostu, tanışı, qohumu, qardaşı, bu hadisəni eşidən hər bir kəsi ağlatdı, ağladır və ağladacaqdır.

### ***Ağladı***

*Ürəyin qəflətən susdu həmin gün*
*Göy üzü buluddan qara bağladı*
*Dost-aşna matəmə büründü bütün,*
*Adını eşidən bəndə ağladı.*

*Çatanda xəbərin yaxına, yada,*
*Hamını bir anda qaladı oda.*
*Son anda dayın da yetmədi dada,*
*Çalışıb-vuruşub gendə ağladı.*

*Əzəldən bağlıydın ölümsüzlüyə*
*Bu qədər vədəsiz köç etdin niyə?*
*Ömrünü xərclədin dost-tanış deyə,*
*Dostların hamıdan öndə ağladı.*

*Dostların gözündə yaş giləlndi*
*Ananın gözündən leysan ələndi,*
*Matəmə bürüdün şəhəri, kəndi,*
*Güc-qüvvət qalmadı, can da ağladı.*

*Qanrılıb baxanda qardaşlarına,*
*Ürəyim dözmədi, göz yaşlarına,*

*Bu dərdi duymayan uşaqlarına,*
*Baxanda hərə bir yanda ağladı.*

*Bu necə qismətdi, bu necə paydı,*
*Əzrayıl vədəsiz ömrünə qıydı,*
*İbrahim, ölümün dəli haraydı,*
*Qəhərdən Buludlu xan da ağladı.*

***

Həyatda insanın aciz olduğu məqamlar var... Belə məqamlarda insanın əlindən heç nə gəlmir. İnsanın heç nəyə gücü çatmır. Yadımdadır ki, dostum İbrahimin qəfildən ölümü dostları, qohumları, tanışları – hamını aciz bir vəziyyətə salmışdı: 14 mart 2014-cü il dəfn mərasimi, yas yeri İbrahimin özünün yaşadığı evdə deyil, atası evində – Suraxanıda təşkil olunmuşdu. Dəfn mərasiminə İbrahimin iki balaca övladını – oğullarını da gətirmişdilər: Alını və Nizamini. Uşaqlar məni görüb üstümə qaçdılar:

– Buludxan əmi, nə olub?!

Çaşıb qaldım. Bir anlıq özümü itirdim. Bilmədim ki, nə deyim:

– Sizi kim gətirib bura?

Uşaqlar bir ağızdan:

– Dayımız İlqar.

Onlar nə olduğunu, nə baş verdiyini başa düşmürdülər. Mən isə onlara nə baş verdiyini, nə olduğunu deyə

bilmirdim. Deməyə çox aciz idim. Heç demədim də. Dostumuz, şərqşünas alim Məsiağa Məhəmmədi üzümə baxırdı və mənim nə çəkdiyimi yaxşı başa düşürdü. Dostumuz Mahir isə kənara çəkilmişdi. Özünü elə aparırdı ki, guya aciz deyil. Amma belə deyildi. Acizdən də aciz idi. O, bizdən ayrıldı və İbrahimlə vidalaşmaq üçün içəri daxil oldu, beş-altı dəqiqədən sonra çölə çıxdı:

– Buludxan, mən İbrahimlə vidalaşdım, görüşdüm.

Heç bilmirdim ki, nə edim. Çaşıb qalmışdım. Hər şey mənə yuxu kimi gəlirdi. Birdən elə bil yuxudan ayıldım:

– Mən görüşə bilmərəm, mən vidalaşa bilmərəm. O, diridir, canlıdır, ölməyibdir. Sən nə danışırsan?!

Qəfildən elə hönkürdüm ki, Məsiağa məni qucaqlayıb ağlamaq məcburiyyətində qaldı. Mən onda çox aciz idim. Acizliyin nə olduğunu dərk edirdim. Acizlik bizim hər birimiz üçün sınaqdır. Anamı itirəndə də, atamı itirəndə də aciz idim. Belə aciz olduğum məqamlar olub...

Özünü guya aciz aparmayan Mahir sonda aciz olduğunu təsdiq etdi. Belə ki, dəfndən sonra məzarı qucaqlayıb hönkür-hönkür ağlayırdı. Biz onu qəbiristanlıqdan birtəhər çıxardıq, zorla çıxardıq. Acizlik onu da yükləmişdi. Dünyada aciz olmayan insan yoxdur. Biz kiməsə ruh, can verə bilərik?! Yox! Əsla! Bu Allahın işidir. Deməli, acizik. Bu acizlikdir ki, biz İbrahimə də ruh, can verə bilmədik.

Həyatda nə qazanmışamsa, alın tərimlə, zəhmətimlə, bir də istedadımın gücünə qazanmışam. Xeyirxahlarım da olub... Bədxahlarım da olub... Xeyirxahlarıma minnətdaram. Heç kəsin xeyirxahlığını unutmamışam və unutmaram da. Əgər hansısa bir xeyirxahımın xeyirxahlığının əvəzini qaytara bilməmişəmsə, bu məndən asılı olmayan, gücümdə olmayan bir iş olubdur. Ancaq bütün xeyirxahlarıma etdikləri xeyirxahlığa görə həmişə özümü borclu saymışam və belə də olacaqdır. İnsan olan hər bir kəs borclu olduqlarını unutmamalıdır. Ancaq bununla belə, bədxahlarım da sağ olsunlar. Onlar olmasaydı, xeyirxahların qədir-qiyməti azalardı. Nə isə...

Mən dostu da elə-belə qazanmamışam. Min cür sınaqlardan keçirmişəm. Açığı deyim ki, yoxlamışam, imtahana çəkmişəm, bəzən də ərk etmişəm. Necə ki, mən İbrahimi bu cür qazanmışdım. Qazandıqlarımın hər biri zəhmət hesabına olduğu üçün onun qədirini bilirəm. Dostum İbrahimin də qədirini bilirdim. Axı onu sınaqlardan keçirmişdim, axı onu qazanmışdım. Ona görə də onu itirmək mənə çox ağırdır. Onun itkisi ilə bağlı keçirdiklərimi sözlə ifadə etmək də çətindir. Kiməsə bağlanıramsa, dost kimi qəbul edirəmsə, ondan ayrılmaq, onu itirmək mənə ağır başa gəlir. Sədaqətim və sadiqliyim imkan vermir ki, belə hadisələri adi qəbul edəm. Axı qazandığım o qədər çox da deyil ki, itirəndə adi qəbul edəm. İbrahim qazandıqlarım içərisində ən qiymətlisi və dəyərlisi idi. Bunu heç nə ilə müqayisə etmək olmaz.

Dostluğun vacib şərtləri var. İnam, etibar, sədaqət və s. Məncə, dostluğun birinci şərti etibardır. Bu etibarı İbrahimdən həmişə görmüşdüm. Yeganə adam idi ki, mən onunla hər şeyi bölüşürdüm. O, bu etibarı qazanmışdı. Saatlarla oturub bölüşərdik. Bir-birimizi səbirlə dinləyər, bir-birimizə səbirlə qulaq asardıq. Adətən işin çoxluğundan əksər vaxt gecə – saat 8-dən, 9-dan sonra görüşərdik. Bəzən isə bazar və bayram günləri bir-birimizi axtarırdıq. Demək olar ki, hər gün görüşürdük. Bunu mənəvi tələbata çevirmişdik. Bizim hər gün bir-birimizlə görüşməyimiz gündəlik işlərimizdən biri idi. Bir yerdə saysız-hesabsız söhbətlərimiz, taleyüklü məsələlərin həlli ilə bağlı qarşılıqlı anlaşmamız indi xatirəyə çevrilibdir. Mən nə qədər varamsa, o xatirələri zaman-zaman vərəqlərə köçürəcəyəm. Dost sədaqətinin, dost etibarının nə olduğunu anladacağam. Bir dəfə gəldən-getdən danışdıq, eyni zamanda mənim bir kitabımın üz qabığını işlədik. Yeri gəlmişkən, İbrahimin kitabın içini və üz qabığını hazırlamaqda zövqü, istedadı əvəzsiz idi. Nə isə... Başımız o qədər işə qarışdı ki, bir də gördük ki, gecə saat 12-dir. Birdən mənim yadıma düşdü ki, atam üçün baş-ayaq almalıyam. O vaxt atamın ayağı sınmışdı, həkim xaş yeməsini məsləhət bilmişdi. Mən xaşı axşamdan hazırladıb səhər tezdən atama aparmalıydım. Onda 4-cü mikrorayonda olurdum. Xaşı isə hazırladıb hal-hazırda yaşadığım atamın evinə gətirməliydim. Bunu İbrahimə dedim. Onun maşınına oturub şəhəri ələk-vələk elədik. Hər yer bağlı

idi. Baş-ayaq tapa bilmədik. Qanım çox qaraldı. Gecə saat 12-ni çoxdan keçmişdi. İbrahim məni maşını ilə gətirib 4-cü mikrorayonda olduğum evimizin qabağında saldı. Evə qalxdım. Evdəkilər niyə gec gəldiyimi bilirdilər. Bilirdilər ki, işdən sonra çap etdirəcəyim kitabların əyər-əskiyini qaydasına salıram. Ancaq əliboş gəlməyimin səbəbini soruşdular. Hadisəni onlara olduğu kimi danışdım. Birdən əl telefonuma zəng gəldi. Gördüm ki, İbrahimdir. Mənə dedi ki, aşağı düş, baş-ayaq gətirmişəm. Gecə vaxtı – hər yerin bağlı olduğuna baxmayaraq, o, bunu necə tapdı, hardan tapdı, bilmədim. Heç soruşmağa vaxtım da olmadı. Ancaq bildim ki, o, bunu nəyin bahasına olursa-olsun etdi. Ona görə etdi ki, təki mən qayğılı olmayım. Eşitsəydi ki, dişim ağrıyıb, başım ağrıyıb ona deməmişəm, məndən inciyərdi. Niyə mənə deməmisən, ay professor, – deyərdi. Mənim üçün əlindən nə gəlirdisə, onu da edərdi. Təki mənim problemim, qayğım olmasın.

Əziz dost, əziz ruh qardaşım, əziz mənəvi qardaşım, bütün məqamlarda dopdolu qardaşım, həyatı və insanları sevən, məhz səmimi və təbii sevən qardaşım, sənin yerin boşdur! Bu boşluğu hər an, hər dəqiqə, hər saat, hər gün hiss edirəm. Əl telefonuma əl atıram. Sənə zəng vurub görüşmək istəyirəm. Ancaq... Ancaq yadıma düşür ki, sən Allahın dərgahındasan. Ehtiyat edirəm. Dəhşətli dərəcədə ehtiyat edirəm. Ehtiyat edirəm telefonumun yaddaşında olan nömrənə zəng vurmağı. Bilirsən-

mi, mənə nə qədər ağır gələr ki, o biri başdan telefonumda bu sözlər səslənsin: telefon söndürülüb, ya da ki əhatə dairəsindən kənardadır, yaxud da telefonun nömrəsi müəyyən olunmayıb, ya da ki cavab verilməyə və sair, və ilaxır. Sənin nömrələrin mənim telefonumun yaddaşında əbədi qalacaqdır. Ancaq zəng etməyə cəsarət etməyəcəyəm. Ona görə ki, eşidəcəyim söz məni sarsıda bilər. Səndə həyat eşqi o qədər güclü idi ki, elə bilirəm ki, harasa qonaq getmisən, qayıdıb gələcəksən. Bəzən isə düşünürəm ki, xarici ölkələrin hansınasa ezamiyyətə getmisən, tezliklə qayıdacaqsan. Axı sən son vaxtlar Londona, Kiyevə, Tbilisə, Ankaraya, Karsa və digər yerlərə gedərdin, biz sənin yolunu gözləyərdik. Bu ümid və inamla yenə də səni gözləyirik.

### *Gələrsən*

*Gözləyirəm, gözüm üstə yerin var,*
*Günəş doğub qızaranda, qayıt gəl.*
*Qış ötüşüb yetişməmiş ilk bahar*
*Boz ay gülüb bozaranda, qayıt gəl.*

*Qışın çəni qar gətirir – bilirəm,*
*Yazın çəni bar gətirir – bilirəm,*
*Nar ağacı nar gətirir – bilirəm,*
*Lalə çıxıb qızaranda, qayıt gəl.*

*Çox istədin, çox bağlandın, sən mənə*
*Görünmədin bir an gəldi gün mənə,*
*Necə getdin eləcə də dön yenə,*
*Nə qədər var ürək canda, qayıt gəl.*

*Sənsiz mən tək dərd görməyib kölə də,*
*Arzu, ümid deyən qalıb tələdə.*
*Sən yandırıb döndərirsən külə də,*
*Çaylar daşıb, coşan anda, qayıt gəl.*

*Ruhun hər an mənimlədir – bir yerdə*
*Vallah, billah heç kəs dözməz bu dərdə*
*Nədir axı aramızda bu pərdə?!*
*Geciksən də, son gümanda, qayıt gəl.*

*İmkan yoxsa son ünvanda gələrsən*
*Namərd çoxdur, axı mərdsən, qayıt gəl*
*Yandırırsan, öldürürsən, qayıt gəl*
*Bil ki, mənə ağır dərdsən, qayıt gəl.*

*Dağ başını duman alıb, çən alıb*
*Buludxanın heyva kimi saralıb*
*Kimlər gəlib, kimlər gedib, kim qalıb?!*
*Həsrətimə inananda, qayıt gəl.*

*12.01.2015*

# İnsan sığınacaqlara doğru tələsir

İnsanın bu dünyaya gəlişindən başlamış, bu dünyadan gedişi də daxil olmaqla – hamısı sığınacaq axtarmaqdır. Hələ ana bətnində olan uşaq ana bətnini sığınacaq kimi qəbul edir. Ana bətnində sığınacaq tapmış uşaq burada qala bilmir, bu heç mümkün də deyil. Buradakı sığınacaq müddəti qurtardıqdan sonra uşaq dünyaya gəlir, ömrünün sonuna qədər bu dünyada sığınacaq axtarır. Bağçaya gedir, burada sığınacaq axtarır. Məktəbə gedir, burada sığınacaq axtarır. Ali təhsil alır, burada sığınacaq axtarır. Ailə qurur, yenə də sığınacaq axtarır. Ev alır, yenə də sığınacaq axtarır. Nəhayət, insan ölür, yenə də sığınacaq axtarır. Ölmüş insanı tabuta qoyur və qəbiristanlığa aparırlar. Tabut da, qəbiristanlıq da sığınacaqdır. Ölən insan dəfn olunur. Ən son sığınacaq budur. İstəsə də, istəməsə də, sığınacaq axtaran insan son mənzili – torpağı sığınacaq kimi qəbul edir. Beləliklə, insan üçün həyat başdan-başa sığınacaqlardan ibarət olur. Bu işin bir tərəfi. İkinci tərəfi odur ki, insan həyatı boyu sığınacaqlara doğru tələsir. Heç özü bu barədə düşünmədən çalışır, vuruşur və nəhayət, torpaq adlı sığınacaqda rahatlanır...

Sığınacaq deyəndə ədəbiyyat üzrə Nobel mükafatı laureatı Herman Hessenin “Sığınacaq” essesindən bir

məqam yada düşür: "Mən yenə də nəyin dalınca gedəcəyimi, nəyi rəhbər tutacağımı, öz qanımı nəyə verəcəyimi tapdım, anladım. Bu nə istəkdi, nə də arzu, bu – məqsəddir.

Bu məqsəd – yenə də sığınacaqdır. Ancaq nə mağaradır, nə də gəmi. Mən o sığınacağı öz içimdə axtarıram, dağlardan, mağaralardan etibarlı, tabutdan, qəbir çalasından etibarlı və rahat, tək qaldığım, dünyanın əli yetmədiyi məkan, yaxud nöqtə axtarıram. Budur mənim məqsədim. Ora heç nə keçə bilməz, çünki ora mənimlə yoğrulub.

Qoy orada lap boran və ağrılar olsun, qoy orada lap qan da tökülsün.

Mən hələ bu məqsədimdən çox uzaqdayam, mən hələ yolun lap başlanğıcındayam, ancaq indi bu, əsl mənim yolumdur. Adi arzu deyil.

Ey dərin sığınacaq! Sənə heç bir tufan yetməz, səni alov yandıra bilməz, səni heç bir müharibə dağıda bilməz. Öz cismimin dərinliyində balaca yuva! Daxma, balaca tabut, balaca beşik, mən sənə can atıram". (Herman Hesse. Seçilmiş əsərləri. Bakı: "Şərq – Qərb", 2010, s.532-533).

Bu dünyada hərəyə bir şey lazımdır: kimisinə gecə, kimisinə gündüz, kimisinə mərdlik, kimisinə namərdlik, kimisinə məğrurluq, kimisinə mütilik, kimisinə qayğı, kimisinə etinasızlıq, kimisinə haqq-ədalət, kimisinə ədalətsizlik, kimisinə nə isə... Ancaq hamıya – hər bir kəsə sığınacaq mütləq lazımdır. Bütün ömrü boyu

sığınacaqlar uğrunda çarpışan insanı daha çətin sınaqlar, həm də uğurlar, nailiyyətlər gözləyir. Ancaq insanın sonu yenə də sığınacaqdır. Axtara-axtara, özümüz də bilmədən və hərəmiz bir yolla sığınacağımızı tapırıq. Deməli, son məqsədimiz sığınacağımızı tapmaqdır. Biz insanlar son məqsəd kimi dünyaya sığınacaq axtarışına gəlmişik və hələ də sığınacaq axtarışındayıq. Bir sözlə, insan ömrü boyu sığınacaqlara doğru tələsir. Son sığınacaq hər bir kəsin qismətinə alın taleyi kimi yazılıbdır. Kimsə son sığınacaqdan qaça bilərmi?! Kimsə son sığınacağı haqqında düşünürmü?! Dünyanın qəribə işləri var. Bir atanın, bir ananın övladlarının son sığınacağı bir olmur! Məncə, hər bir şeyin fəlsəfəsinə varmaq lazımdır. Görün ədəbiyyat üzrə Nobel mükafatçısı Ernest Heminquey necə deyib: "Hər insanın ölümü mənim ömrümü gödəldir, çünki mən Bəşəriyyətin ayrılmaz bir parçasıyam və elə ona görə də kilsə zənginin harayını eşidəndə heç vaxt soruşma ki, kimdir dünyadan köçən; Sənsən dünyadan köçən". (bax: Ernest Heminquey. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2010, s.7)

Ancaq insanın ölməsi, son sığınacağını tapması məğlubiyyət deyil. Ədəbiyyat üzrə Nobel mükafatçısı Uilyam Folkner demişkən: "Mən insanın ölümü fikrini rədd edir, buna inanmıram; insan nəinki duruş gətirəcək, mən qəti əminəm ki, o – qalib gələcək". Ernest Heminqueyin sözləri ilə desək: "İnsan övladı məğlubiyyət üçün yaranmayıb; insanı məhv etmək olar, lakin onu məğlub

etmək mümkünsüzdür”. Bir azərbaycanlı şairin dediyi kimi: “Ölüm ölmək deyil ki, Vətənə qayıdışdır”. Bir ədəbiyyat üzrə Nobel mükafatçısının belə fikri var: “Mənim başlanğıcım mənim sonumdur, mənim sonum isə mənim başlanğıcımdır”. Bu mənada hələ bilmək olmaz ki, kimin başlanğıcıdır, kimin isə sonudur. Ancaq bu da bir həqiqətdir ki, dünya yaranandan indiyə qədər insan məğlubolmazdır. Nəsillər dəyişir, bir-birini əvəz edir. İnsanlar isə qurub-yaradır və fəaliyyət göstərirlər. Deməli, insan məğlubedilməzdir.

*19.01.2015*

# Tarix insanların gözünü qamaşdırır

Hər bir insan dünya tarixini öyrənə bilər və öyrənir. Qəhrəmanlıqla, mübarizə ilə, döyüşkənliklə, şücaətlə dolu tarix bəzən insanı heyrətləndirir. Ancaq nəzərə almaq lazımdır ki, tarixin həmin anlarını yaşasaydıq, daha doğrusu, tarixin həmin anlarında olsaydıq, biz də bu qeyri-adi hadisələrə qoşulmalıydıq, qəhrəmanlıq, şücaət göstərməliydik. Çünki tarixin həmin məqamları bizi şücaət və qəhrəmanlıq göstərməyə məcbur edəcəkdi. Gəlin bir anlıq hər şeyin əksini fikirləşək. Məsələn, Babək, Koroğlu, Nəbi və digərləri indi doğulsaydı nə edərdi? Tarixin bu mərhələsində onlar kim olardı? Hər bir tarixi dövr öz tələbinə uyğun qəhrəmanlarını yetişdirir. Bəlkə də ani bir an kimisə tarixin qəhrəmanlıq səhifəsinə salır. Və bəlkə ani bir an kimisə tarixin qəhrəmanlıq səhifəsindən silir. Və bu qədər çoxlu bəlkələr tarixin özünü şanslı edir. Və bu qədər bəlkələr tarixdə konkret şəxsləri şanslı edir. Həm də tarixi hadisələrə də yanaşmalar dəyişir. Bəzən tarixi şəxsiyyətlərə də münasibət eyni olmur. Bəzən mifoloji obrazlara da müxtəlif cür yanaşılır. Tarixin özü dəyişdiyi kimi, bəzən tarixin yaratdığı dəyərlər də dəyişir. Məsələn, bu gün Koroğlu, Nəbi dövrünü yaşamaq olmur. Həm də bu gün Koroğluluq, Nəbilik etmək qəhrəmanlığa sığırmı?! Müasir dünyanın müasir tələb-

lərinə uyuşurmu? Müasir dünyada özünü doğruldurmu? Tarixi dəyərlər dəyişdikdə hər dövrün öz Koroğlusu, Nəbisi yaranır. Həm də tarixi şəxsiyyətlərin əbədiyaşarlığı azalır. Düzdür, əbədi yaşayan və yaşayacaq tarixi şəxsiyyətlər də vardır. Onlar olub və olacaqlar. Ancaq yenə də tarixi şəxsiyyətləri qabaqda nə gözlədiyini bilmirik. Biz sadəcə olaraq mövcud reallıqların təsiri altında yaşayırıq. Hisslərimiz, duyğularımız, düşüncəmiz isə əksər vaxtlar yaşadığımız tarixi dövrün tələblərinə uyğunlaşır. Yaşadığımız tarixi dövrün tələblərinə uyğunlaşmayan hisslər, duyğular, düşüncələr isə əksər vaxt böyük bir qüvvənin təsirinə və təqibinə məruz qalır. Bu zaman yenə də tarixə – gələcək tarixə və onun verəcəyi qiymətə ehtiyac yaranır. Vaxt və zaman tələb edən bu iş, bir az poetik desək “Axı dünya fırlanır” fəlsəfəsini önə çıxarır. Məhz burada gələcək tarixi həqiqətin naminə və onun yolunda çoxlu itkilər, haqsızlıqlar baş verir. Bizim böyük əksəriyyətimizin imkanı və gücü çatmır ki, həmin haqsızlıqların, itkilərin vaxtında qarşısını alaq. Hər halda tarix bütün məqamlarda biz insanların gözünü qamaşdırır. Bəli, tarix insanların gözünü qamaşdırır. Beləliklə, istənilən bir tarix də, tarixi dövr də, tarixi şərait də özünü yaşatmaq naminə bizlərin hər birinin ömür-gününü yeyir...

Görəsən, dünyada ədalətli adamlar olmasaydı, nələr baş verərdi?! Görəsən, yalanlara, böhtanlara rişxəndlə baxanlar olmasaydı, dünyada nələr baş verərdi?! Görəsən, insanlar Allahdan qorxmasaydılar, nələr baş

verərdi?! Görəsən, dünyada insanların inam və imanları olmasaydı, nələr baş verərdi?! Bəs, görəsən, dünyada yaxşılar və pislər olmasaydı, nələr baş verərdi?! Bəs, görəsən, dünyada yaltaqlar olmasaydı, nələr baş verərdi?! Bəs dünyada ölüm olmasaydı, nələr baş verərdi?! Bəs biganələr, laqeydlər, kənarda dayanıb seyr edənlər olmasaydı, nələr baş verərdi?! Tarix həm də baş verən və baş verəcəklərdən ibarətdir.

C.S.Levis yazırdı: "Bir tərəfdən Allah bizdən daha müdrikdir, bəzi şeylər barədə də onun hökmü bizimkindən fərqlidir. Ola bilsin ki, bizə xeyir kimi görünən Allahın nəzərində heç də xeyir kimi görünməsin, yaxud da bizə şər kimi görünən Allah nəzərlərində heç də şər olmasın". Bəs bizə xeyir və şər kimi görünənlər tarixin nəzərində necədir? Yenə də bu barədə tarix öz hökmünü verir və verəcəkdir. Ancaq bütün məqamlarda tarix insanın gözünü qamaşdırır.

*30.01.2015*

# Həyat əbədi olmadığı kimi gözəllik də əbədi deyil

Hər bir gözəlliyin sonu qorxudur. Məsələn, gözəl olan nəsə əbədi deyildir. Həmin gözəllik tez-gec öz gözəlliyini itirir. Hər bir xoşbəxtlik də əbədi deyildir. Həmin xoşbəxtlik dəyişə bilər. Gözəl olan bir qızın gözəlliyi qocalanda itir, dəyişir. Beləliklə, gözəllik özü ilə sonda qorxu gətirir.

Həyat əbədi olmadığı kimi, gözəllik də əbədi deyildir. Xoşbəxtlik də əbədi deyildir. Onun da sonunda bir qorxu vardır. Həyatın iki tərəfi həmişə var: gözəllik–qorxu, xoşbəxtlik – qorxu, sevinc – qorxu və s.

Görün dünya yaranandan indiyə qədər nə qədər gözəllər olub. İndiyə qədər nə qədər xoşbəxtlər olub. İndiyə qədər nə qədər sevinənlər, sevənlər olub. Onların heç biri indi dünyada yoxdur. Torpağın altında saysız-hesabsız gözəllər, xoşbəxtlər, sevinənlər, sevənlər yatır. Torpaq üçün onların gözəlliyi və xoşbəxtliyi, sevdikləri və sevildikləri əhəmiyyətli deyil. Bəlkə də, torpaq həm də ona görə müqəddəsdir ki, onun altında çoxlu gözəllər, xoşbəxtlər, sevənlər, sevilənlər, qiymətli insanlar yatır.

XX əsr alman ədəbiyyatının görkəmli nümayəndəsi, Nobel mükafatı laureatı Herman Hessenin "Knulp"

povestində oxuyuruq: “Bir də ki... fikir ver, tez-tez öz-özümə deyirəm: dünyada ən gözəl, ən qəşəng bir şey var-sa, o da şiv, sarışın, ucaboy qızdır. Ancaq bu da düz de-yil, həyatda görürsən ki, qaraşın qız daha gözəldir. Hər-dən də tam ayrı fikirdə oluram. Bir də baxırsan, dünyanın ən gözəl- göyçək şeyi mənim üçün dönüb oldu göylərdə azadca süzən qəşəng bir quş. Bir az keçmiş, qanadları üstündə qırmızı xallar olan ağ kəpənək, ya da axşamüstü buludları al qana boyayan, par-par parıldayan, lakin adamın gözlərini qamaşdırmayan, yerə - göyə sevinc, məsumluq bəxş edən adicə günəş şüası qədər heç nə məni məftun etmir.

– Doğrudur, Knulp. İnsanın xoş saatlarında gördüyü hər şey ona gözəl görünür.

– Elədir. Ancaq mənim bir fikrim də var. Məncə, gözəl o şeydir ki, onda məmnunluqla yanaşı nisgil də, qorxu da var.

– Hə, necə ki?

– Lap tutaq ki, belə: əgər bilməsən ki, hər hansı bir dünya gözəlinin də vaxtı çatacaq, qocalıb dünyadan kö-çəcək, bəlkə də, onun gözəlliyini duymazsan. Gözəl olan şey əbədiliyə qovuşa bilsəydi, ürəkdən sevinərdim. Am-ma o zaman mən ona gözucu baxıb düşünərdim ki, bunu sən istədiyin vaxt görə bilərsən, bu gün olmasa da, olar. Əksinə, ötəri, dəyişkən, gəldi-gedər şeylərə daha çox baxıram, baxdıqca da təkcə zövq almır, həm də yanıram.

– Dayan görək!

– Ona görə də atəşfəşanlıqdan gözəl heç nə tanımıram. Göylü, yaşıllı cınqı halqalanıb göyə sıçrayır, xırdaca bir qövs cızıb qaranlıqda sönür. Gözəllik bax buna deyərəm! Ona baxanda səni həm sevinc, həm qorxu hissi bürüyür: qorxursan ki, indicə sönəcək. Əslində, belə də olmalıdır, gözəlliyi də orasındadır ki, ömürləri gödəkdir. Yoxsa yox?

– Hə, hə, ancaq bunu hər şeyə şamil etmək olmaz.

– Niyə?

– Məsələn, deyək ki, iki nəfərin bir-birindən xoşu gəlir, sonra da evlənirlər, ya da ikisi bir-biri ilə dost olur. Bax bu, ona görə gözəldir ki, ömrü uzundur, hələ sonu yaxınlaşmayıb.

Knulp diqqətlə mənə baxdı, sonra zil qara kipriklərini çıppıldadıb fikirli- fikirli dedi:

– Razıyam. Ancaq hər şey kimi onun da sonu var. Ortadan dostluğa, sevgiyə xələl gətirən çox zibil çıxır.

– Haqlısan. Bu əngəllər üzə çıxana qədər onun haqqında düşünən olmur axı.

– Bilmirəm... Bəri bax, eşidirsən, ömrümdə iki dəfə vurulmuşam. Özü də yalandan yox ha. Hər ikisində də demişəm ki, həmişəlikdir, yalnız ölüm bunu qıra bilər, ancaq hər ikisində də qırılıb, mənsə hələ sağam. Elimdə - obamda bir dostum da vardı, ömrümdə ağlıma gəlməzdi ki, bir-birimizdən ayrılarıq, amma ayrıldıq. Özü də lap

çoxdan ayrıldıq" (Herman Hesse. Seçilmiş əsərləri. Bakı, "Şərq – Qərb", 2010, s.261-262).

Gəlin fikirləşək: mənim üçün gözəllik nədir? Eləcə də sənin üçün nədir? Ya da o, gözəlliyə necə baxır, onu necə qiymətləndirir? Bizim hər birimiz gözəllik haqqında hansı fikirdəyik? Axı, çoxlarına çirkin görünən başqa birisinə gözəl görünür. Hər göz, hər baxış gözəlliyi eyni dərəcədə qiymətləndirmir. Elə gözlər, elə baxışlar var ki, onlar gördükləri hər bir şeydə gözəllik axtarırlar. Ancaq bunun əksinə olanlar da var...

Gözəlliyin də, xoşbəxtliyin də nisbi olduğunu fikirləşənlər azdır. Hər bir gözəlliyin və xoşbəxtliyin arxasında nisgilin və qorxunun dayandığını duyanlar da çox deyil. Heç fikirləşirikmi: bu gün olan gözəllik və xoşbəxtlik sabah olmaya bilər? Sabah xoşbəxtliyin və gözəlliyin sonu çatacağını düşünürükmü?

Bu gün gözəl kimi qəbul etdiklərimizin və xoşbəxt saydıqlarımızın ömrü çox qısadır. Məhz bu gəlimli-gedimli dünyada gözəlliyin də, xoşbəxtliyin də ömrü qısadır, gödəkdir və sonu olandır. Hər şeyin sonu olduğu kimi, onun da sonu vardır. Hər şeyin sonunu fikirləşənlər gözəlliyi də, xoşbəxtliyi də daha düzgün qiymətləndirir, onun qədrini bilirlər. Ancaq bu barədə düşünənlər az olur və həmişə də az olacaqdır.

Ədəbiyyat üzrə Nobel mükafatçısı Aleksandr İsayeviç Soljenitsın 1975-ci ildə Nobel mükafatını aldıqda geniş nitq söyləmişdir. Onun nitqində belə bir məqam

var: “Bir dəfə Dostoyevski müəmmalı bir fikir söyləmişdi: “Dünyanı gözəllik xilas edəcək”. Bu nə deməkdir? Uzun müddət mənə elə gəlirdi ki, sadəcə, bir deyimdir. Bu axı necə ola bilər? Tarix boyu qana həris gözəllik, kimi və nədən xilas edib? Nəcibləşdirib, yüksəldib – bəli, amma kimi xilas edib?

Amma gözəlliyin mahiyyətində, xüsusilə də incəsənətin mövqeyində belə bir xüsusiyyət var: əsl bədii əsərin inandırıcılığı təkzibolunmazdır və o hətta ən güclü müqavimət göstərən qəlblərə belə hakim kəsilə bilir. Siyasi nitqi, israrlı publisistikanı, sosial həyat proqramını, fəlsəfi sistemi həm yanlışlıqlarla, həm də yalanlarla zahirən hamar, həmahəng şəkildə qurmaq olar; nələr gizlədilib, nələr təhrif olunub – dərhal gözə çarpmayacaq. Və əgər əks-yönəmli nitq, publisistika, proqram, başqa sistemli fəlsəfə mübahisəyə qalxmış olarsa da, – yenə hər şey əvvəlki kimi həmahəng və hamar qalacaq və yenə də hər şey düz gələcək. Buna görə də onlara inam həm var və həm də yoxdur.

Sadəcə, deyirlər: adamın ürəyinə yatmır.

Bədii əsər isə öz sınağını özündəcə daşıyır: süni, qondarma konsepsiyalar obrazlarla sınaqdan keçə bilmir: həm birincilər, həm də ikincilər dağılıb gedir, çəlimsiz, solğun görkəm alır, heç kəsi inandıra bilmir. Həqiqəti canına hopdurmuş və onu kəskin – canlı şəkildə təqdim edən əsərlər isə bizi amiranə tərzdə öz təsirləri altına sa-

lır, özlərinə cəzb edirlər – və heç kəs, heç vaxt, hətta əsrlər keçəndən sonra da onları təkzib etmək fikrinə düşmür.

Ola bilər ki, Həqiqət, Xeyir və Gözəllik üçlüyünün bu qədimi vəhdəti materialist gəncliyimizdə düşündüyümüz kimi, sadəcə, təmtəraqlı formul deyil. Əgər bu üç ağacın başları, tədqiqatçıların dedikləri kimi, birləşirsə, lakin bu zaman Həqiqət və Xeyirin yetərincə açıq, yetərincə aşkar duyulan pöhrələri basılıb əzilmişdirsə, kəsilmişdirsə, irəli buraxılmırsa – onda ola bilməzmi ki, Gözəlliyin ecazkar, öncədən necə olacaqları bilinməyən, gözlənilməz pöhrələri özlərinə yol tapa bilsin, elə həmin yerdəcə üzə çıxsın və onların hər üçünün işini görmüş olsun?

Belə olan halda Dostoyevskinin "Gözəllik dünyanı xilas edəcək" deyimi təsadüfən yox, peyğəmbərcəsinə söylənilmiş olmur ki? O axı çox şeyi görə bilirdi, hər şey ona heyrətamiz dərəcədə əyan olurdu.

Deməli, incəsənət, ədəbiyyat, doğrudan da, müasir dünyaya kömək edə bilər?" (Aleksand Soljenitsın. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2010, s.14-15).

Deməli, Həqiqət, Xeyir və Gözəllik birləşməlidir. Onların hər üçünün vəhdəti irəliyə buraxılmalıdır. Ancaq bu vəhdətə qədər gözəlliyin xilas etmə imkanı barədə düşünmək lazımdır. Gözəllik kimi xilas edə bilər? Gözəllik kimdən kimi xilas edə bilər? Eyni zamanda Gözəllik nəyi xilas edə bilər və nədən xilas edə bilər? Gözəllik hamını nəcibləşdirə də bilməz. Nəcib olmayana nəcib

olan gözəllik təsir edə bilməz, dəyişə bilməz. O cümlədən gözəllik də nəcib olmayanların qəlbinə yol tapa bilməz. Nəcib olmayanlar gözəlliyi və onun pöhrələrini elə əzirlər ki, heç "uf"da demirlər. Gözəlliyi və onun pöhrələrini əzmək nəcib olmayanların əlində çox asan bir işdir. Odur ki, gözəlliyi qorumaq, onun pöhrələrini inkişaf etdirmək asan başa gəlmir. Bu yolda gözəllik həqiqət və xeyirlə birləşməlidir, vəhdət yaratmalıdır. Həm də ədəbiyyatın, incəsənətin meydanını müasir dünyada, məhz müasir dünyada genişləndirmək lazımdır. Dünya hər şeyi silahla, güclə idarə etmək dövrünü yaşayıbdır. Hal-hazırda elmi-texniki tərəqqi dövründədir. Dünyanın yalnız elmi-texniki tərəqqiyə olan ehtiyacı ilə dünya irəli gedə bilməz. Müasir dünyanın həqiqət, xeyir, gözəllik vəhdəti ilə yanaşı, ədəbiyyat və incəsənətə də ehtiyacı az deyil.

*13.02.2015*

# İnsan ömrü nəyə sərf olunur?

İnsan ömrü nəyə sərf olunur? Görəsən, bunun barəsində hər bir kəs fikirləşirmi? Birisi yüngül həyat sevincləri ilə yaşayır. Birisi səadət axtarmaq üçün səhərdən axşama qədər işləyir, planlar cızır. Birisi xəyallarda öz gələcəyini axtarır. Birisi yeyib-içir, yatır. Birisi mümkün olmayanı arzulayır. Birisi mümkün olmayan nəyinsə istəyində olur. Birisinin bəxti gətirir. Birisi… Birisi… Birisi… Birisinin isə heç dünya vecinə deyil, həyatdan öz payını götürür. İstədiyini və arzuladığını o dəqiqə alır. İmkan vermir ki, istəyinin üstündən zaman, vaxt keçsin. Ancaq dünyada elə bir qanun yoxdur ki, hər bir kəsin öz qəribəliyini tənzimləsin. Bizim hər birimiz nəyi biliriksə, elə onu da bilirik… Bilmədiklərimiz barədə düşünmürük. Əksər vaxt öyrəndiklərimiz və öyrənmək istədiklərimiz bir parça çörək qazanmağa xidmət edir. Bu isə elə bir ov tələsidir ki, həmin tələyə hər an düşmək mümkündür. Ov tələsi bizi hər an gözləyir. Hər birimiz tələyə necə çörək qoyulduğunu görmüşük. Və tələ yiyəsinin o çörəyə gələni tutduğunu da görmüşük. Ona görə də tələyə düşməmək üçün bizə verilən çörəkdən də ehtiyatlı olmalıyıq. Yəqin ki, çox görmüsünüz: balıq ovunda qarmağa qurdu keçirib suya atırlar. Bu qurdu yeməyə gələn balığı tuturlar. Görün bu yolla gündə saysız-hesabsız balıqları necə ovlayırlar. Əslində çörək verənin özü də çörək qazanmaq

xatirinə nələr etmir?! Çox zaman bir məsələ barəsində fikirləşmirik. Fikirləşmirik ki, çörək verənlərin özünü yoxlamaq lazımdır. Görəsən, onlar nəyin xatirinə, nəyin naminə çörək verirlər?!

Çörəkçinin məqsədli şəkildə çörək qoyduğu tələ hər an insanı tuta bilər, öldürə bilər, məhv edə bilər. Tələ sabahı aydın olmayan bir qaranlıq kimi həmişə gülümsəyir. Bizim hər birimizi sakitcə gülümsəməyi ilə özünə çəkir. Ancaq… İnsan isə heç bir vaxt əhəmiyyət vermir ki, bu gülümsəyən qaranlıq onu hansı çətinliklərə aparır . Məncə, hər şey yaxşı gedir deyənlər də, fikirləşməlidir. Hər şey yaxşı gedir deyənlər bilməlidir ki, sabah hər şey yana bilər, məhv ola bilər, dağıla bilər. Kimin ağlına gələ bilərdi ki, ağlına gəlməyənlər nə vaxtsa başına gələcəkdir. Kimin ağlına gələ bilərdi ki, qaranlıq gecə onu gözləyir. Dünyada heç bir şey ilə əbədi əylənmək olmaz. Əyləndiyimiz hər bir şeyi müvəqqəti olaraq xoşbəxtlik saya bilərik. Ancaq bunu da bilməliyik ki, xoşbəxtlik sayıb əyləndiklərimizin heç biri əbədi deyil. Axı əbədi olanlar insanları yorur. Heç məhəbbət də əbədi deyildir. Həmin hiss kimə nəsib olubsa, onlar xoşbəxtdir. Ancaq həmin hisslə əbədi olaraq əylənmək olmaz. İnsan ömrü nəyə sərf olunur? Birisi öyüd nəsihət verir… Birisi bu öyüd-nəsihətə qulaq asır… Birisi dua edir… Birisi özündən danışır… Birisi müvəffəqiyyət qazanmaq ümidi ilə yaşayır… Birisi kimlərinsə evini yıxmaq planını cızır… Birisi hələ də yazır... Birisi… Birisi…

*26.03.2015*

# Yaxşı və pis, arzu və istək, sevgi və məhəbbət

Yaxşılıq insanın vicdan təmizliyidir. Ədəbiyyat üzrə Nobel mükafatçısı Herman Hessenin “Knulp” povestində yazılır: “Knulp köksünü ötürdü:

– Hə, daha buna nə deyəsən! Bəlkə də, sən deyən kimidir. Elə ona görə də insanlar tez-tez qəm dünyasına batır. Çünki istəyinin dəyərsizliyini, hadisələrin bizsiz də öz axarı ilə getdiyini duyur. Ancaq suç suçluğunda qalır, adamın pislikdən başqa yolu olmasa da, qalır, çünki o, bunu daxilən hiss edir, duyur. Elə ona görə də, ən doğru yol yaxşılıqdır, çünki adam onda özündən razı qalır, vicdanı təmiz olur”. (Herman Hesse. Seçilmiş əsərləri. Bakı, “Şərq-Qərb”, 2010, s.264).

Adamların bir qismi arı xarakterlidir. Arılar çiçəklərdən bal yığdıqları kimi, onlar da yaxşı nə varsa, tapır, üzə çıxarır, dəyər verir, hər şeyi gözəl görürlər. Bir qisim adamlar milçək xarakterlidir. Milçəklər mikroblar daşıdığı kimi, onlar da cəmiyyətdə mikrob yaradır, cəmiyyətə mikrob daşıyırlar.

Pis adamlar bu dünyaya mikrob kimi gəlirlər. Onlar get-gedə cəmiyyəti öz mikrobları ilə zəhərləyirlər...

Yaxşı adamlar bu dünyaya dərman kimi, məlhəm kimi gəlirlər. Onlar cəmiyyəti öz məlhəmləri ilə sağaltmağa çalışırlar...

***

Arzu nədir? Arzu illər boyu insanlara yoldaşlıq edən ülvi bir istəkdir. Hətta arzu insanda o qədər dərin kök salır ki, bəlkə də insanın canı, qanı ilə qidalanır. Arzu insanın sığınacağıdır. İnsan bəzən illərlə bu ülvi istəyə sığınır, onun nə zaman həyata keçəcəyi günü gözləyir.

Arzu insanın həsrətini çəkdiyi nəsə bir şeydir. İnsan həsrətini çəkdiyi bir şeyi uzun müddət gözlədiyi kimi, arzunu da uzun illər boyu gözləyir. Hətta insan arzunu həyatının bütün məqamlarında yadından çıxartmır, onu xatırlayır, onu unutmur. Bəzən onu musiqi kimi öz beynində səsləndirir, bəzən onu sığallayır, tamamlayır, bəzən onu öz sevgilisi kimi əzizləyir. Bəzən onunla danışır, söhbət edir.

Kimin arzusu həyata keçirsə, onun arzusu çin olur. Deməli, arzunun özü üçün də sığınacaq tapılır.

Maraqlı orasıdır ki, arzunu heç nə məhv edə bilməz, yandıra bilməz, öldürə bilməz. Ancaq uzaq başı arzu həyata keçməyə bilər. Arzu olaraq qala bilər...

Əslində bizim hər birimiz ömrümüzün sonuna qədər arzu və istəklərimizin həyata keçməsi yolunda dizin-dizin sürünürük. Heç zaman arzumuz həyata keçməyincə rahat nəfəs ala bilmirik.

***

Məhəbbət insanlara çoxlu sayda qayğılar verdi. Uşaqlar, onları böyütmək, onların qayğısını çəkmək, daha nələr, nələr...

Bəlkə də Məcnunla Leyli ona görə bir-birinə qovuşmadılar ki, onlar sonrakı qayğılardan imtina etdilər. Bəlkə də məhəbbətdən sonrakı qayğılardan qorxdular, çəkindilər... Bəlkə də məhəbbətdən sonrakı qayğıları olmasın deyə, bir-birinə qovuşmadılar... Bəlkə də məhəbbətdən sonrakı qayğılar onları qayğılandırdı...

Sevdiyimiz qadınla Vətənə olan sevgilər bir-birindən fərqlənir. Belə ki, sevdiyimiz qadını başqalarına qısqanırıq. Ancaq Vətəni sevənləri hər birimiz sevirik. Bu barədə Bəxtiyar Vahabzadə 1974-cü ildə yazdığı "Heyrət, ey büt!.." məqaləsində oxuyuruq: "Mənim insanlara, ətrafdakılara münasibət ölçüm, yəni sevgi və nifrət ölçüm vətəndir. Sevdiyim qadını bir başqası da sevərsə mən o adama düşmən kəsilərəm. Lakin Vətənimi mənim qədər sevən hər hansı bir adamı mən də sevirəm. Nə üçün sevdiyimiz qadını sevən rəqibə qısqanır, ona nifrət edirik, lakin Vətənimizi sevən adamı isə sevirik? Ona görə ki, qadın sevgisi fərdidir, şəxsidir, bu sevgi yalnız bizim özümüzə məxsus olan şəxsi hissimizdir. Bu müəyyən qədər kiçik hissdir. İnsanın ən ali, ən müqəddəs sevgisi isə Vətənə olan sevgidir!

Müəyyən yaşa dolandan sonra gənc mütləq bir qadını sevir. Bir neçə qadını da sevənlər var. Lakin Vətən

birdir, vahiddir. İnsan üçün ikinci vətən ola bilməz. Vətən sevgisi hər nadanın, hər cahilin sevgisi deyil. Bu sevgi sevgilər sevgisidir, duyğular duyğusudur! Bu sevgi istəklərin ən alisi, ən yüksəyidir. Vətəni yüksək dərəcədə sevməyi bacarmaq üçün çox dərin, çox kamil olmaq, sevginin zirvəsinə yüksəlmək lazımdır. Məcnun belə sevməyi bacardığına görə onun üçün Vətən bir olduğu üçün, Leyli də birdir, yeganədir. Məcnun üçün ikinci Leyli ola bilməz. Vətəni yüksək dərəcədə sevməyi bacaranlar üçün də ikinci Vətən olmadığı kimi!

"Romeo və Cülyetta", "Gənc Verterin iztirabları" kimi dünya ədəbiyyatının misilsiz məhəbbət dastanlarında məhəbbət fərdi sevginin himnidirsə, "Leyli və Məcnun"dakı məhəbbət, ümumiyyətlə sevginin özünə himndir!" (Heyrət ey büt!.. – Bəxtiyar Vahabzadə. Sənətkar və zaman. Bakı, Gənclik, 1976, s.21-22).

*31.03.2015*

# İnsan bunları bilməlidir

Pis vərdişlər insanın pis əməllərini artırır, çoxaldır. İş o yerə gəlib çıxır ki, pis vərdişlərdən əl çəkmək olmur. Pis vərdişlər insanın başına bəlalar gətirir. Pis vərdişlər insanın axırına çıxır. Bu barədə həyatda yüzlərlə nümunələr var. Belə nümunələr olub və olacaqdır. Pis vərdişlərdən biri oğurluqdur. Biri xırda oğurluqdan başlayır və bu pis vərdişi genişləndirərək daha böyük oğurluğa keçir. Əvvəlcə yumurta oğurlayır, sonra cücə oğurlayır, sonra toyuq oğurlayır. Bu oğurluqlar insanda oğurluq vərdişini yaradır. Sonralar bu pis vərdiş insanı heç zaman əldən buraxmır. Ona görə də beləəri oğurluğunu günü-gündən daha da artırır: quzu, qoyun oğurluğuna keçir. Sonra bununla kifayətlənməyib dəvə oğurluğuna keçir. Dəvə oğurluğuna qədər etdiyi bütün oğurluqları gizlədə bildiyi halda, dəvə oğurluğunu gizlədə bilmir. Axı dəvə oğurluğu daha böyük oğurluqdur. Ona görə də dəvə oğurluğunu gizlətmək mümkün olmur. Beləliklə, oğrunun bütün oğurluqlarının üstü açılır. Dəvənin yiyəsi həm dəvəni, həm də dəvəni oğurlayan oğrunu tapır.

Xırda oğurluqdan böyük oğurluğa gedənlər oğurluğun üstünün tez-gec açılacağını bilməlidirlər. Həm də insanlar bir çox məsələləri, o cümlədən aşağıdakıları bilməlidir:

İnsan həm də dünyanın sirlərini açmaq üçün yaranıbdır.

***

Bəzilərinin qəlbi zülmət ruhları ilə o qədər doludur ki, onu təmizləmək mümkün deyildir.

***

Günəş şüası olan yerdə ulduzlar da, buludlar da yox olur.

***

Təbiətdəki ağaclar, binalar, evlər... nələrin şahidi deyildir. Axı aylı gecədə bir-birini sevənlər də aylı gecənin şahidliyi ilə bir-biri ilə əhdü-peyman bağlayırlar.

***

İnsanlar təbiətin sirlərini sona qədər öyrənməklə təbiəti kölə halına salırlar.

***

Dünyada olan canlıların hər birinin öz azarı vardır. Birinə yaşıl çəmənlik lazımdır. Birinə su lazımdır. Birinə hava lazımdır. Birinə azadlıq lazımdır. Birinə, hətta oğurluq lazımdır.

***

Görəsən ulduzlar çıxanda birinci ulduz hansı olur?! Bəs sönəndə sonuncu ulduz hansı olur?! Birinci çıxan və sonuncu sönən ulduzlar darıxırmı? Birisi çıxmağa, digəri sönməyə tələsirmi?!

***

Dünyada borcu olmayan adam varmı? Söhbət maddi borcdan getmir...

***

Həyatda bəzən canavardan yox, tülküdən qorxmaq lazımdır.

***

Biz təzə tanıdığımız adamların keçmişdə kim olduğunu bilmirik.

***

İnsan heç olmasa, xəyalən kimlərləsə zarafat etməyi bacarmalıdır.

***

Tülkünün də tələsi var.

***

Dünayada çoxlu sayda səslər var. Ancaq gecənin səsi daha maraqlıdır. Gecənin səsi həm də səssizlikdir.

***

Bir anlıq fikirləş: sevmisənmi? Onda insanları da, həyatı da, canlıların hər birini də, təbiəti də sev.

***

Qulaq as və qulaq asmağı öyrən. Qulaq asmaq dünəndən, bu gündən və gələcəkdən xəbər verir.

***

Ağrıdan, acıdan cəhalətdən, əzab və əziyyətdən xilas olmağın yolu qalib gəlməkdir. Qalib gəlmək, udmaq çıxış yoludur.

***

Həyatda hər bir kəs yaşayır. Kimi quruda, kimi suda, kimi mağarada, kimi sarayda... Ancaq bir atəş açıb hər kəsi oyatsalar, yaşayış yerləri dəyişə bilər.

***

Divarın dibində bitən kol-kos çox zaman heç kəsin diqqətini cəlb etmir. Ancaq o da divarın dibində kefdədir.

***

Körpə uşaq kimi təmiz qalanlar azdır.

***

Körpə uşaq kimi rahat yatanlar azdır.

***

Körpə uşaq kimi ağlayanlar azdır. Ağlayanlar da ağlına söykənərək ağlayırlar...

***

Gül-çiçək olmayan yerdə süpürgə kolu da çəmənliyə bənzəyir.

***

Təbiətdə çoxlu gül-çiçək var. Ancaq onların içərisində heç birinə bənzəməyən, qeyri-adi bir çiçək də var. Onun adı inci çiçəyidir. Bu çiçəyi çoxları görmür, görə bilmir. Bunu görənlər çox azdır.

***

Qızılgül də tikanın içərisində olur.

Xəstəliyin özünü azarlatmaq lazımdır. Onda xəstəlik yoxa çıxacaqdır.

*06.04.2015*

# "Nuh tufanı və Gəmiqaya - Qobustan əlifbası" – I məqalə

Azərbaycan dilinin və tarixinin kökləri indiyə qədər lazımi səviyyədə tədqiq olunmamışdır. Bu baxımdan Əjdər Fərzəlinin 2014-cü ildə rus dilində çap olunmuş "Nuh tufanı və Gəmiqaya-Qobustan əlifbası" kitabı əhəmiyyətli rol oynayır. Azərbaycan ərazisi və Azərbaycan xalqı dünyada getmiş tarixi prosesləri izah etmək, tədqiq etmək baxımından böyük əhəmiyyət kəsb edir. Bəşəriyyətin tarixində dərin kökləri olan Azərbaycanın oynadığı rolu aşkarlamaq üçün Azərbaycan tarixi və dili ilə bağlı aparılacaq tədqiqatlara ehtiyac böyükdür. Bu mənada Gəmiqaya-Qobustan yazılı abidəsinin öyrənilməsi Azərbaycan tarixində və əlifbamızın tarixində əvəzsiz rol oynayır. Gəmiqaya-Qobustan əlifbası barədə fikirlər belədir: Bu əlifba, bu yazı piktoqrafik yazıdır. Başqa bir fikrə görə, bu yazı, əlifba türk-runik yazılı əlibasının elementləri ilə bağlıdır. Ancaq Əjdər Fərzəlinin araşdırmalarına görə, Gəmiqaya-Qobustan Azərbaycan xalqının yaratdığı əlifbadır. Həm də bu, Azərbaycan xalqının yazı mədəniyyətinin tarixi barədə gərəkli bir mənbədir.

Gəmiqaya-Qobustan əlifbasının öyrənilməsində Əjdər Fərzəlinin zəhməti böyükdür. O, 1970-ci illərdən başlayaraq ömrünün sonuna qədər bu əlifbanı tədqiq etmişdir. Əjdər Fərzəli Gəmiqaya-Qobustan əlifbasının tədqiqinə qədər "Kitabi-Dədə Qorqud" dastanlarını, dastandakı dil məsələlərini, dilin inkişaf tarixini, praazərbaycan dilini, Azərbaycan mifologiyasını, dastandakı toponimləri, suya və oda inam məsələlərini, qədim tayfa və tayfa birliklərinin qohumluğu məsələlərini araşdırmışdır.

Əjdər Fərzəli Gəmiqaya-Qobustan yazılarını Azərbaycan və ona yaxın ərazilərdə olan qayalara, daşlara, yer altından çıxarılan müxtəlif qablara, xalçalara həkk olunmuş yazılarla birgə öyrənmişdir. Eyni zamanda qədim Azərbaycan əlifbasının elementlərini – işarələrini Naxçıvanla, Qobustanla bərabər, həm də Gəncə, Şamaxı, Mingəçevir, Hacıqabul, Pirallahı adası, Nüvədi, Təbriz yaxınlığında tapılan yazılarda da tədqiq etmişdir. O, Kəlbəcər, Mingəçevir daşlarında həkk olunmuş yazılarda da qədim Azərbaycan sözlərini oxuya bilmişdir. Əjdər Fərzəli Alban yazıları barədə də maraqlı elmi nəticəyə gəlmişdir. Əjdər Fərzəliyə görə, Alban əlifbasının əsli ermənilər tərəfindən məqsədli şəkildə təhrif edilmiş, gərəksiz bir formaya salınmışdır. Onun fikrincə, əsl Alban əlifbası Gəmiqaya-Qobustan əlifbasıdır. Bu əlifba qayaların, daşların, xalçaların, qabların üstündə həkk olunmuş yazılarda da qorunmuşdur. Müqayisə üçün qeyd edək ki, Orxon-Yenisey yazılı abidələri mətnlərin daş üzərinə həkk

olunmasından ibarətdir. Hazır mətnləri oxumaq mətnsiz yazıları oxumaqdan asandır. Gəmiqaya-Qobustan yazıları isə mətnsiz yazılardır. Məhz Əjdər Fərzəli belə mətnsiz yazıları oxumuşdur. Əjdər Fərzəlinin tədqiqatları sübut edir ki, Orxon-Yenisey və Gəmiqaya-Qobustan əlifbaları bir-birinə bağlı olan müstəqil əlifbalardır. Hər ikisi türk əlifbasıdır və bunlardan çoxsaylı dünya əlifbaları törəmişdir.

Qafqaz Albaniyası qədim Azərbaycanın, qədim Azərbaycan tarixinin tərkib hissəsidir. Qafqaz Albaniyasına aid yeganə mənbə Moisey Kalankatukulunun (VII-VIII əsrlər) "Alban tarixi" və VIII əsrə aid "Eranşəhr"dir. Bu dövrə aid mənbələrin azlığı Azərbaycan tarixinin Qafqaz Albaniyası ilə bağlı olan dövrünə kölgə salmış və nəticədə ermənilər bundan istifadə edərək qərəzli, saxtakar mövqe tutmağa başlamışlar. Ermənilər "Alban tarixi" əsərini və Qafqaz Albaniyasının ərazisini əsassız şəkildə "erməniləşdirmə"yə çalışmışlar. Bununla da Qafqaz Albaniyası mübadiləsi bir mövzu kimi ortalığa çıxmışdır. Hələ vaxtilə Azərbaycan dilçisi Voroşil Qukasyan Alban yazısı və ədəbiyyatı tarixinin bəzi məsələləri ilə məşğul olmuşdur. Bu istiqamətdə araşdırmalar aparmışdır. O, A.Ş.Mnatsakanyanın 1966-cı ildə Yerevan şəhərində erməni dilində çap olunmuş və "Qafqaz Albaniyası ədəbiyyatının tarixi" adlı əsərinin elmsizliyini faktlar, dəlillər əsasında sübut etmişdir. Voroşil Qukasyan A.Ş.Mnatsakanyanın əsəri ilə bağlı dörd mühüm ümumi-

ləşdirici nəticə (bax: ВорошилГукасян. О некоторых вопросах истории Албанской писменности и литературы (в связи с работой А.Ш.Мнацаканяна, «О литературе Кавказской Албании»). – Azərbaycan SSR Elmlər Akademiyasının xəbərləri. Ədəbiyyat, dil və incəsənət seriyası, 1968, №2, s.85-101) söyləmişdir:

I. Kür çayının sağ sahili heç zaman Ermənistanın tərkibinə rəsmi şəkildə daxil olmamışdır. Halbuki A.Ş.Mnatsakanyan əsassız olaraq Qafqaz Albaniyasının sərhədi olan Kür çayının sağ sahilini eramızın IV əsrinədək (387-ci ilə qədər) "Böyük Ermənistan"ın tərkibində olması fikrini irəli sürmüşdür.

II. Voroşil Qukasyan onlarla tarixi və filoloji dəlillər əsasında sübut etmişdir ki, albanların öz yazısı olmuşdur. Onun fikrincə, bunu alban əlifbası və Mingəçevirdə tapılmış yazılar da təsdiq edir. Lakin A.Ş.Mnatsakanyan öz əsərində iddia etmişdir ki, guya albanların yazısı olmadığı üçün onların ədəbiyyatları da yaranmamışdır. Halbuki elmə sirr deyil ki, alban yazısı olmuş və bu indiyə qədər oxunmamışdır. Bizcə, alban yazıları oxunsaydı Azərbaycan tarixinin qədim dövrünə aid xeyli zəngin material əldə etmiş olardıq. Bu da ermənilərin əsassız iddialarına birdəfəlik son qoyardı. Təbii ki, A.Ş.Mnatsakanyan alban yazılarının indiyə qədər oxunmadığını və bununla bağlı çətinlikləri çox gözəl bildiyinə görə, elə bu abidələrin "sahibi", "yiyəsi" iddiası ilə əsər yazmışdır. Lakin Moisey Utilinin (Kalankatuklunun) "Alban tarixi"

əsəri bizə erməni dilində çatsa da, Voroşil Qukasyanın dediyi kimi, onun nə vaxt, kim tərəfindən, hansı dildə yazıldığı elmə məlum deyildir. Erməni tədqiqatçısı bu reallıqdan "məharətlə" istifadə edərək Alban abidələrini öz adlarına çıxmışdır.

"Alban tarixi" əsərinin yazılma tarixi barədə iki fikir mövcuddur. Birinci fikir tərəfdarı T.Ter-Qriqoryan "Alban tarixi"nin I, II kitabının yazılması tarixini VII əsrə, III kitabı isə X əsrə aid edir. İkinci fikir tərəfdarları Y.A.Manandyan, N.Akinyan isə "Alban tarixi"nin yazılmasını X əsrə çəkirlər. Bu ikinci fikir həqiqətə uyğun gəlmir və əsassızdır. Ona görə ki, X əsrə qədər "Alban tarixi" əsərinin orijinalı mövcud olmuşdur. Bu orijinalı ermənilər ələ keçirdikdən sonra onun üzünü erməni dilinə çevirmişlər. Xüsusilə, Azərbaycan tarixçisi F.C.Məmmədova "Alban tarixi" mətnini təhlil edərək onu X əsrə aid edən erməni tədqiqatçılarının gətirdikləri dəlillərin əsassız olduğu və həqiqətə uyğun gəlmədiyi qənaətinə gəlir (bax: Ф.Дж.Мамедова. Проблема датировки «Истории Албан». – Azərbaycan SSR Elmlər Akademiyasının xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, 1974, №3).

Ərəb qoşunları Azərbaycana gələrkən ermənilərin kiçik etnik qrup kimi indiki Ermənistan ərazisindəki bəzi yerlərdə heç bir dövləti olmadan Azərbaycanın hüdudları içərisində yaşaması mümkünlüyünü bəlkə də qəbul etmək olar. A.Bakıxanovun verdiyi məlumata görə, "O za-

man (ərəb xilafəti dövründə – B.X.) ermənilər ərəb qoşununun zülmündən qaçıb, Qarabağın çətin gedilən yerlərinə sığınmışdılar. Onların çoxu indi də bu yerlərdə yaşamaqdadır”. (bax: A.Bakıxanov. Gülüstani – İrəm. Bakı, 1951, s.51)

Onu da qeyd edək ki, VII əsrdə, ondan əvvəl, X əsrdə, XIX əsrə qədər Qafqazda, Qafqaz Albaniyasında, indiki Ermənistanda erməni adlı bir millətin dövləti olmamışdır. Ona görə də bu ərazilərdə erməni dövlətinin olmasını təsdiq edən tarixi, sosial, siyasi, etnik, coğrafi məlumatlar da yoxdur. Bu da ermənilərin Qafqaz mühitinə kənardan gəlmələrini sübut edir.

Hələ 1861-ci ildə K.Patkanyanın “Alban tarixi” əsərini rus dilinə tərcümə etməsini də təsadüfi saymaq olmaz. Ona görə ki, o, bu işi ilə Azərbaycan tarixinin tərkib hissəsinə çevrilmiş qədim Alban tarixini və Azərbaycan tarixini saxtalaşdırmış erməni mütəxəssislərini dəstəkləməklə yanaşı, bu yolla saxta erməni tarixi yaradaraq onu rus dili vasitəsilə daha geniş səviyyələrdə yaymağa çalışmışdır.

Əslində ermənilər Alban kilsələrini ələ keçirtdikdən sonra albanlara məxsus olan materialları erməniləşdirməyə başlamışlar.

Bunu Mingəçevirdən – Sudaqılan yaşayış yerindən aşkar edilmiş, qədim alban kitabələrindən olan xaçaltı daşın üzərindəki kitabə də təsdiq edir. Burada tapılmış xaçaltı yazılı daş qarqar-türk dilinə aiddir. Xaçaltı yazılı

daşı qarqar-türk dilində oxuyan müəllif yazır: "Əlbəttə, bu (mətn – B.X.), Qriqoryan kilsəsinin alban kilsəsi üzərində birinci qələbəsinə qədər olan bir dövrü əhatə edir. Bundan sonrakı dövrlərdə alban yazılı mədəniyyəti məhv edilmişdir. Ona görə də V-VIII əsrlər arasında olan dövrə aid alban əlifbası ilə Mingəçevir epiqrafik abidələrindən savayı heç bir yazılı material əldə edilməmişdir. Bu onu göstərir ki, yad əllər daim alban mədəniyyətini məhv etməyə çalışmışdır" (bax: Xanlar Mustafayev. Mingəçevir epiqrafik abidələri. Elm və həyat, №11-12, 1990, s.25).

Deməli, ermənilər ələ keçirə bilmədikləri alban kilsələrinə, alban yazılı mənbələrinə toxuna bilməmişlər.

Ancaq ermənilər "Alban tarixi" əsərinin orijinalını məhv edərək onu erməni dilində çap etdirmişlər. V.Qukasyan yazır: "... Utilinin əsəri alban dillərinin birində (bəlkə də udin dilində) yazılmış, çox sonra isə qədim erməni dilinə tərcümə edilmişdir. Bunun nəticəsində də əsərdə yerli dilə məxsus sözlər və qrammatik formalar qalmışdır". (bax: Ворошил Гукасян. Удинское слова в «Истории Албан». – Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri. Ədəbiyyat, Dil və incəsənət seriyası, 1968, №1, s.61).

Başqa bir tərəfdən əsərin erməni dilində bizə çatması isə hələ onun müəllifinin erməni olmasından xəbər verə bilməz. Onda ərəb, fars, rus və s. dillərdə əsər yazmış ərəb, fars, rus olmayan müəllifləri ərəb, fars, rus

adlandırmalıyıqmı? Ərəb dilində "Divani-lüğət-it türk" əsərini yazmış M.Kaşğarini, fars dilində yazmış N.Gəncəvini necə adlandırmalıyıq?! Birinə ərəb, digərinə farsmı deməliyik?! Deməli, sadəcə olaraq, albanları erməniləşdirmək əsassızdır. "Alban tarixi" əsərinin müəllifini erməni kimi qələmə vermək isə əsl tarixi həqiqəti inkar etməkdən başqa bir şey deyildir.

"Alban tarixi" əsəri ermənilərin əlinə keçdikdən sonra təbii ki, təhriflərə də yol verilmişdir. Məsələn, kitabda *Salar türklərinin* mənşəyi təhrif edilərək heç bir əsas olmadan tacik kimi təqdim olunur. Guya tacik xalqının sayının azalması nəticəsində bir xalq meydana çıxır və onun adı da *Salar* olur (bax: Мовсэс Каланкатуации. История страны Алуанк. Ереван, 1984, с.169).

Halbuki *Salar türklərinin* mənşəyinin taciklərlə heç bir əlaqəsi yoxdur. Türkologiyadan məlumdur ki, *Salarlar* karluq-uyğur qrupu türk dillərinə daxildir. Bu qrupda *salarlarla* yanaşı, özbək, yeni uyğur, sarı-uyğur dilləri də vardır. Bəzən *salarlar* müstəqil türk dili deyil, uyğur dilinin bir dialekti də hesab olunur. Eyni zamanda onların uyğur dilinin dialekti olmadığı, müstəqil türk dili olması fikri də vardır. *Salarların* oğuz, oğuz-türkmən qrupuna daxil olması və XIV əsrə qədər qıpçaqların əhatəsində yaşaması, Şərqi Türküstana köçdükdən sonra Xuançe çayı boyunca çinlilər, tibetlilər və monqollarla əlaqədə olması məlumdur.

*Salarlar* Çində Syunxua, qismən də Tenxay əyalətində, Qansuda yaşayırlar. Bu dildə 40 mindən çox adam danışır.

*Salar* etnonimini türkmən tayfalarından biri olan *salqur//salur//salorla* da bağlayırlar. Hər halda türkologiyada *salarların* türk mənşəli olması fikrini heç cür inkar etmək mümkün olmadığı halda, "Alban tarixi" əsərində bu xalqın kimliyi aydın şəkildə təhrif olunur.

III. Voroşil Qukasyan A.Ş.Mnatsakanyanın digər mənasız iddialarını da zəngin faktlarla təkzib etmişdir. A.Ş.Mnatsakanyan saxta yolla erməni ədəbiyyatını qədim etmək üçün alban şairi Dəvdəki və alban tarixçisi Moisey Utilini (Kalankatuklunu) erməni müəllifləri kimi qələmə vermişdir. V.Qukasyan tarixi və filoloji faktlarla Dəvdəkin və Moiseyin alban olduğunu sübut etmişdir. O, alban toponimik adlarının erməni dilinin lüğət tərkibində olmadığını da tədqiq etmişdir. Doğrudan da, Dəvdəkdən, Moiseydən başqa, Mxitar Qoş, Qarakos Qanzakedzi kimi alban müəllifləri də olmuşdur. Eyni zamanda *alban* sözü bir etnik, toponimik ad olmaqla erməni dilinin morfoloji və qrammatik quruluşuna yabançıdır. *Alban* sözünün etimoloji cəhətinə və morfoloji strukturuna uyğun gələn etnik adlar türk dillərində qanunauyğun hal kimi özünü göstərir. Bu mənada *alban* (alb-an) sözünün tarixi-etimoloji və morfoloji strukturu *bayan* (bayan), *Salyan* (Sal-(y)an), *Qacaran* (Qacar-an), *avaran//abaran* (avar//abar-an), *Sisiyan* (Sisi-(y)an) və s. sözlərdə də qorunur.

IV. A.Ş.Mnatsakanyan qədim alban qəbilələrini və udinləri erməniləşdirmiş və guya onların dillərinin də erməni dili olmasını saxta bir yolla sübut etməyə çalışmışdır. Bu mənada da V.Qukasyanın tədqiqatının nəticəsi maraqlıdır. O yazır: "...Bu, qədim Azərbaycan tarixini saxtalaşdırmaqdan başqa bir şey deyildir. Belə ki, alban dillərinin, o cümlədən də udin dilinin özünəməxsus qrammatik quruluşu, fonetik və leksik tərkibi vardır" (bax: ВорошилГукасян. О некоторых вопросах истории Албанской письменности и литературы (в связи с работой А.Щ.Мнацаканяна, «О литература Кавказской Албании») – Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri. Ədəbiyyat, dil və incəsənət seriyası, 1968, №2, s.101).

Məhz "Alban tarixi" əsərini və bütövlükdə albanları erməniləşdirmək həmin dövrə aid mənbələrin bizə gəlib çatmaması ilə bağlıdır. Belə bir boşluqdan erməni mütəxəssisləri istifadə edərək, albanları erməniləşdirməyə çalışmışlar. Bununla həm də qədim Azərbaycan tarixini saxtalaşdırmışlar. Ona görə ki, albanlar və alban tarixi qədim Azərbaycan tarixinin tərkib hissəsinə çevrilmişdir. Bu dövrə aid mənbələrin müxtəlif səbəblərlə bağlı olaraq dağıdılması hal-hazırda tariximizin incəliklərini öyrənməkdə çətinlik yaradır.

Əjdər Fərzəliyə görə, dünya Tanrıdan başlanır. Tanrıdan sonra ən qədim olan dünyadır. Dünyada isə ən qədim əlifba Orxon-Yenisey əlifbası və Gəmiqaya-

Qobustan əlifbasıdır. Hər ikisinin hələ də açılmayan sirləri çoxdur. Ancaq "Orxon-Yenisey əlifbası Avrasiya mühitində şərq, Gəmiqaya-Qobustan isə qərb əlifbasıdır. Elə bu səbəbdəndir ki, qədim və müasir Avropa əlifbaları, Yaxın Şərqin bir sıra əlifbaları da Gəmiqaya-Qobustanın törəmələridir. Mən bu fikrə demək olar ki, saysız müqayisələr, tutuşdurmalar apardıqdan sonra gəlmişəm. Bütün müqayisələrin cədvəllərini tərtib etmişəm. Müqayisələr göstərir ki, finikiya, yunan, latın, kiril, yəhudi, ərəb, İran (pəhləvi), sanskrit, brahmi (hind) və s. əlifbaları Gəmiqaya-Qobustan əlifbasından iqtibasla yaradılmışdır". (Əjdər Fərzəli. Gəmiqaya-Qobustan əlifbası. Bakı, "Azərbaycan Milli Ensiklopediyası" Nəşriyyat- Poliqrafiya Birliyi, 2003, s.13).

*21.04.2015*

# “Nuh tufanı və Gəmiqaya - Qobustan əlifbası” – II məqalə

Qobustan abidələri barədə 1924-cü ildə məlumat verilmiş, bunu 1938-ci ildə arxeoloq İsaq Cəfərzadə aşkara çıxarmış və 1947-ci ildən tədqiq etməyə başlamışdır. Sonralar arxeoloqlar Firuzə Muradova və Cəfərqulu Rüstəmov bu işi davam etdirmişlər. 1973-cü ildə İsaq Cəfərzadənin müəllifliyi ilə “Qobustan” kitabı çap olunmuşdur. Bu kitabda Qobustan qaya rəsmlərinin şəkilləri verilmiş, onların barəsində ümumi məlumat öz əksini tapmışdır. İsaq Cəfərzadə Qobustan qaya rəsmlərinin e.ə.VIII minillikdən başlayaraq qayalar üzərinə həkk olunduğunu qeyd etmişdir. (İ.Cəfərzadə. Qobustan. B., 1973, s.337) Qobustan barədə sonradan Firuzə Muradovanın “Qobustan-Tunc dövrü” (B., 1985), Cəfərqulu Rüstəmovun “Qobustan dünyası” (B., 1994), Vəli Əliyevin “Qədim Naxçıvan” (B.,1984), “Gəmiqaya abidələri” (B., 1992) kitabları çap olunmuşdur. Bu tədqiqatlarda belə hesab olunur ki, Qobustan qayaları üstündəki təsvirlər qədim insanların, ovçuların, çobanların əl işləridir. Ancaq Əjdər Fərzəli qaya üzərindəki rəsmlərin inkişaf etmiş mədəniyyətin izi ilə bağlı olmasını göstərmişdir.

Əjdər Fərzəli yazır: "Qobustan qayalarının rəsm və işarələri heç də "ovçuların və çobanların əl işləri" olmayıb, istedadlı rəssamlar və bilicilər tərəfindən qayalar üzərində bədii-həndəsi-riyazi dəqiqliklə qazılmış, həkk edilmişdir. Bunların hamısı sözlü işarələrdir. Və ilk növbədə Tanrıçılıq, odsevərlik inamını, yer-göy əlaqələrini, kosmik düşüncəni əks etdirir". (Əjdər Fərzəli. Gəmiqaya-Qobustan əlifbası. Bakı, "Azərbaycan Milli Ensiklopediyası" Nəşriyyat – Poliqrafiya Birliyi. 2013 s.11-12)

Gəmiqaya abidələrini 1968-ci ildə Vəli Əliyev aşkarladı. Ancaq Qobustan və Gəmiqaya yazılarının ilk əlifba olduğunu Əjdər Fərzəli təyin etdi. O, sübut etdi ki, Qobustan və Gəmiqaya yazıları Azərbaycan – türk düşüncəsinin məhsuludur. Əjdər Fərzəli Qobustan, Gəmiqaya yazıları ilə Orxon-Yenisey yazılarını müqayisə etdi, tutuşdurdu və aşağıdakı müqayisələri üzə çıxardı:

I. Gəmiqaya – Qobustanda A, B, Ə, Ö, Q, Ş, P, R, T, G, F və J işarələri Orxon-Yeniseydə başqa işarələrlə təyin edilir.

II. Gəmiqaya-Qobustanda hər işarə bir səsin ünvanı olduğu halda, Orxon-Yeniseydə belə deyildir. Orxon-Yeniseydə bəzən bir səsi bir neçə işarənin toplu halı bildirir. Məsələn, *K* səsini 10, *Ş* səsini 5 işarə toplu halında ifadə edir.

III. Orxon-Yeniseydə *a-ə, ı-i, o-u, ö-ü* saitləri müştərək işarələrlə bildirilir. Ancaq Gəmiqaya-Qobustan yazılarında bunlar fərqlidir.

Əjdər Fərzəlinin tədqiqatlarına görə, Orxon-Yenisey və Gəmiqaya-Qobustan yazıları bir-birindən fərqli, müstəqil, ancaq qohum türk əlifbalarıdır. Həm də Əjdər Fərzəlinin tədqiqatlarında Azərbaycanda aşkar olunmuş Gəncə, Şamaxı, Kəlbəcər, Mingəçevir, Hacıqabul, Nüvədi, Təbriz-Əhər, Pirallahı və İçərişəhər yazıları Gəmiqaya-Qobustan əlifbasının işarələri ilə tam şəkildə üst-üstə düşür.

Əjdər Fərzəlinin tədqiqatlarına görə, Gəmiqaya-Qobustan əlifbası eradan əvvəlki minilliklərdən bizim eranın 8-9-cu əsrlərinə qədər, ərəb işğalına qədər Azərbaycanda, Yaxın və Orta Şərqdə, Avropada yayılmış, işlənmiş əlifbadır.

Əjdər Fərzəli yazır: "Gəmiqaya-Qobustan əlifbası 32 hərfdən: 23 samit və 9 sait səsdən ibarətdir. Bunlar 100-ə yaxın işarədir. Bu əlifba ilə yazılmış bütöv mətnlər hələlik əldə edilməsə də, prinsip etibarilə yəqin etdim ki, Gəmiqaya-Qobustan əlifbasının işarələri tanrıçılıq inamının tələbi ilə soldan sağa – Od tanrıya: Günəşə sarı yazılıb". (Əjdər Fərzəli. Gəmiqaya-Qobustan əlifbası. Bakı, "Azərbaycan Milli Ensiklopediyası" Nəşriyyat – Poliqrafiya Birliyi, 2003, s.15)

Əjdər Fərzəlinin tədqiqatlarının nəticəsinə görə, Finikiya əlifbasının "birinciliyi"nə son qoyulur. Orxon-Yenisey əlifbası Finikiya yazısından əvvəllərə gedir, həm də Orxon-Yenisey əlifbasının özü də Gəmiqaya-Qobustan əlifbasından bəhrələnmişdir.

Əjdər Fərzəlinin tədqiqatlarına görə, Gəmiqaya-Qobustan əlifbası yetkin, kamil bir düşüncənin, mədəniyyətin məhsuludur. O yazır: "Gəmiqaya-Qobustan əlifbası belə bir həqiqəti təsdiq edir ki, əlifba bir nəfər tərəfindən bir ayda, bir ildə yaradıla bilməz. O, uzun illərin təcrübəsindən, sınaqlarından keçərək insan kollektivinin, etnosun-xalqın soy psixologiyasına, dünyagörüşünə, dil və din birliyinə əsaslanaraq, piktoqraflar – şəkilli sözlər, damğalar, rəmzlər toplusundan seçilərək, bir sapa düzülərək, formalaşaraq yaradıla bilər. Belə əlifbanın yaradıcısı bütün xalq olur. Əlifba məhz əlifba kimi formalaşana qədər bir neçə mərhələdən keçir. Onun nizama – "sapa" düzülməsində azı bir neçə, yaxud onlarla bilici iştirak edir". (Əjdər Fərzəli. Gəmiqaya-Qobustan əlifbası. Bakı, "Azərbaycan Milli Ensiklopediyası" Nəşriyyat – Poliqrafiya Birliyi, 2003, s.19).

Əjdər Fərzəlinin Gəmiqaya-Qobustan əlifbası bir məsələyə də aydınlıq gətirir. Belə ki, Əjdər Fərzəli "Kitabi-Dədə Qorqud"un boylarının Azərbaycanda yarandığını Gəmiqaya-Qobustan əlifbasına istinad edərək təsdiq edir. Belə bir əlifbanın yarandığı ərazidə, təbii ki, "Kitabi-Dədə Qorqud" yaranmalıydı və yarandı.

Əjdər Fərzəli yazır: "Altay türklərinin "doğum, döl" rəsmində insan, başından ayağına qədər 32 sümük birləşməsindən ibarət təsvir edilmişdir. Ağızda 32 diş bəlkə bunun yığcam təkrarıdır? Qobustanda gəmi rəsmlərində (məsələn, 29-cu daşda, həm də 23+9 hesabı ilə) 32

işarə yaradılış yaddaşının timsalıdır. Müqəddəs sayıldığına görə 32 rəqəmi həm də qəbilə, oba, kənd adına (İmişli rayonunda 32-lər kəndi) çevrilmişdir. 32 rəqəmi yaradılışın 4 ünsürü ilə də səslənir: 32:4=8; 8:2=4.

Nəhayət, yaradılış əlifbasının – Gəmiqaya – Qobustanın məhz 32 hərfdən ibarət olması, yəqin ki, təsadüfi deyil. Bir sirrin də izi ilə çox uzağa getmək olar". (Əjdər Fərzəli. Gəmiqaya-Qobustan əlifbası. Bakı, "Azərbaycan Milli Ensiklopediyası" Nəşriyyat – Poliqrafiya Birliyi, 2003, s.22)

Əjdər Fərzəlinin elmi qənaətlərindən biri də budur ki, azərbaycanlıların əski əlifbası ərəb əlifbası deyil. Onun fikrincə, ərəb əlifbası qədim Azərbaycan əlifbasından törəmədir. Onun elmi qənaətinə görə, ərəb əlifbası VIII-IX əsrlərdən başlayaraq Azərbaycanda kütləvi savadsızlığın bünövrəsini qoymuşdur.

Əjdər Fərzəli Gəmiqaya-Qobustan əlifbasında "sağır nun" hərfini oxudu, Orxon-Yenisey yazılı abidələrində Danimarka alimi V.Tomsen 1893-cü ildə *Tenqri* sözünü oxudu. Əjdər Fərzəli isə arxeoloq alim Vəli Əliyevin "Gəmiqaya abidələri" (1992) kitabında 28-ci şəkil qrupunda birinci piktoqrafın "Tanqrı" sözündən ibarət olduğunu oxudu.

Gəmiqaya-Qobustan əlifbanın "daş" mərhələsi, dünya yazı mədəniyyətinin zirvəsi olmaqla (o cümlədən Orxon-Yenisey yazısı) öz fəlsəfəsini yaratmışdır. Bu da ondan ibarətdir ki, qədim türk əlifbaları ilk mərhələdə

piktoqraflar şəklində daşlara yazılmış, bu, ənənə şəklini almış, nəticədə "daş kitablar" meydana gəlmişdir. Sonralar gil lövhələrə, dəriyə, ağaca, kağıza yazılar yazılmışdır. O fikri də qəbul etməli oluruq ki, qədim türklər Avrasiya məkanında qövsvari hərəkət etmişlər. Onlar baharın ardınca getmiş, əvvəl yaşadıqları yerdə təbii nemətlər tükəndikdən sonra yeni ərazilərə doğru hərəkət etmişlər. Bununla da, qədim türklər həmişə hərəkətdə olmuş qərbdən şərqə və əksinə hərəkət etməklə öz mədəniyyətlərini köç etdikləri ərazilər boyu yaymışlar.

Tarixi məlumatlara əsasən Naxçıvan e.ə.1539-cu ildə şəhər-qala kimi mövcud olmuşdur. Bu tarixə əsasən 2015-ci ildə Naxçıvanın 3542 yaşı tamam olur. Arxeoloji tədqiqatlar sübut edir ki, Naxçıvanda 9 min il əvvəl yaşayış olmuşdur. Bu da məlumdur ki, 12 min il əvvəl baş vermiş daşqın və Nuhun gəmisinin gəlib çıxdığı yer Naxçıvandır.

Əjdər Fərzəlinin "Nuh tufanı və Gəmiqaya-Qobustan əlifbası" kitabındakı araşdırmanın nəticələrini aşağıdakı kimi ümumiləşdirmək olar:

I. Gəmiqaya-Qobustan əlifbası qədim Azərbaycan əlifbasıdır. Bu əlifba yüz və min illər ərzində bütün xalq – xalq biliciləri tərəfindən yaradılmışdır.

II. Gəmiqaya-Qobustan əlifbası başqa əlifbalardan fərqli olaraq yaradılış ideyasını – Tanrıçılıq inamını əks etdirir.

III. “Əlifba” sözü öküz başının – Göy öküzünün (öküz bürcünün) “ ” işarəsi şəklində alova oxşar görümündən – qədim Azərbaycan dilindəki “alov” sözündən yaranmışdır. Və finikiya “ərəb, yəhudi, yunan və s. dillərindəki alef, alif-əlif, alfa qədim Azərbaycan dilindəki *alov-buta* sözlərinin təhrif şəkilləridir.

IV. Finikiya, Misir, yunan-latın, ərəb, yəhudi, erməni, kiril, hind (brahmi), İran (pəhləvi) və bir sıra digər əlifbalar Gəmiqaya-Qobustan əlifbasının törəmələridir.

V. Gəmiqaya-Qobustan əlifbası və Orxon-Yenisey əlifbası bir-birinə bağlı, ancaq müstəqil yaradılmış türk əlifbalarıdır.

VI. Alban əlifbası – Qafqaz Albaniyasının əlifbası Gəmiqaya-Qobustan əlifbasının təhrif edilmiş şəklidir.

VII. “Avesta” əlifbası Gəmiqaya-Qobustan əlifbasından törəmədir.

VIII. Şumerli türk əlifbası Gəmiqaya-Qobustan əlifbası ilə eyni quruluşdadır.

IX. Mingəçevir epitafiyası Gəmiqaya-Qobustn əlifbası əsasında türk düşüncə tərzi ilə yaranmışdır.

X. Gəmiqaya-Qobustan əlifbasının hərf və piktoqrafları Naxçıvan-Ordubad, Urmiya-Əhər-Təbriz, Qərbi Azərbaycan, Kəlbəcər, Gəncə, Mingəçevir, Şamaxı-Altıağac, Qobustan-Hacıqabul, Bakı-İçərişəhər-Pirallahı adası daşlarında, qayalarında aşkar edilmişdir. Hətta bu əlifba qədim Azərbaycan xalçaları, məişət əşyaları üzərində “naxış” kimi əks olunmuşdur.

XI. Gəmiqaya-Qobustan əlifbası 32 hərfdən (onların 9-u sait, 23-ü samit) ibarətdir.

XII. Gəmiqaya-Qobustan əlifbasında hər bir hərf sözü tamamlaya bilirsə, "bütöv söz" funksiyasında olur. Belə bir əlamət Orxon-Yenisey yazılarında da müşahidə olunur.

XIII. "Kitabi-Dədə Qorqud"un mifik süjetləri Gəmiqaya-Qobustan əlifbası ilə Gəmiqayaya, Qobustana yazılmışdır.

XIV. Gəmiqaya-Qobustan çoxşəkilli əlifbadır. Burada eyni hərfin bir neçə şəkli, variantı vardır. Onlar sözün məzmunundan, mənasından irəli gələrək yaradılmışdır.

XV. Gəmiqaya-Qobustan əlifbası Azərbaycan dilinin, ədəbiyyatının, mədəniyyətinin, tarixinin yeni bir mərhələsidir.

XVI. Əjdər Fərzəli Gəmiqaya-Qobustan əlifbasının 300-ə yaxın sözlüyünü tərtib etmişdir (АждарФарзали. Ноев Ковчег и Гямигая-Гобустанский алфавит. Баку, «Гапп-полиграф", 2014, с.234-241).

XVII. Gəmiqaya-Qobustan əlifbasının mətnləri işğallar, müharibələr, qarətlər nəticəsində dağıdılmışdır.

XVIII. Gəmiqaya-Qobustan əlifbasının aşkarlanması əlifbanın meydana gəlməsində uydurma "Finikiya birinciliyi"nə son qoymuşdur.

XIX. Gəmiqaya-Qobustan dünya əlifbaları tarixində vahid Əlifba Ağacı rolunu oynamışdır.

XX. Gəmiqaya-Qobustan mədəniyyətinin kökündə Tanrıçılıq dayanır. Mövcud dinlərin hamısı (islam, xristianlıq, buddizm, iudaizm) Tanrıçılıqdan bəhrələnmişdir. Tanrıdan-Allahdan gələn kitablar da (Zəbur, Tövrat, İncil, Quran) hər şeyin əsasında Tanrıçılığın dayandığını təsdiq edir.

XXI. Gəmiqaya-Qobustan əlifbası dünyanın möcüzələri barədə düşünməyə imkan yaradır. İlk möcüzə Gəmiqaya-Qobustan rəsmləridir. Bu möcüzə barədə Əjdər Fərzəli məsələni belə qoyur: Tanrı ulu rəssam kimi yaratdıqlarının əvvəlcə şəklini çəkdi və sonra onlara ruh verdi, can verdi. Tanrının rəsmləri işarələr kimi insanın özündə, bədənində göründü, başqa canlılarda otlarda, çiçəklərdə, ağaclarda göründü. İnsan Tanrının qələmindən çıxmış 32 işarənin kombina edilməsi kimi qəbul edildi. Tanrı öz səma gəmisində Göydən Yerə 32 işarə-hərf göndərdi. Tanrı 32 hərf və iki insan: qadın və kişi göndərdi. Tanrinin Səma Gəmisində göndərdiyi 32 hərf-işarə (23 samit və 9 sait) və iki insan: kişi və qadın Səma Gəmisi ilə birlikdə 1-ci möcüzə idi. 2-ci möcüzə isə Gəmiqayada "Nuhun gəmisi" ilə bağlı rəsmlərdir.

XXII. Humboltun və Sössürün söz-dil işarələr sistemidir fikrini qəbul etməklə Gəmiqaya-Qobustan əlifbasının işarələr nəzəriyyəsinin əsasında dayandığını və onu bu günümüzə çatdıran qaynaq olduğu qənaətini təsdiq etməli oluruq.

XXIII. Əjdər Fərzəlinin Gəmiqaya-Qobustan əlifbası ilə bağlı fikirləri bu qənaəti söyləməyə əsas verir ki, bəşəriyyət elmlə dinin birliyi əsasında Tanrıçılığın mahiyyətinə varmalıdır. Bəşəriyyət bu gün elmlə dinin eyni mənbədən – Tanrıdan gələn bir ideya olduğu fikrindən uzaqlaşmışdır. Ancaq bəşəriyyət bunu da bilir ki, müqəddəs kitablar da (Zəbur, Tövrat, İncil, Quran) Tanrıdan-Allahdan gələn müqəddəs kitablardır. Elmlə dinin mənbəyini bu kitablar yaşadır.

Biz dəyişən dəyərlər dünyasında yaşayırıq. Ancaq elə dəyərlər var ki, onlar dəyişmir. Dəyişməyən dəyərlər dəyişmədiyi üçün dəyərlidir. Dəyişməz dəyərlər sırasında Gəmiqaya-Qobustan da var. Dəyişməyən dəyərlər dəyərə qiymət verənlərdə bu fikri yaradır və hər birimizi düşünməyə məcbur edir. İ.Nəsimi: “Dünya duracaq yer deyil, ey can, səfər eylə!..”, V.V.Nalimov: “Nədən dünyamız bir belə qəddardı?.. Nə zamansa da bu sirri aça biləcəyikmi?”, S.Y.Lets: “Ciddi düşünməyə başlayınca görürüəm ki, dünya nə qədər gülüncdür”.

*27.04.2015*

# Mən-biz, sən-siz, o-onlar barədə deyimlərim – I yazı

Həyatda bəzən canavardan yox, tülküdən qorxmaq lazımdır.

***

Fədakarlıq göstərmək bəzən başqalarını narahat edir.

***

Bizim hamımız öz işlərimiz üçün yaranmışıq.

***

Yol nə zaman yol ola bilər? Yol tapdalananda yol ola bilər. Əks təqdirdə yolu alaq basar, ot basar, yol yol ola bilməz.

***

Kitab nə zaman kitab ola bilər? Kitab oxunanda kitab ola bilər. Kitab oxunmayanda kitab deyil. Dünyada oxunmayan çoxlu kitablar var.

***

Ədalətli olanların ədalətindən, obyektiv olanların obyektivliyindən, səmimi olanların səmimiyyətindən öz məqsədləri üçün istifadə edənlər az deyildir.

***

Bu dünyada güvənməli, arxalanmalı adamlar çoxdurmu?!

***

Ağıllı adamlar özünə və zəhmətinə güvənirlər. Digər güvənc yerləri əbəsdir.

***

Kiməsə arxayın olmaq məsuliyyətsizlikdir.

***

Arxa axtarmaq, kömək axtarmaq nə gətirəcək və bunun nə gətirəcəyini kim bilir? Və bunun gələcəyini haradan bilmək olar?

***

İnsanlar bir-birinin nəyinə vurulurlar?

***

İnsanlar çox vaxt hər şeyin sonunun nə ilə qurtaracağı barədə düşünmürlər.

***

İnsanın dahiliyi qarşıya çıxan bütün çətinliklərlə üz-üzə dayanır.

***

Mənim üçün keçmiş dəyərlidir. Gələcək isə dəyərli olduğu qədər də gərəklidir. Bu gün isə keçmişlə gələcəyi ayırandır. Bunların hər biri mənim üçün mənalıdır. Bunların heç birinə biganə deyiləm. Biganə olanlara isə inanmıram. Ona görə ki, onlar özləri üçün yaşayırlar. Özləri üçün yaşayanlara keçmiş, bu gün, gələcək yoxdur. Keçmişin, bu günün, gələcəyin onlara (biganələrə) aidiyyatı yoxdur.

***

Bu dünyanın qıl körpüsü daha təhlükəlidir. Oradan tarazlığını itirib düşsən heç kəs yiyə, sahib çıxmayacaqdır. Yiyə, sahib çıxacaqların başı elə qarışıbdır ki, öz haylarındadırlar. Ona görə də bu dünyanın qıl körpüsündən ehtiyatlı olmaq lazımdır. O biri dünyanın qıl körpüsü barədə çox düşünüldüyü üçün bu dünyanın qıl körpüsü çoxdan yaddan çıxıb. Yeri gəlmişkən bu dünyanın cənnət və cəhənnəm əzablarına da biganə qalmaq olmaz. Cənnət və cəhənnəmin nə olduğunu bilmək istəyənlər bu dünyanın cənnət və cəhənnəmini müqayisə edə bilərlər. Hələlik o dünyaya gedənə qədər bu dünyada cənnət və cəhənnəmi görmək, müşahidə etmək mümkündür. Ağıllı

adamlar qıl körpüsünü də, cənnəti də, cəhənnəmi də elə bu dünyada dərk edirlər. Dərk olunan bir şeyi anlamaq daha rahat olur. Elə ki anlamaq mərhələsi başlayır, onda görürsən ki, qıl körpüsü də, cənnət də, cəhənnəm də sənin həyatının, məişətinin tərkib hissəsidir.

***

Qəribədir bu dünyanın işləri. İnsanın ömür yolu xəstəxanadan başlayır, qəbiristanlıqda qurtarır. Xəstəxanada dünyaya gələn insan ömrünü burada da başa vurur. Və qəbiristanlıq əbədi yeri olur. Ancaq insan bir şeyi fikirləşirmi? Fikirləşirmi ki, onun sağlamlığını əlindən alan yaşamaqdır. Özü də qaydasız yaşamaq. İnsan fikirləşirmi ki, onun sağlamlığını əlindən alan şadlıq evləridir. O şadlıq evləri ki, cürbəcür keyfiyyətsiz yeməkləri ilə insanları məhv edirlər. İndi maraqlısı odur ki, xəstəxanalar da, şadlıq evləri də, qəbiristanlıqlar da çoxalıbdır. Həm də maraqlı orasıdır ki, xəstəxanalar da, şadlıq evləri də, qəbiristanlıqlar da gün-gündən çoxalırlar. Deməli, dünyaya gələnlər, xəstələnənlər, dünyadan köçənlər dünyanın başını qatıbdır.

***

Dünyada üç qoxunu heç nə ilə əvəz etmək, dəyişmək, qarışıq salmaq mümkün deyildir. Onlardan biri şehli otu biçən zaman ətrafa yayılan ot qoxusudur. Hələ bu otun içərisində gül-çiçək olarsa, qoxu aləmi bürümüş

olar. İkincisi körpə uşağın boynunun yanlarında olan qoxudur. Olduqca şirin qoxudur. Üçüncüsü isə qış fəslində soyuq yerlərdə küçəyə sərilmiş paltarda olan iydir. Qışda yuyulmuş paltar küçəyə sərilən zaman havanın şaxtalı, soyuq, bəzən boranlı olması nəticəsində paltar qurumur, ancaq donur. Həmin paltarı içəridə isti bir yerə sərib qurudurlar. Şaxtadan, soyuqdan donmuş paltarın qoxusu özgə bir aləmdir. Soyuqdan, şaxtadan donmuş paltara qışın təmiz havası da qonduğundan bu paltarın qoxusu heç nədə ola bilmir.

***

İnsan nəyin barəsindəsə düşünürsə, demək düz yoldadır. Düşünməyən insanların isə yolu, məsləki olmur. Onlar hər şeyi kortəbii şəkildə qəbul edirlər. Onlar hər şeydən kortəbii şəkildə istifadə edirlər. Onlar bu dünyada elə-belə yaşayırlar. Bəzən uğurları da olur. Bəzən yüksəlişləri də olur. Ancaq daxilən, mənən uğur qazanmırlar, yüksəlmirlər. Daxilən və mənən kamil ola bilmirlər. Bir sözlə, bir işi görən adam düşünürsə, o, adamdır. Ona inanmaq olar.

*04.05.2015*

# Mən - biz, sən - siz, o - onlar barədə deyimlərim – II yazı

Müşahidələr göstərir ki, tamahı olmayan, acgöz olmayan, əsasən həyatını eyni şəkildə yaşayan insanlar daha uzun ömürlü olurlar. Kimlərsə acgöz, hər şeyi çapıb talayan insan olursa, onlar ömürlərini başa vurmaqda da sanki tələsirlər. Yadıma görkəmli kamança ustası Habilin müsahibələrindən birində dediyi belə bir məqam düşür. O deyirdi ki, ona görə gümrah və sağlam qalıbdır ki, onun uşaqlıq illəri müharibə dövrünə düşübdür. Mədəsini dünya nemətləri ilə yükləməyibdir. Ona görə də cavan və gümrah qalıbdır.

***

Tamahı çox olan, tamahı artıq olan adamları tamah içəridən yeyir, çürüdür. Onların acgözlüklə qazandıqları əslində onların qazancı deyil, xəstəliklərinin mənbəyidir. Tez-gec acgöz adamların qazancı onları mikrob kimi əhatə edir. Onlar mikrobun əlində əsir-yesir qalırlar. Belələrinin acgözlüyü başqalarını narahat etdiyi kimi, mikroblar da onları narahat edir. Bir də görürsən ki, dünən dövran sürənin birisi bu gün dünyada yoxdur. Yaxud dünən dövran sürən bu gün pis bir vəziyyətdədir.

İnsan ömrü boyu, demək olar ki, hər gün nə iləsə vidalaşmalı olur. Həyat məhz çoxlarının görə və dərk edə biləcəyi səviyyədə olmayan bu cür əzab, əziyyət, məyusluq və itkilərdən ibarətdir. Həyat həm də bunlara görə qəribədir. Bu qəribə həyatı insan ömrü boyu sevir.

***

İnsan həyatda istəsə də, istəməsə də elə adamlar arasında yaşayır ki, onlarla ünsiyyətdə olmalı olur. İstəsə də, istəməsə də onlara əl verib görüşməli olur. İstəsə də, istəməsə də onlarla eyni mühitdə durmalı, oturmalı olur. İstəsə də, istəməsə də onlara inanmalı olur. İstəsə də, istəməsə də, onlardan razı qalmasa da, gerçəkliklə razılaşmalı olur. İnsan özündən asılı olmayaraq və bəzən asılı olaraq belələri ilə ona görə razılaşmalı olur ki, özünü haqlı sayanların bir çoxunun haqsız olduğunu sübut etmək onun üçün baş ağrısından başqa bir şey deyildir. Ədəbiyyat dünya durduqca bu məsələlərdən nə qədər yazsa da, yenə də heç nəyi düzəldə bilməyəcəkdir.

***

Həyatın murdarlıqlarını gördükdə dilimizdəki sözlərin sehrinə etibar edirəm. Sözün sehrində istədiklərimi tapmağa can atıram. Ancaq sözün sehri o qədər yüksək və valehedici görünür ki, o mənə göy qurşağını xatırladır. İnsan sanki göy qurşağının altından keçəcəyinə inanır. Ancaq getdikcə görür ki, göy qurşağının altından keçmək

mümkün deyildir. Göy qurşağı insanı aldadıb daha uzaqlara aparır, ancaq nə olsun onun altından keçmək mümkün olmur. Bu mənada sözün yüksək və valehedici sehrinə çatmaq mümkün olmur. Mümkün olsaydı, onda insanlar sözü öz təsirləri altına salardılar. Sözün çiyinləri üzərinə yəhər qoyub onu minərdilər. Onda söz öz müqəddəsliyindən çıxardı. Odur ki, söz əbədi olaraq öz müqəddəsliyindən çıxmayacaqdır. Əgər az-çox sözlə dostluq edib onun vasitəsilə öz sözünü, fikrini, mövqeyini demək istəyənlər varsa, yenə də sözə borcludurlar, yenə də sözdən asılıdırlar. Baxmayaraq ki, dünyada dünya şöhrətli yazıçılar, şairlər var. Dünyada ədəbiyyat üzrə Nobel mükafatı laureatları var. Ancaq onların heç biri sözlərin ən son həddə olan imkanlarından istifadə edə bilməmişlər. Sözün və sözlərin ən son həddə olan imkanlarından istifadə etmək qüdrəti yeganə olaraq Allaha məxsusdur. Bunu Allahın müqəddəs kitabları da təsdiq edir: Qurani–Kərim, İncil, Tövrat, Zəbur.

***

Bilmirəm nədənsə bəzi məqamlarda ağ vərəqlərin üzərində xətlər çəkir, həmin xətləri birləşdirir, kəsişdirir, heç özüm də bilmədən qəlbimin və istəyimin çırpıntılarını əks etdirmək istəyirəm. Çəkdiyim bu xətlərdə oxunmalı məqamlar var. Onları özümdən başqa heç kəs oxuya bilməz. O xətlərin içərisində arzularım hərəkət

edir, qarşıma çıxan maneələr dəf olunur, dünyanın gəliş və gedişi ani olaraq təhlil olunur.

***

İnsan ömrü boyu müxtəlif vəzifələri yerinə yetirir. Uşaq olur və uşaqlıq vəzifələrini yerinə yetirir. Sonra yeniyetməlik, gənclik, cavanlıq, qocalıq və s. Bunların hamısı insanın ömründə zəruri və vacib işlərdir və ömrü boyu yerinə yetirdiyi funksiyalardır.

***

İnsan ömrü boyu nəyi görürsə, nə ilə qarşılaşırsa, onu hədiyyə kimi qəbul etməlidir. Bu hədiyyələrin dəyərlisi də var, dəyərsizi də var, əhəmiyyətlisi də var, əhəmiyyətsizi də var. Bu hədiyyələri heç kəs nə bazardan, nə də dükandan alır. Bu hədiyyələri bizə həyatın özü verir. Bizə bu hədiyyələri verən həyata heç nə deyə bilmirik. Olsa - olsa taleyimizdən, alın yazımızdan şikayətlənirik. Əgər hədiyyələr ürəyimizcə olursa, onda da razılıq və məmnunluq hissini gizlətmirik. Bizim hər birimiz həm də bu hədiyyələr hesabına fiziki cəhətdən, görünüş və görkəm baxımından dəyişirik.

***

Həyatın gedişatına gücümüz çatmayanda seyrçi oluruq. Hər şeyi müşahidə etməklə kifayətlənirik.

***

Həyatda ağıllı və səbirli olmağımıza görə çox şeylər əldə etmişik. Bu baxımdan ağlımıza və səbrimizə borcluyuq.

***

Bütün müharibələrin sonunda qalib tərəf bayram edir. Ancaq fikirləşən yoxdur ki, bu mənasız işin mənası nədir?! Yenə də lazımsız şeylərdən ötrü yenidən müharibələr başlayır, qanlar tökülür, insanlar qırılır.

***

Yaxşı yaşamaq üçün yaxşı təhsil almaq lazımdır. Yaxşı yaşamaq üçün həm də sağlam olmaq lazımdır.

***

Diplom almaq üçün yox, savad və bilik almaq üçün düşünmək lazımdır.

***

Azərbaycanlı ailələri uşaqlarını küçəyə oynamağa, məktəbə oxumağa göndərəndə deyirlər ki, get, heç kəsnən işin olmasın, heç kəsin işinə qarışma, çəkil, öz işinlə məşğul ol. Ancaq yəhudi ailələri uşaqlarını küçəyə oynamağa və məktəbə oxumağa göndərəndə dedikləri söz belə olur ki, get, sən hamıdan ağıllısan, hamıdan gözəlsən, hamıdan bacarıqlısan. Bu da nəticədə yəhudi uşaqlarında özlərinə inam yaradır.

***

İstənilən bir məsələyə obyektiv yanaşma var, bir də ədalətli yanaşma var. Bunlar bir - birindən fərqlənir.

***

Beyin azad yox, bilikli olmalıdır.

***

Bəşəriyyətə mərhəmət hissi daha çox lazımdır.

***

Canavar öz ovunu didib parçalayır və özünü ədalətli sayır.

***

Allah insana hansı cəzanı verirsə, bəlkə həmin cəza ilə insana başa salmaq, anlatmaq istəyir.

***

Mənim kitablarım mənim üçün ən qiymətli sərvətdir. Həm öz yazdığım kitablar, həm mənə hədiyyə olunan kitablar, həm də satışdan aldığım kitablar. Bu kitabları yığmağa yer tapmadıqda onları bir-birinin üstünə qalaq-qalaq yığmışam. Fikirləşmişəm ki, gen-bol otaqlarım olaydı, mən də bu kitabları səliqəli-sahmanlı yığaydım. Bəzi adamların evində heç kitab yoxdur. Onlar

evlərindəki əşyalarla, daş-qaşlarla, qab-qacaqlarla fəxr edirlər.

***

Əgər bilikli insan öz biliyini başqasına öyrətmirsə, onda onun biliyi bilik deyil, bilik qəbristanlığıdır.

***

Yol harada bitirsə, oradan yeni bir yol başlayır.

***

Sənin dalğa bildiyini mən ləpə bilirəm. Sənin dağ bildiyini mən təpə bilirəm. Sənin ümman bildiyini mən çay bilirəm.

***

İnsan özünü, sağlamlığını əbədi olaraq qoruya bilmir. İnsan özünü, sağlamlığını müəyyən müddət ərzində qoruyur.

***

Bu dünyada yaşamaq da, o biri dünyaya köçmək də xoşbəxtlikdir.

***

Hər şey dirilər üçündür.

***

İstedadlı, qabiliyyətli insanlar öz əməlləri ilə kölgə sala bilirlər.

***

Kişi də, qadın da ömrü boyu birini sevir. Baxın son anda kişinin yanında bir qadın, qadının yanında bir kişi olur.

***

İnsan şəxsi həyatını açırsa, ağardırsa, böyüdürsə, hətta hamıya danışırsa, onda belə insanda eyib olan heç nə qalmayıb.

*12.05.2015*

# Mən - biz, sən - siz, o - onlar barədə deyimlərim – III yazı

Dillərin dialektal variantlarının yaranması həmin dillərin ədəbi dil normalarının unifikasiyası prosesinə mənfi təsir göstərir. Onda ədəbi dilin normasını müəyyənləşdirmək də çətinləşir. Bu mənada ingilis dilinin dialektal variantları ingilis dilinin vahid ədəbi dil normalarının sabitləşməsinə, anlaşılmasına maneçilik edir.

***

İnsanların böyük əksəriyyəti kitaba qiymət vermirlər. Əvvəllər kitabları növlərə ayırırdılar: elmi kitablar, bədii kitablar, nağıl kitabları və s. İndi isə kitabları nə növlərə ayırırlar, nə də oxuyurlar. Əgər kitabları oxusalar, bilirsinizmi nələr üzə çıxar?! Ən azı o üzə çıxar ki, elmi kitabların əksəriyyəti bərbad gündədir...

***

Həyat bir kotandır. Kotan yeri şumladığı kimi, həyat da insanın ömrünü beləcə şumlayır. İnsan isə kotanı çəkir. Bütün güc insana düşür. İnsan kotanı cüt çəkdikdə nisbətən həyat rahat olur. Tək çəkdikdə isə həyat əzaba

dönür. Kotanı cüt çəkmək dedikdə insanı başa düşən, anlayan, duyan, hiss edən birisinin olmasını başa düşürəm.

***

Hər bir möhtəşəm ideya çox sadədir.

***

Dünya yaranandan Ayla Günəş bir-birini cəzb edir. Ancaq onlar birləşə bilmirlər. İnsanlar da bəzən belə olurlar.

***

Əslində hər birimizin peşəmiz, sənətimiz bizim üçün bir qaladır. Ömrümüzün sonuna qədər bizi tutub saxlayır, bizi tabe edir, bizi məhbus vəziyyətinə salır.

***

Qarnı doyandan sonra heç kəsi fikirləşməyən insanlar dünyada çoxdur.

***

Bəzi insanlar rahat yaşayanda nə Allahı, nə də bəndəni yada salırlar.

***

Qorxaq, yaltaq, ikiüzlü, riyakar adamlar əsən küləklər kimidir. Bilmirsən ki, onlar da küləklər kimi hansı tərəfdən əsəcəklər? Küləklər kimi istiqamətlərini necə dəyişəcəklər?

***

İnsanlar nədən və kimdən qorxduqlarını anlaya bilsələr, qorxduqlarının nəyə qadir olduqlarını dərindən bilsələr həyat mənasızlaşar.

***

Adamlar bəzən qorxulu yuxular görürlər. Ayılandan sonra düşünürlər ki, nə yaxşı bu yuxular həqiqət deyil, elə yuxudur. Ancaq unudurlar ki, istənilən bir həqiqət də insanlara yuxu kimi gələ bilər.

***

Əslində bizim hər birimiz ömrümüzün sonuna qədər arzu və istəklərimizin həyata keçməsi yolunda dizin-dizin sürünürük. Heç zaman rahat nəfəs ala bilmirik.

***

Təbiət bizə hər şeyi verir, biz isə təbiətə zülm edirik.

***

Təzə adamlar təzə fikirlər kimi insanlara çox maraqlıdır.

***

İnsanlar arasında maddiyyət üzərində başlamış dartışmalar vəhşi heyvanlar aləmini xatırladır.

***

Dünyada pul xərcləməyi sevənlər var. Ancaq onların pulu olmasa, pulu necə xərcləyə bilərlər?

***

Bəzən həyat da insanın bildikləri onun köməyinə çatmır. Ancaq onun köməyinə çatanları isə bilinmir.

***

İnsan ömrü boyu həyat laboratoriyasında təcrübədən keçir.

***

Yalançı adamlar bütün bağları qırıb – dağıtdığından heç kəs onlara inanmır.

***

İnsanlar nə vaxt əclaf olurlar? Niyə əclaf olurlar? Bunu bilmək üçün onların əclaflıqlarını öyrənmək lazımdır.

***

Özünü qabiliyyətli sayanlar çoxdur. Ancaq onların içərisində qabiliyyətli olanlar isə azdır.

***

Həyatda elə məqamlar var ki, gəzməkdənsə durmaq yaxşıdr, durmaqdansa oturmaq yaxşıdır, uzanmaq isə hamısından yaxşıdır. Bu barədə bir Çin məsəli də var: durmaq – gəzməkdən yaxşıdır, oturmaq – ayaq üstə durmaqdan yaxşıdır, ən yaxşısı isə uzanmaqdır.

***

Bəzən çox oxumaq imkan vermir ki, insan yazsın.

***

Pulun da, var-dövlətin də həddi olmalıdır. Bəzən pul, var-dövlət o qədər çox olur ki, onun içərisində itib-batırlar. Hətta pul, var-dövlət öz içərisinə insanı alaraq onu boğur, öldürür.

***

İnsanlar öz təbiətlərindən və ümumiyyətlə, təbiətdən uzaqlaşıblar. Elə bunun nəticəsidir ki, insanlar öz təbii olmalarını itiriblər. Bəlkə də öz təbiətlərini itiriblər, süniləşiblər. Süni xarakter yiyəsi olublar. İnsanların böyük əksəriyyətinin xarakterində sünilikdən başqa heç nə yoxdur. Ona görə də cəmiyyəti qanunlardan daha çox sünilikər, saxtakarlıqlar, riyakarlıqlar... idarə edir. Hətta belə olanda cəmiyyətin həyat tərzi meşə həyatından da geridə qalır. Əgər meşədə ən güclü heyvanla hesablaşmalı olurlarsa, burada isə (cəmiyyətdə) güclülüyün prinsipləri itir. Ağıllı olmaq, istedadlı olmaq, xeyirxah olmaq, vətənpərvər olmaq, bir sözlə, dəyərli hesab olunan dəyərləri yaşatmaq bir prinsip kimi heç olur. Onda yaşamaq da çətinləşir. Eyni zamanda insanın ağlı və zəkası heç nə olur. Ağıla və zəkaya qiymət verilmir. Ağıllı və zəkalı adamlar isə süniləşməyi və öz təbiətlərindən uzaqlaşmağı bacarmırlar.

***

İnsanın həyatı yola çıxan, səfərə çıxan bir insanın taleyinə bənzəyir. Səfərdə nələr baş verəcək, bunu səfərə gedən bilmir. Eləcə də insanın həyatında baş verəcəkləri insan bilmir. Arabir olub keçənləri xatırlayır və ömrünün sonuna qədər bu cür yaşayır.

***

Dünyada qəlbində eşq olmayan insan yoxdur. Ancaq elələri var ki, bunu çoxdan unudub.

***

Bəzi vəzifəli adamlar kabinetindən həyatı öz istədiyi kimi görür. Bəzən bomboz səhralara yaşıllıqlar kimi baxır, bəzən isə yaşıllıqlara bomboz səhralar kimi baxır. Vay o gündən ki, onun bu baxışlarına yaşıllıqlar tuş gəlsin. Axı o yaşılı və yaşıllığı yaşıl və yaşıllıq kimi görməyəcəkdir.

***

İnsanın qəlbi bağlı bir otaqdır. Heç kəs bilmir ki, orada nə baş verir.

***

Bəzən bir ağılsız səni öz iradəsinə tabe etdirir. Bu zaman doğru olmayanı başa düşsən də, heç nə edə bilmirsən.

***

İnsanın başqasına ehtiyacı olanda bir az uşaqlaşır. Axı uşağın özü geyinib-soyuna bilmir. Uşağın məsləhətə ehtiyacı olur. Uşağın gücü çatmayanda gücsüz olur. Uşaq zərif və zəif olur.

***

Sənə mehribançılıq göstərənlər sənə olan mükafat deyil. Mehribançılıq göstərən adama olan mükafatdır.

***

Bu dünyada hərəyə bir şey lazımdır: kimiyə gündüz, kimiyə gecə, kimiyə məğrurluq, kimiyə nə isə...

***

Bu dünyada oxunmalı, öyrənilməli, yazılmalı çoxlu kitablar var. Ancaq onları oxumağa, öyrənməyə, yazmağa vaxt çatmır.

***

Başqalarından fərqli düşünənləri yalnız fərqli düşünənlər, fərqli düşünməyi bacaranlar başa düşür.

***

Qulağı ilə yaşayan, qulağı ilə idarə edən adamlar var. Onlarda hissiyyat, duyğu, ürək çırpıntıları arxa plana keçir. Onlar qulaqları ilə eşitdiklərini mütləq kimi qəbul edirlər. Bu adamların faciəsi də bundadır. Ona görə ki, onların qulaqlarına deyilən sözlərin, fikirlərin hamısı düz

olmur. Ətrafdakılar bilir ki, o qulağı ilə yaşayır. Ona görə də onun qulağını yalan-palanla, böhtanla doldururlar.

***

Şeytanın gözü hər bir insana doğru yönəlibdir. Odur ki, şeytanın gözündən yayınmaq da bir bacarıqdır.

***

Uşaqlıq, yeniyetməlik, gənclik, qocalıq, ahıllıq insana verilən bir hədiyyədir. Bunların hər biri insanı xahiş etmədən tapır. İnsanlar isə bu tapıntını yaşamalarına görə fərqlənirlər. Ancaq bu tapıntıları da bir-birindən fərqləndirmək olur. Məsələn, uşaqlıq dövründən sonrakıları insanlar qazanırlar. Bəziləri isə uşaqlıq dövründən sonrakıları qazana bilmirlər. Əslində qocalıq, ahıllıq insanın sanki alın təri ilə olan qazancıdır. Elələri var ki, heç qoca, ahıl yaşına gəlib çatmırlar.

***

Mən varam deyənlərdən qorxmaq lazım deyil. Onlara yaxınlaşmaq, onların gücünü və özünü yoxlamaq lazımdır.

***

Yazıq adam təsəvvürünü yaradanlara göz qoymaq, onları nəzərdə saxlayıb hər şeyi yəqinləşdirməyi unutmaq olmaz. Əks təqdirdə aldanmış olarıq.

***

Uşağa ad qoyanda nəzərə almaq lazımıdır ki, bir dəfə ad qoyulur. Ad nəcib olmalıdır. İnsanın bütün həyatı, taleyi bəzən bundan asılı olur. Elə ad qoymaq lazımdır ki, gələcəkdə həmin adın əzabını çəkməsinlər, acımasınlar. Yaxşı ad torpağa səpilmiş yaxşı toxum kimidir.

***

Uşaq barədə düşünənlər və onun qeydinə qalanlar Allaha şükür edənlərdir. Bəzən öz itinin, pişiyinin qayğısına qalan adamlar heç bir insanın qayğısına qalmırlar.

***

Heç kəsin əzab çəkməyə ehtiyacı yoxdur. Ancaq ehtiyacı olmayan bu işə bəzən insanlar məhkum olurlar.

***

Yaşadığımız bu dünya və həyat bizim üçün qabaqcadan hazırlanır. Ona görə də bu dünyada və həyatda hər şeyi hazır görürük. Gözümüz nəyi görürsə, onlar bizdən qabaq mövcud olan həqiqəti təsdiq edir.

***

İnsan bütün ömrü boyu öz həyat və fəaliyyəti ilə nəyisə axtarır. Ancaq kimi axtarır, nəyi axtarır heç özü də bilmir.

***

Səni heç nə maraqlandırmırsa, onda ya yalqızsan, ya da dincliyə aludə olmusan.

***

“Lap az qalıb...” “Lap az qalıb...” demək təsəllidən başqa bir şey deyildir.

***

Mən sənin kimi düşünmək istəmirəmsə, deməli, nə isə var...

***

Dayan, hövsələn olsun, sənə də növbə çatacaq. Axı bu dünya bir pəncərədir.

***

Hər bir insan öz haqqını istəyir. Bu haqqı nə vaxt verəcəklər?! Kim verəcək?!

***

Bəzən qorxaqlar hücum etməyi son şansları kimi seçirlər.

*18.05.2015*

# Mən - biz, sən- siz, o - onlar barədə deyimlərim – IV yazı

Kişi ilə qadının bir fərqi də ondadır ki, kişilər ovçudur, qadınlar isə ovdur. Ovçunun ovuna nə düşəcəyini ovçu bilmir. Eyni zamanda ov da bilmir ki, hansı ovçunun ovu olacaq. Bəzən ovçunun da, ovun da bəxti gətirir. Bəzən isə heç birinin bəxti gətirmir. Bəzən isə bunlardan birinin bəxti gətirir, o birinin isə bəxti gətirmir.

***

Allah hər bir kəsə bir qismət, tale, alın yazısı veribdir. Birinə vəzifə, birinə pul, birinə istedad, ağıl və s. Doğru deyiblər ki, Allahın işinə qarışmaq olmaz. Ancaq Allahın işinə qarışanlar da olur. Görürsən ki, birdən bir istedadlı adamın yolunu bağlayırlar. Görürsən ki, birdən bir ağıllı, işgüzar adamın fəaliyyətini görmək istəmirlər. Bununla da Allahın əlehinə gedirlər. Axı Allah onları yaradıb ki, istedadından, ağlından, işgüzarlığından cəmiyyətin xeyrinə istifadə olunsun. Belə olduğundan Allah da tez-gec istedadlı, ağıllı, işgüzar adamların yolunu kəsənlərin cəzasını verməli olur. Görünür ki, beləlləri cəzadan qorxmur.

***

Şər qarışanda küçənin, bazarın, ağacın, gülün də rəngi qarışır.

***

İnsanlar bir yerə yığışmalarının səbəbini bilirlər, ancaq səbəblərin mahiyyətinə, dərininə varmırlar.

***

Kişi getdiyi yerdə, durub-oturduğu yerdə kişi olmalıdır. Adam var ki, onu evə buraxmaq olmaz, çünki kişi deyil. Adam var ki, onunla çörək yemək olmaz, çünki kişi deyil. Adam var ki, ona ürək sözünü demək olmaz, çünki kişi deyil. Kişi olmaq Allahın insana verdiyi ən böyük hədiyyədir.

***

Peşəkar aktyorlar, yəni əsl aktyorlar yalnız səhnədə oynayırlar. Onlar həyatda oynamağı bacarmırlar.

***

Dünyanın axırı necə olacaq sualına cavablardan biri belədir: Dünya özü öz başına iş açacaq. Digər bir cavab: Dünya pis günə qalacaq. Başqa bir cavab: Dünya hər şeyi korlayacaq. Ayrı bir cavab: Dünyanın sonunu axıra qalan biləcək.

***

Dünyada çörək qədər şirin nemət yoxdur. Çörəyin dadını heç nə verə bilməz.

***

İnsan ən böyük dövlətdir. Ancaq insan bu dövlətin qədrini bilirmi?!

***

Sevgisi olan ürək cənnətdir. Sevgisi olmayan ürək cəhənnəmdir.

***

Hökmlər zəifdirsə, dövlət tez dağıla bilər.

***

Sevgi hisslərin göy qurşağıdır.

***

Reallıqla arzular arasında fərq var.

***

Hər parıldayan şey qızıl deyil.

***

Güzgü çox işıq əks etdirir, ancaq onun qaranlıq tərəfi də var.

***

Ən gözəl söz, ən zərif ifadə insan qəlbində başqalarına olan sevgidir.

***

Mən həyatda həmişə ürəklə yaşamışam. Yəni, ürək çırpıntılarım olmayan yerdə mən yoxam. Ürək çırpıntılarım olmayanda mən yaşamayacağam. Yəni, fiziki cəhətdən mövcud olmayacağam.

***

Adamların bir qismi həyata öz maraq dairəsindən baxır. Onlar insanlara da belə yanaşırlar. İnsanları maraqları üzərində seçirlər. Kim onların maddi maraqlarını təmin etmirsə, həmin adamlara onların münasibəti dəyişir. Belə adamların yaşamasında qayda-qanun, nizam-intizam – hər şey onların maraqlarına tabe olmalıdır. Bu cür adamlar az deyil...

***

Uğursuzluq uğura aparan ilk pillədir.

***

Günəş doğanda və batanda çox mənalı olur.

***

İnsanlar bəzən xoşbəxt olduqlarını bilmirlər və xoşbəxtliyin də qədrini bilmirlər.

***

Ən yaxşı dil öyrənmək şirin dili öyrənməkdir.

***

Bir maşının arxasına yazılmışdı: Düz sür, yüz yaşa.

***

Əsl insan həyata teatr tamaşası kimi baxıb aktyorluq etmir. Əsl aktyorlar da yalnız tamaşada, səhnədə aktyorluq edirlər. Onlar həyatda aktyor olmurlar.

***

Bəzən qəlbinə, ruhuna yaxın olan hər bir insan sənə qohumlarından da yaxın olur. Hətta sən onu özünə arxa hesab edirsən. Onları itirəndə də arxanı itirmiş olursan.

***

Vaxt pul deyil, ancaq o da pul kimi çatmır.

***

İnsanlar öz səviyyəsində olan adamları tapmadıqda tənhalığa çəkilirlər, tənha qalırlar. Ona görə də istedadlı adamlar çox vaxt tək-tənha olurlar.

***

Öz sənətini, peşəsini yaxşı bilən hər kəsin işi bəstəkar işinə bənzəyir. Bəstəkar mahnı bəslədiyi kimi, yaxşı

peşəkarlar da peşəkarlıqları ilə fərqlənirlər. Onlar peşəkarlıqları ilə öz fəaliyyətlərini bəstələyir, cilalayır, normaya, qaydaya salırlar. Məsələn, peşəkar müəllim də belədir, rəssam da belədir, aktyor da belədir. Eləcə də digər peşə, sənət sahibləri.

***

Anadan olan gündən yola çıxırıq. Yolumuz harayadır, ömür yolumuz harada qurtarır, nə ilə qarşılaşır – onu yolda görəcəyik.

***

Bir özünüz fikirləşin: getdiyiniz yol ayaqyalın olsa yaxşıdır, yoxsa ayaqqabılı.

***

Yaxşı adamlar əlinə fürsət düşən kimi yaxşılıq edirlər. Pis adamlar isə əlinə fürsət düşən kimi pislik edirlər.

***

Dərk etmədiyi, sonunu görə bilmədiyi bir işin arxasınca gedənlər bədbəxtdirlər.

***

Yaxşı adamlar onlardır ki, özü üçün də, başqası üçün də eyni mövqedə olurlar.

***

İnsan xoşbəxtliyi səbirsizliklə gözləyir. Amma bədbəxtlik qəfildən gəlir.

***

Qorxaq və yaltaq adamlar başqalarından gözlərini çəkmir, onlara nəzarət edir, çalışırlar ki, pis niyyətlərini həyata keçirsinlər.

***

İnsanların yuxusunu ərşə çəkənlər, insanları qayğılandıranlar, insanları problemlərlə üz-üzə qoyanlar insanların öz aralarında yaşayan adamlardır.

***

İnsanda yaşamaq həvəsi varsa, deməli, onu qidalandıran nə isə var...

***

Uşaqlıq da, yeniyetməlik də, gənclik də, cavanlıq da, qocalıq da, ahıllıq da insana bir hədiyyədir.

***

Elə insanlar var ki, onlar ömürlərinin sonuna qədər təminat əldə edirlər. Ancaq bu təminata uyğun ağılları və vətəndaşlıqları olmur.

***

Pis adamlardan gözünü çək, onlardan yaxşı heç nə gözləmə.

***

Ehtiyatlı ol, şeytan hər an yanımızda, ətrafımızda və içimizdədir.

***

Ən böyük cəza insanın ömrü boyu cəza çəkməsidir.

***

Kamil adamlar elədiklərini, etmək istədiklərini danışmaqla başqalarını yormurlar. Kamil olmayan insanlar isə elədiklərini az qala başqalarının gözlərinə soxurlar, danışırlar, çox danışırlar, başqalarını yorurlar. Danışıqları ilə utanmadan “mən”, “mən” deyirlər.

***

Kimsə gözləyirsə, ona baş çəksinlər, onu yoxlasınlar, o adam uduzur. Kimsə baş çəkirsə, yoxlayırsa, qabağa düşürsə, o adam udur.

***

İnsan ölür... Bəlkə elə bu, dünyadan baş götürüb qaçmaqdır.

***

Havası təmiz olmayan mühit havası təmiz olmayan yerə bənzəyir. Oradan təmiz havaya çıxmaq lazımdır.

***

Məncə, həyat iki yerdə daha çox qaynayır: avtovağzalda və aeroportda.

***

Uzun müddət dayanıb dənizə baxmaq adamın yadına yaşamağı salır. Bəlkə də, yaşamağın nə olduğunu onda daha çox anlamaq olur.

***

Cavan adamların bu dünyadan tez köçməsinin səbəbi odur ki, cəhənnəmdə yer yoxdur. Cənnət isə boşdur. Cənnəti doldurmaq üçün cavanlar – günahsızlar dünyadan tez köçür. Belə olanda cənnətdəki boşluq da azalır. Hər halda bunların hamısı Allahın işidir. Onun işinə qarışmaq olmaz. Ancaq günahkarlar o qədər çoxalıb ki, cəhənnəmdə növbə yaranıb. Ona görə də cənnətin qapısı açılıb, məhz günahsızlar üçün, gənclər, cavanlar üçün...

***

Dağın da dağ boyda dərdi var.

***

Hamı dağa söykənir, dağ kimə söykənsin?

***

Hər əsən külək palıdı yerindən tərpədə bilməz.

***

Həyatda mübaliğəli görünən çoxlu məqamlar var. Məsələn, həkim həyatın gözləri üzərində cərrahiyyə əməliyyatı aparmaq istəyindədirsə, bu, mübaliğədir, həddindən artıq mübaliğədir.

***

Həyatın özü qədər güclü sənət əsəri yoxdur. Bizim hər birimiz nəyi görürüksə, nəyə baxırıqsa, nə ilə üz-üzə qalırıqsa, onların hər biri həyatdakı sənət əsəridir. Həm də çox təbii və inandırıcı sənət əsəridir.

*22.05.2015*

# Mən - biz, sən - siz, o - onlar barədə deyimlərim – V yazı

Tanrı, adətən, müəllimə iki cür tələbə göndərir. Birinci qrup tələbələr sayca çox olurlar, onların elə bir istedadı və qabiliyyəti olmur. Belələrinə müəllimlərinin də rəğbəti olmur. Ancaq ikinci qisim tələbələrin sayı çox az olur. Onlarda istedad və qabiliyyət olur. Nə isə etmək, qurmaq, yaratmaq istəyində, ehtirasında olurlar. Belələrini – ikinciləri yaxşı öyrətmək, başa salmaq lazımdır. Onların yolunda əziyyət çəkməyə dəyər.

***

Elmə marağı olmayanlar sənət öyrənsələr daha yaxşı olar. Onlar vaxtlarını itirərək elm arxasınca getməkdənsə, həmin vaxtı sənət öyrənməyə həsr etsələr çox şey əldə edərlər. Həyat onu da təsdiq edir ki, yalançı elm adamı olmaqdansa, yaxşı sənətkar olmaq lazımdır. Yalançı elm adamı ilə müqayisədə yaxşı sənətkarın cəmiyyətdə hörməti daha çox olur.

***

Qabiliyyəti, gücü çatmayan insanın bir işin arxasınca getməsi özü bilmədən lovğalıq etməkdir. Onlar

unudurlar ki, qabiliyyət və gücləri onları yarıyolda qoyacaq.

***

Hər bir kəsin Allahdan müəyyən istəkləri və diləkləri var. Onların sırasında bunlar xüsusi yer almalıdır: Allahım, mənə güc ver! Allahım, mənə dinclik ver! Allahım, mənə bacarıq ver! Allahım, mənə yorulmazlıq ver! Allahım, mənə bilmək qabiliyyəti ver!

***

Adam var ki, onun nə gəncliyi, nə də qocalığı bir şey deyil. Ancaq yeməkdən sonra yatmaq arzusunda olanlar kimi hər ikisini arzulayır.

***

Əsas odur ki, Allahın dərgahında yüksək səviyyədə olasan. Bu barədə Nobel mükafatı laureatı Tomas Eliotun “Kilsədə qətl” dramında belə bir yer var:

“Sən şəhidlik yolunu seç, sən dünyada özünü
Ən alçaq səviyyədə hiss et ki,
Allahın dərgahında ən ucada durasan”.

***

Bəzi adamların ömrünə payız və qış çox tez gəlir.

***

İnsanlar eyni pəncərədən bayıra baxsalar da, müxtəlif mənzərələri görürlər. Hətta eyni mənzərəni gördükdə də qənaətləri müxtəlif olur.

***

Biz nərdivanla yuxarı çıxdıqda bəzən fikirləşmirik ki, həmin nərdivanla da aşağı düşəcəyik.

***

Bizi nə gözlədiyini bilmirik.

***

Maraqlıdır ki, gündüzü də, gecəni də Allah xəlq edibdir. Ancaq biz gündüzü sevirik. Gecədən xoflanırıq, qorxuruq. Sevdiyimiz gündüz bizi yorur. Biz gündüz işləyirik, fəaliyyətdə oluruq, özümüzü yoruruq. Amma gecə dincəlirik, bədənimiz istirahət edir. Bəs onda gecəni niyə sevmirik, gecədən niyə xoflanırıq?!

***

Gənc nəsil kef məclisini çox xoşlayır. Bunu daha çox gənc olmayanlar deyir. Axı onlar gənc olmadıqları üçün gənclərdən, onların arzu və istəklərindən uzaqdırlar.

***

Biz həmişə gələcəyə doğru gedirik. Axı gələcək tikilir. Özü də keçmiş üstündə tikilir. Keçmiş üstündə tikilməyən gələcək bic olur.

***

Sən bilsəydin əsən küləklər haralardan keçib gəlir, onun qədrini yaxşı anlayardın.

***

Şimal ölkələrinə bahar gec gəldiyi kimi, bədbəxt adamların taleyinə də xoşbəxtlik gec gəlir.

***

Bizi bu gün bir nəfər başa düşən varsa, ona da şükür etməliyik. Ona görə ki, sabah neçə nəfərin başa düşəcəyini bilmirik.

***

İnsanın xoşbəxt ola bilməməsinin səbəbləri çoxdur: biri özündədir, biri özgəsindədir, biri günahlarındadır, biri dəcəlliyindədir, biri qismətindədir və s.

***

Görəsən ölülər geri qayıtmaq istəyirlərmi?!

***

İnsan ömrü boyu saysız-hesabsız, əhəmiyyətsiz qorxularla qarşılaşır.

***

Nə yaxşı ki, insan gün ərzində bir neçə dəqiqə özü ilə tək qala bilir.

***

Bədbəxtlik insanların yuxusuna haram qatır. Görəsən, bədbəxtlər necə yatır?!

***

Dünyadakı bütün adamların səhvlərini qanun da qaydasına qoya bilmir.

***

Şəxsi məsələlər qəzetlərə yol tapırsa, ictimailəşirsə, deməli, şəxsiyyət deyilən anlayış dəyərdən düşür.

***

Mənim qapım ADAM olan bəndəyə açıqdır. Sözün həqiqi mənasında ADAM olan bəndəyə.

***

Məhəbbət bir açardır. O, qarşı tərəfə düşüb onu aça biləcəkmi?!

***

Bəla yavaş-yavaş gəlir. Bəla gəlir ki, işini sona yetirsin. O nə tələsir, nə də ləngiyir. O heç öz yolunu da səhv salmır. Onu yolundan döndərmək də mümkün deyildir. O, güclüdür.

***

Xəyal şirindir. İnsan xəyalda olduqda özünü xoşbəxt hiss edir.

***

Allah insana hər cür şans verir. Lakin bu şansdan istifadə edə bilməyənlər elə bu dünyada cəhənnəmin içində olurlar. Bu dünyada cəhənnəmin içində olanlar verilən şansdan istifadə etməyi bacarmayanlardır. Onlar heç bir iş görməyə qadir olmurlar.

***

Görəsən, cahil bilirmi ki, o, cahildir? Riyakar bilirmi ki, o, riyakardır? Yalançı bilirmi ki, o, yalançıdır? Yaltaq bilirmi ki, o, yaltaqdır? Bilmədiklərinə görə də öz əməllərindən əl çəkmirlər.

***

Bəzən elə faktlar var ki, onlar heç kəsə lazım deyil. Belə faktlar ölü faktlardır.

***

Mən düşdüyüm mühitin aurasını hiss edirəm. Hətta oradakı pis auralı bir adam olsa belə, onu hiss edirəm. Dərs dediyim auditoriyada bunu daha tez duyuram. Bir süfrə arxasında əyləşən zaman süfrə arxasındakı mənfi auraları hiss edirəm. Avtobusda yol gedərkən içəridəki mənfi auraları hiss edirəm. Hissiyyatım məni aldatmır. Hissiyyatımın verdiyi əzablar məni yorsa da, hissiyyatım məni aldatmır. Bu hissiyyatı mənə hədiyyə edən Allahıma borcluyam.

***

Təpəgöz Oğuz boyunun içərisində yetişdi və bu boya qənim kəsildi. Bəzən öz aramızda və içərimizdə təpəgözlər yetişdiririk. Onlar bir müddətdən sonra bizim hər birimizə qənim kəsilirlər, bizim hər birimizə zülm edirlər.

***

İnsan həm də özü olanda xoşbəxt olur. Elələri var ki, ömrü boyu özü ola bilmir. Bəlkə bir an, bir dəqiqə, bir saat, bir gün özü ola bilmir. Çoxlu uğurları olur, çoxlu mərtəbələrə yüksəlir. Ancaq özü ola bilmir.

***

Göydəki ulduzlar yerdən bizə çox balaca görünür. Əslində isə onlar balaca deyildir. Ulduzlar bizdən o qədər uzaqdır ki, biz onları uzaqdan balaca görürük.

***

Professor Əbdüləzəl Dəmirçizadə Azərbaycan dilinin özüdür.

*30.05.2015*

# Mən- biz, sən- siz, o- onlar barədə deyimlərim – VI yazı

Ləyaqətdən uzaq olan bir adam vəzifəli bir şəxsin otağına girir və qəbulda dayanan başqa birisini o ki var pisləyir. Sonra otaqdan çıxarkən qəbul otağında pislədiyi adama üzünü tutub deyir ki, səni içəridə tərifləmişəm.

*16.IV.2007-ci il*

***

Kim olursa-olsun, dost ya düşmən, insan gərək öz ləyaqətini itirməyə.

*17.IV. 2007-ci il*

***

Sel gələndə çör-çöp gətirir. Sonra isə iri kötükləri.

***

İndi insanlar bir-birinə çoxlu pul, sonra cansağlığı arzulayırlar. Halbuki, cansağlığı puldan əvvəldir.

*17.IV.2007-ci il*

***

Qoçaq olan yalnız öküzə qoşulan alət kotandır.

*17.IV.2007-ci il*

***

Söz dodaqdan kəpənək kimi uçmalıdır. Söz dodaqdan qırılıb tökülməməlidir.

*18.IV.2007-ci il*

***

Keçmişdə uşaqlar acarkən özləri yemək istəyirdilər. İndi isə uşaqların arxasınca gəzərək zorla, qaşıqla yemək yedirdirlər.

*18.IV.2007-ci il*

***

İt üçün leş, kişi üçün vəzifə əbədi deyil.

*20.IV. 2007-ci il*

***

Belə bir məsəl var: "İnsanı geyiminə görə qəbul et, ağlına görə yola sal". Mən bu qənaətə gəldim ki, insanı qəbul et, qabiliyyətinə, ağılına görə yola sal.

*21.IV.2007-ci il*

***

İnsanların böyük əksəriyyəti öz mayasına turş demir. Bunun səbəbi nədir?!

*22.IV.2007-ci il*

***

Bəzi insanlar layiq olduğundan daha çox iddialı olurlar. İstəkləri, arzuları haqqı, ədaləti üstələyir... Az

qala hər bir kəsi özlərinə borclu sayırlar. Görünür ki, insan özünü hələ də tam şəkildə dərk etmir. Dərketmənin zəifliyi, qeyri-obyektivliyi insanı layiq olduğundan artıq iddialı olmağa gətirib çıxarır.

*22.IV.2007-ci il*

***

Görkəmli yazıçı Əlibala Hacızadənin belə bir sözü var: "Padşahların sözü sözlərin padşahıdır".

*22.IV.2007-ci il*

***

İki şey insanı hörmətdən salar: biri sözü vaxtı gələndə deməmək, ikincisi, sözü vaxtı keçəndən sonra demək.

*23.IV.2007-ci il*

***

Bəxtiyar Vahabzadə yaradıcılığı həm də ona görə sevilir ki, onun əsərlərində məntiq, fəlsəfə, idrak Azərbaycan dilinin zənginlikləri (dil, üslub, ifadə formaları) ilə birləşir.

*30.IV.2007-ci il*

***

"Bəxtəvər" bəxtim də məndən üz döndəribdir.

*4 may 2007-ci il*

***

Tələbələrimin birinin dəftərində (dəftərin üz qabığının içərisində) belə bir cümlə yazılmışdı: "Sən doğulanda yağış yağırdı, yağış deyildi, ulduzların göz yaşları idi, çünki onların ən gözəli yerə enmişdi".

*8 may 2007-ci il*

***

Vaxtilə tələbəm olmuş bir türkdən bayramların birində telefonuma belə bir məlumat göndərilmişdi: "Özəl insanlar özəl günlərdə xatırlanır. Gözəl diləklər gözəl insanlara yollanılır. Bütün gözəlliklər Sizin olsun, sevincləriniz bir-birinə qarışsın. Sevilən Siz, sevən Siz, Sevindirən Siz olasınız".

*9 may 2007-ci il*

***

Pis adamlar şeytanın övladlarıdır. Pis adamlar şeytanın törəmələridir. Pis adamlardan pislikdən başqa heç nə gözləmək olmaz. Pis adamlar heç zaman öz pisliklərindən əl çəkməzlər. Pis adamlar yaxşı işlərə qol qoymazlar. Pis adamlar haqq - ədalətdən, insafdan uzaqda olarlar.

*12 may 2007-ci il*

***

Yazıçı yaşadığı torpağın bir qarışından ömrü boyu yazsa, bu işə ömrü çatmaz. Bir qarış torpaqdan yazmağa

bir ömür bəs eləməz. Daha doğrusu, bir qarış torpaqdan bütün ömrün boyu yazsan da, axıra qədər yazıb qurtarmaq olmaz.

*18 may 2007-ci il*

***

Eqoizmdən xilas olmağın yeganə yolu başqaları üçün yaşaya bilməkdir...

***

Dünyanın ən yaxşı yeri quyunun dibidir. Çünki, oradan daha yüksəklərə qalxa bilirik.

*8 avqust 2007-ci il*

***

Lənkəranın Həftəno (Yeddi bulaq) kəndində VI sinifdə oxuyan bir qıza sual verdim ki, həyətinizdə hürən bu itlər qonşuları narahat edirmi? O isə cavab verdi ki, itlərin hürməsinə görə qonşular arasında narazılıq olmur. İnsanlar bir-biri ilə yola getmir, bir-birini başa düşmür. İnsanları itlər yox, insanların özü incidir.

*8 avqust 2007-ci il*

***

Xalq şairi Fikrət Qoca ilə olan görüşdə o, belə bir söz dedi: "Hər bir kəs dekan ola bilər, amma hər bir kəs Buludxan müəllim – Buludxan Xəlilov ola bilməz".

*22 oktyabr 2007-ci il*

***

Yuva yıxanın yuvası olmaz.

*09.03.2008-ci il*

***

Qızıl sahibinin deyil, şeytanındır.

***

Var-dövlət, qızıl şeytanın kirayəşinidir.

*25.03.2008-ci il*

***

Ana yanan od, ata yandan keçən (yan gəzən), qardaş qara daş (möhkəm daş), bacı böyük acıdır.

*26.03.2008-ci il*

***

Pessimist ən yaxşı informasiyaya malik optimistdir.

*31.08.2008-ci il*

***

Böyük adamların ölümü vaxtsız ölümdür.

*28.09.2008-ci il*

***

Daş atmaq adamı hörmətdən salar.

*29.09.2008-ci il*

***

Dərdsiz adam yoxdur, arsız adam var.

*05.10.2008-ci il*

***

Amerika Prezidenti Obama "Orucluq"da iftar süfrəsindəki nitqində deyir:

"Çayların, gölməçələrin, göllərin və axınların hərəsinin öz adı olsa da, onlar hamısı sudan ibarətdir. Din də eynilə bunun kimidir – onların hamısını inam birləşdirir".

*02.09.2009-cu il*

***

Dilimizdə belə bir misal var: "Sənə mələməmiş quzu kəsim". Əslində bu deyimin izahına ehtiyac vardır. Bu, ona görə belə deyilir ki, mələməmiş (körpə) quzunun dərisindən daha yaxşı papaq tikilir və belə quzunun 11-nin dərisindən bir papaq tikmək olur. Papaq milli simvollardan biri olduğu üçün mələməmiş quzunun dərisindən papağın tikilməsi daha yüksək qiymətləndirilmişdir. Və "Sənə mələməmiş quzu kəsim" deyimi də təsadüfi deyim olmamışdır.

***

Türk yazarlarından biri tanınmış bir yəhudidən soruşur ki, siz yəhudilər bütün sahələrdə niyə tanınırsınız? O deyir ki, biz ən müqəddəs kitablarımızı oxuyur, öyrənirik. Öz dilimizi öyrənməklə başqa bir dili də öyrənirik.

Yaxşı olar ki, biz də övladlarımıza müqəddəs kitablarımızı, nağıllarımızı, dastanlarımızı oxudaq və öyrədək. Onlar buradan öyrəndikləri biliklər əsasında sonradan dünyaya baş vursunlar. Eyni zamanda doğma ana dilimizi yaxşı öyrətdikdən sonra dünya dillərindən ən nüfuzlu olanının birini öyrədək.

*28.XII.2009-cu il*

***

Papağı arxası üstə qoymaq olmaz. Bu o deməkdir ki, onda milləti arxası üstə qoyursan. Papağı üzü üstə də qoymaq olmaz. Belə olanda milləti üzü üstə qoyursan. Papaq milli simvol olduğu üçün ona hörmət və ehtiramla yanaşmaq lazımdır.

*28.XII.2009-cu il*

***

Belə bir məsəl var: Oğlum olsa, adını qoyaram Nəzərəli. Mənə baxsa da, baxmasa da nə zərəri. Yenə də oğlumdur.

*15.05.2010-cu il*

***

Ağıla paxıllıq yoxdur. Belə ki, hər bir kəs özünü başqasından ağıllı sayır.

Sual olunur: İnsanlar nə üçün bir-birinin ağılına paxıllıq etmir, amma onların bir-birinə başqa cür paxıllıqları olur?!

*22.05.2010-cu il*

***

Müdriklərdən birinin belə bir deyimi var: Bütləri Tanrı yıxır, heykəlləri isə insan. Bütlər yıxılanda bəşər üçün yeni mərhələ başlayır. Heykəllər yıxılanda cəmiyyət ardı-arası kəsilməyən faciələr silsiləsinə qədəm qoyur. Düşən heykəllərin yerində başqaları otuzdurulur.

*05.09.2010-cu il*

***

Dəyirman daşı buğdanı əzir, üyüdür, zamansa insanları.

*07.09.2010-cu il*

***

Ölümdən heç kəs qaça bilməz.

*08.09.2010-cu il*

***

Həmişə yağış göydən yerə yağır. Görəsən, bir gün yağış yerdən göyə yağacaqmı?!

*09.09.2010-cu il*

***

Vaxtından əvvəl qınından çıxan qılınc öz sahibinə ziyan gətirə bilər.

*09.09.2010-cu il*

***

Çörək sınağına çəkilmək ən böyük cəzadır.

*09.09.2010-cu il*

***

Zillətin son mərhələsindən izzətin yüksək mərhələsinə qalxmaq hər kəsin işi deyildir. Zillət də, izzət də hər bir kəsin haqqıdır.

*09.09.2010-cu il*

***

Hər bir bəlanın bir hikməti var.

***

Ay həmişə bulud arxasında qalmır ki?!

***

Aşiqlər həmişə intizarda olur.

***

Evin küncündə oturmaq aşiqə yaraşmaz.

***

Saray kimi ev-eşik bəzən zindan kimi qaranlıq olur.

***

Bir yalanı çox təkrarlamaq bəzən yalan deyənin özünün də ona inanmasına səbəb olur.

***

Zirvədən dərəyə düşənlərin nəvazişə ehtiyacı var.

***

Məbudumu istəyirdim. İndi onun hüzurundayam.

***

Biz hər şeyə görə Allaha borcluyuq.

***

Hər bir şey barəsində Allahla razı-niyaz etmək lazımdır.

***

İlahi məhəbbətin mehi həmişə insana tərəf axmır.

***

Uca yaradana eşq olduğu halda, yerdəki eşqə ehtiyac varmı?!

***

Eşq nələr eləmir?!

***

Allah istəyən kəsə heç kim heç nə edə bilməz.

***

Dan yeri sökülən vaxt edilən dualar qəbul olunur.

***

Görəsən mələklər hansı anda göz yaşı tökürlər?!

***

Allahın seçdiyi adamla heç kəs mübarizə apara bilməz.

***

Deməli, sən də hicran çəkmisən?!

***

Ayrılıq qəmi acıdır?

***

Amma vüsalın şirinliyi ayrılığın acısını unutdurur.

***

Anasına hürən küçük canavarlara yem olar.

***

Biz hamımız Allahdanıq və ona tərəf qayıdacağıq.

***

Ölümdən heç kəs qaça bilməz. Hətta övliyalar və peyğəmbərlər də...

***

Ölümlə həyat Allahın əlindədir.

*05.06.2015*

# Mən-biz, sən-siz, o-onlar barədə deyimlərim – VII yazı

Allah heç bir bəndəsinin pisliyini istəmir. Amma bəzi bəndələr şeytanla əlbir olub yollarından çıxırlar.

***

Uşaqları ən yaxşı qoruyan valideynlərdir. Xüsusən də körpə uşaqları.

***

Bəzən şeytana güc çatmır.

***

Allahdan başqasına bel bağlayan çarəsiz qalar.

***

Qaranlıqda insanın çirkin üzü görünməz.

*09.09.2010-cu il*

***

Poeziya sözlərin riyaziyyatıdır, riyaziyyat isə rəqəmlərin poeziyasıdır. Düz deyiblər ki, qəlbi şair olmayan riyaziyyatçılar yaxşı riyaziyyatçı ola bilməz.

*17.04.2011-ci il*

***

Niyə insanlar güclülərə xəyanət edirlər?
Niyə insanlar güclü adamları qısqanırlar?
Niyə insanlar güclü adamların əl-ayağına dolaşırlar?
Niyə insanlar güclü adamlara qənim kəsilirlər?
Niyə insanlar qorxaqlara, yaltaqlara meydan verirlər?

*29.01.2012-ci il*

***

Bütün yeraltı, yerüstü sərvətlər nə vaxtsa tükənəcəkdir. Ancaq dil elə zəngin sərvətdir ki, heç vaxt tükənmir.

***

Söz və ağıl...
Söz və səs...

***

Övlad Allahın valideynə verdiyi nə mükafatdır, nə müjdədir. Bir sınaqdır.

***

İstedadlı insanların ömür-gün yoldaşı olmaq da istedaddır.

***

İnsan səbrin hesabına hər şeyi udur.

***

Filankəs xanım kişi kimidir demək onu söyləməyə əsas verir ki, deməli, kişilər öz funksiyasını yerinə yetirə bilmir.

*04.XI.2011-ci il*

***

"Durğu işarələri cümlədə nəfəslik rolunu oynayır". Xalq artisti Canəli Əkbərovla söhbətim zamanı bu fikri o söylədi.

*25.03.2013-cü il*

***

Bizim hər birimiz (yaradıcı insanlar) kitablardan çox öyrənmişik. Kitablar kitabxanada saxlanılır. Bizim (yaradıcı insanların) yazıb yaratdıqlarımız da (kitablar) kitabxanada qorunur. Deməli, kitabxana bizi həm mənəvi cəhətdən qidalandırır, həm də bizi əbədi yaşadır. Ona görə də hər bir yaradıcı adam kitabxanaya borcludur.

*31.01.2013-cü il*

***

Mirzə İbrahimovun belə bir sözü varmış: "Şərəfi şəkərə satan şərəfsizlər". Bu fikrin nə ilə bağlılığı belə olmuşdur: İranda seçki zamanı şəkərlə, şəkər verməklə insanları ələ almışlar.

*26.05.2013-cü il*

***

Rəvayətə görə, ömür paylanan zaman bütün canlılara eyni ömür – 40 illik ömür verilmişdir. İnsan isə ömrünün azlığından şikayət etmiş və nəticədə Allah onun 40 illik ömrünün üzərinə 40 il də artırmışdır. Allah artırdığı bu 40 ilin 20-ni eşşəyin, 20-ni isə itin ömründən kəsib insana vermişdir. Ona görə də insan həyatının müəyyən dövrünü (40-dan sonrakı) çox işləyir (məcazi mənada eşşək kimi işləyir), müəyyən dövrünü (60-dan sonrakı) çox deyingən olur (məcazi mənada it kimi hürür). Yəni, insan həm insana, həm eşşəyə, həm də itə aid olan ömür yaşayır...

*26.05.2013-cü il*

***

"Allah bildiyi məsləhətdir". "Allah bizi qarşıdakı daha qorxulu bəlalardan qorusun". Bu deyimlərin çoxlu izahı var. Bir izah da belədir: Bir gün çoban öz sürüsünü çayın kənarında otarırmış. Görür ki, çayda bir kəllə var. O kəlləyə üz tutub deyir ki, niyə bu günə qalmısan? Kəllə deyir ki, buna da şükür, Allah bilən məsləhətdir, Allah qarşıdakı bəlalardan qorusun. Günlərin bir günü çoban görür ki, həmin kəllə çayın kənarındakı bir qayaya dəyib və sınıq-sınıq olubdur. Çoban onda başa düşür ki, kəllə ona deyəndə ki, Allah qarşıdakı bəlalardan qorusun, bax onda bunu deyirmiş.

*26.05.2013-cü il*

***

Məqalələrim, kitablarım, çıxışlarım xoşuna gələn bir adam məni hər dəfə görəndə deyir ki, bu gün işim yaxşı olacaq. Hətta onu da deyir ki, necə edim ki, hər gün səni görüm, işim yaxşı getsin...

***

Ləyaqəti, böyüklüyü olmayan adamlar böyük işlər görə bilməzlər.

***

Mən pul deyiləm ki, hamı məni sevsin.

***

"Buqələmun" insan yaxşı insan ola bilməz.

***

Səhvini etiraf et, görək səni bağışlamaq olarmı?!

***

Məhəbbət suya, yağışa ehtiyacı olan cadar-cadar torpağa bənzəyir.

***

Məhəbbət əbədi hissdir.

***

İki nəfər bir-birilə torpaq üstündə döyüşürlər. Bir addım torpağın kimə məxsus olduğu barədə mübahisə

edirlər. Bir ağıllı adamdan soruşurlar ki, bu bir addım torpaq kimindir? Həmin ağıllı adam qulağını bir neçə dəqiqə torpağa söykəyir və sonra ayağa durur. Deyir ki, mən torpaqdan torpağın kimə məxsus olduğunu soruşdum. O isə dedi ki, torpaq üstündə döyüşənlər də, hər bir kəs də mənə məxsusdur. Torpaq üstündə döyüşənlər də, hər bir kəs də mənimdir.

*1.08.2013-cü il*

***

Yayın isti günlərindən biri idi. Avtobusla evə gedirdim. İsti olduğundan avtobusun qabaq qapısı açıq idi. Bir cavan qız avtobus dayanacaqlardan birinə yaxınlaşanda sürücüyə dedi ki, açın qapıları. Qız bu açıq qapının düz yanında dayanmışdı. Dayanacaqda düşmək istəyirdi. Elə bu zaman sürücü cavab verdi: “Neçə qapını açmaq lazımdır, sənə lazım olan qapı açıqdır”.

***

Gənclik açılmamış mücrüdür. Onu yalnız qocalar aça bilir.

*18.08.2013-cü il*

***

Yol ilə gedən yorulmaz. Doğrudan da, dağ ilə, dərə ilə, təpə ilə, daş-kəsəklə gedən tez yorulur.

15.09.2013-cü il

***

Ziyalı bir türk Azərbaycanda qonaqlıq zamanı icazə alıb ilk badəni qonaq olduğu evin sahibinin sağlığına içir. O qeyd edir ki, siz kökü qoruyub saxlamısınız. Bizdə (yəni Türkiyədə) hər hansı bir qonağı əksər vaxt evə aparmırlar. Ancaq siz bunları çox asanlıqla edirsiniz.

Hətta türk onu da qeyd edir ki, onun evində yorğan-döşək yükü olduğu halda, hələ indiyə qədər o yorğan-döşək yükü açılmamışdır. Ancaq Azərbaycanda hər kəsin evindəki yorğan-döşək yükü qonaq-qara üçün açılır. Türk onu da qeyd edir ki, Azərbaycanda kök qorunub saxlanılır. Bu cəhətdən Türkiyədə kök qorunmur.

*15.09.2013-cü il*

***

Daş olsaydım əriyərdim, torpaq idim dözdüm.

*15.09.2013-cü il*

***

Uşaq babasından soruşur ki, hamımız öləcəyik?! Babası deyir ki, "yox", sən ölməyəcəksən. Sən qocalana qədər elm o qədər inkişaf edəcəkdir ki, ölümün əlacı, dərmanı tapılacaq və sən əbədi yaşayacaqsan. Bu vaxt uşaq yenə də babasına sual verir:

– Baba, onda sən də ölməyəcəksən?

Babası cavab verir:

– Bala, mən çox qocalmışam, mənim vaxtımda həmin dərman olmayacaqdır.

*15.09.2013-cü il*

***

Baba öz nəvəsi ilə qəbristanlığın yanından keçirmiş. Bu zaman nəvənin gözü qəbir daşları üzərindəki şəkillərə zillənir. Başlayır babasına suallar verməyə:

– Baba, bu qəbirin üstündə niyə at şəkli var?

Baba deyir:

– Bala, bu qəbirdə uyuyan filankəs mehtər olub.

– Baba, bəs bu qəbrin üstündə niyə neft şəkli var?

– Bala, bu qəbirdə uyuyan neftçi olub.

– Baba, bəs bu qəbrin üstündə niyə balıq şəkli var?

– Bala, bu qəbirdə uyuyan balıqçı olub.

Çoxlu sayda bu suallardan sonra nəvə babasına sual verir ki, baba, bəs sən öləndə qəbrinin üstündə nə şəkli olacaq?! Baba deyir ki, bala, mən bağbanam. Qulluq etdiyim ağaclar mənə atamdan qalıbdır. Əgər mənim öz əkdiyim ağaclar bitsə və bar versə, mən öləndə qəbrimin üstündə ağac şəkli olacaq.

*16.09.2013-cü il*

***

Şəri cəzalandırmaq üçün yalan deyilirsə, o, həqiqətə çevrilir.

***

Dişi pələng çaqqala arvad ola bilməz.

*21.09.2013-cü il*

***

Yaxşı övlad ata-ananın başını yox, üzünü ağardır.

*29.09.2013-cü il*

***

İnsanın iki adı var: adam, insan

***

Balığın elə növü var ki, həm dişidir, həm də erkək. O, vaxtı çatanda kürüsünü tökür. Bir müddətdən sonra erkək kimi kürünü qidalandırır.

*29.09.2013-cü il*

***

Füzuli sözün güc qanununu yaradıbdır. O, sözün güc qanununu, düsturunu elə yaradıbdır ki, heç kəs onu poza bilmir. Füzulinin sözdən yaratdığı qanun, düstur zirvədir. Bu zirvəyə yalnız qibtə etmək olar. Onu fəth etmək yalnız Füzulinin öz işidir.

***

Azad Mirzəcanzadə fiziki mövcudluğu baxımından XX əsrə, mənəvi, elmi mövcudluğu baxımından XXIII əsrə aiddir.

*30.09.2013-cü il*

***

Ev doğulmaq və ölmək üçündür. Həyat yollarda keçir.

*02.X.2013-cü il*

***

Tərcüməçi tərcümə etdiyi əsəri təkmilləşdirmək naminə əsərin müəllifi ilə rəqabətdə olmalıdır.

***

Ağıl üçün ən təhlükəli xəstəlik qürurdur.

***

Sevgi elə eynəkdir ki, onu taxanda hər şey qızılgül kimi görünür.

***

Musiqi mələklərin dilidir.

***

Məqsədsiz insan yelkənsiz gəmidir.

***

Hər şeyi sonralara saxlamaq olmaz. Sonralar böyük bəlalara çevrilə bilər.

***

Külə döndünsə, gülə dönməyi gözlə və neçə dəfə gülə döndüyünü söylə.

*16.X.2013-cü il*

***

XX əsrdə dilin və sözün başına nələr gətirdiyimiz barədə fikirləşməliyik. Ən başlıcası XX əsrdə söz ucuzlaşdı, dəyərdən və gücdən düşdü. Belə olduğundan dünyanın özü təhlükə altına alındı. Qırğınlar, qanqadalar, vuruşlar, daha nələr, nələr baş alıb getdi...

***

Dünyada reallıqlar çoxdur... Bir reallıq da var. Bu reallıq hər birimizin özümüzük. Hər birimizin həyatımızdır. Özümüz də, həyatımız da bizə Allahın verdiyi ən zərif hədiyyədir. Bu hədiyyəni eybəcərləşdirənlərə, əlimizdən alanlara qarşı olmaq lazımdır. Bu hədiyyəni istədiyimiz kimi istifadə etməliyik. Bu hədiyyə bizə, bizim hər birimizin özümüzə məxsusdur.

***

*Toy-düyün* sözünün birinci hissəsi *toy* yemək, içmək, demək, gülmək, şadlanmaqla bağlı olan, daha doğrusu, bu mənaları bildirən sözdür. *Düyün* sözü isə iki gəncin bir-birinə bağlanmasıdır, məhəbbətidir. Bu, bəylə, gəlinin bir-birinə bağlanmasından əmələ gələn sözdür. Daha doğrusu, bəylə gəlinin bir-birinə bağlanmasını ifadə edən sözdür.

***

XX əsrin ən böyük faciələrindən biri də pislərin çoxalması, yaxşıların azalmasıdır. Bu pislər bir-birini elə tez tapıb birləşirlər ki, məəttəl qalırsan. Ancaq yaxşılar

biri-biri ilə birləşmək barədə fikirləşmirlər. Yaxşılar yaxşıların və pislərin xəbəri olmadan yaxşı əməlləri ilə məşğul olurlar...

*16.X.2013-cü il*

***

İnsan yaşayırsa, bu, elə xoşbəxtlikdir.

***

İşıqlı insan özünü hər yerdə azad hiss edir.

***

Bir yerdə çox qalmaq, durmaq və oturmaq insanı korlayır. Yaxşı deyiblər ki, su bir yerdə çox qalanda o da iy verir.

***

İnsan ağzı qapağı açılmamış bir qazana bənzəyir. Bütün ömrü boyu bu qazanın qapağı tez-tez açılır və onun içindəkilər görünür.

***

Şairin şairliyi onun sözlərinin, sətirlərinin altındadır.

***

İnsanın hər şeyi görməyə və izləməyə vaxtı yoxdur.

*3.XI.2013-cü il.*

*13.06.2015*

# Mən- biz, sən- siz, o- onlar barədə deyimlərim – VIII yazı

Belə bir misal var: "Nilin suyunu içən bir də içmək istəyir".

*11.XI.2013-cü il*

***

Çayın çaya, çayın gölə qovuşduğu yer, bir sözlə, suyun mənbəyindən axıb töküldüyü yer (mənsəb) onun arzusuna çatdığı yerdir. Axan suyun qovuşduğu yer yoxdursa, o, arzusunda nakamdır. Adətən axar suyun arzuya yetdiyi yer daha müqəddəsdir. Həm də bu müqəddəsliyinə görə bulaq suyu çay suyundan, çay suyu göl suyundan, göl suyu dəniz suyundan, dəniz suyu okean suyundan fərqlənir. Bunların hər birində suyun tərkibi də fərqlidir. Bunların içərisində bulaq suyu daha təmizdir. Ona görə də bulaq sularının axıb töküldüyü çay sularında olan balıqlar (çay balıqları) daha dadlıdır...

***

Əslində göz yaşı gözün giləsindən süzülüb axmaqla öz istəyi, arzusu naminə yanaqlara, sifətə doğru hərəkət

edir. Onu yanaqlardan və sifətdən silmək göz yaşının istəyinə, arzusuna müdaxilə etməkdir. Axı o da bu cür yaşayır... Bu cür görünür... Göz yaşından axan su insanı sakitləşdirir, insanı rahat edir. Deməli, göz yaşı barədə düşünmək olar...

***

Görəsən kirpiklər ox, qaş, kaman olmasaydı insanların baxışları nələr törədərdi?! Ox kamana qoyulub atılır, hədəfə çatır... Ox, kaman olmasa, hədəf də yoxdur... Kirpik, qaş olmasa, ürək də yoxdur...

***

Nizami, Füzuli, Xətai... eləcə də digərləri xalq şairi deyil... Ancaq XX və XXI əsrlərdə neçə - neçə Xalq şairi, Xalq yazıçısı oldu... Düşünməyə dəyər.

***

Yaradıcı insanlar, peşəkar insanlar öz ixtisaslarını, məşğul olduqları sahəni o qədər güclü bilirlər ki, onlar hər cür təsadüfləri, qeyri-peşəkarlığı qəbul edə bilmirlər. Belə olduğundan çoxları (peşəkarlığı zəif olanlar) onları (peşəkarları, yaradıcı insanları) qəliz insanlar adlandırırlar. Axı peşəkarlar peşəkarlıqda sadə ola bilmirlər. Peşəkarlığı sadə olanlar çoxdur, peşəkarlığı yüksək səviyyədə olanlar azdır.

***

Deyilənlərə görə, ağaclar da xərçəng xəstəliyinə tutulur. Ağaclar xərçəng xəstəliyinə tutulanda xərçəng

xəstəliyinin torpaqda olan bütün elementlərini özlərinə çəkir, özlərində saxlayır və imkan vermirlər ki, başqa ağaclar buna tutulsun. İnsanların bəziləri onlarda xəstəlik yaradan mikrobları yayırlar, başqalarına da bu mikrobların keçməsinə ya səy göstərirlər, ya da çox adi baxırlar.

*25.XI.2013-cü il*

***

Akademik Fikrət Əliyev mənə əl telefonu ilə zəng vurub dedi ki, İctimai televiziyada informasiya-kommunikasiya texnologiyalarının həyatımıza gəlməsinin müsbət cəhətləri ilə yanaşı, fəsadları barədə olan çıxışım onun çox xoşuna gəlib. Xüsusilə, yazı mədəniyyətinin, nitq mədəniyyətinin səviyyəsinin aşağı düşməsi barədə söylədiyim fikirlər də onu razı saldığını dedi. Nə yaxşı ki, fikirlərə, mövqelərə diqqətlə, həssaslıqla yanaşanlar vardır.

***

Məni bütün çətinliklərdən Allah qoruyur. Hər bir şey Allahın əlindədir...

23.XI.2013-cü ildə (VI gün) Sumqayıta bir tədbirə getməli olduq (prof.Cəfər Cəfərov, prof.Məhərrəm Hüseynov və mən). Qayıdanda gəldiyimiz maşın qəzaya uğradı. Allah bizi qorudu, heç birimizə bir şey olmadı. Mən Allahıma borcluyam. Təkcə buna görə yox ki, o, bizi ölümdən qorudu. Həm də ona görə ki, o özü hər şeyi bilir. Allahın işinə bax. Biz Sumqayıta gedəndə maşının

qabağında mən oturmuşdum. Maşını Cəfər müəllim idarə edirdi. Qayıdanda maşının qabaq qapısı açılmadı. Arxada oturmalı oldum. Qabaq qapının açılmaması da Allahın işi idi. Mən qabaqda otursaydım mütləq xətər alacaqdım. Ancaq Allah buna imkan vermədi. Mən də, Məhərrəm müəllim də arxada oturmalı olduq.

***

Basılan (çap olunan) kitablar dəyərini itirmir, kəsilən pullar dəyərini itirir.

***

Abırlı, həyalı və halal olduğum üçün atama, anama borcluyam. Valideynlərim abırlı, həyalı və halal olmağı mənə təlqin ediblər.

***

Yalan danışmağı bacarmıram. Doğru, düzgün danışanda da inciyirlər.

***

Deyirlər ki, pişik ölümünü qabaqcadan hiss edir. Pişik ölümünü hiss edəndə evdən uzaqlaşır, evə qayıtmır. Evdən uzaqlarda ölür.

***

Yaxşı şeir insan üçün yaxşı bir reseptdir.

***

Yaxşı şeir insan ruhunun qida mənbəyidir.

***

Şairin işi gül-çiçəkdən bal toplayan arıya bənzəyir. Balın təmizliyi gül-çiçəkdən asılı olur. Şeirin də gücü, təsiri onun poetikliyindən asılıdır. Oxucu şeirin poetikliyini hiss etdikdə həmin şeir təmiz bala bənzəyir, təmiz balın dadını verir.

***

Ətalətdə olan insan xəstədir. Bu, ən böyük xəstəlikdir.

***

Ləyaqətli adamın yanında ləyaqətsizi tərifləmək ləyaqətliyə (ləyaqətli adama) ən böyük hörmətsizlikdir.

***

Yaxşı müəllim həm də keçdiyi mövzunun bəstəçisidir. Yəni bəstəkarıdır. Belə olanda mövzu müəllim tərəfindən bəstələnərək sanki dinləyicinin, tələbənin sevimli musiqisinə çevrilir.

***

İnsanlar yaxşılıq və pislik edəndə öz genlərinin kodunu yaşadırlar. Yaxşılıq və pislik etmək gendən gəlir, soydan, kökdən gəlir...

***

Yaxşı söhbətlər və yaxşı insanlar ruhu təmizləyir, ruhu sağlam edir, həyat eşqini artırır.

***

Öyrənmək heç vaxt gec deyil.

***

Görəsən ayağımızı tapdalayanlar, bizə pislik edənlər tapdalamaqlarının və pislik etmələrinin səbəbini bilirlərmi?! Əgər bilmirlərsə, onlara yazığım gəlir.

***

O övlad yaxşı, xoşbəxt övladdır ki, o, atasına, anasına rəhmət oxudur. Onun əməli, fəaliyyəti başqaları tərəfindən rəğbətlə qarşılanır və deyilir ki, Allah bunun atasına, anasına rəhmət etsin.

Günlərin birində bir yaşlı, təqaüddə olan ziyalı qadın mənim əl telefonuma zəng etdi. Mənim televiziyada olan çıxışımdan məmnun olduğunu bildirdi. Danışığım, nitqim xoşuna gəldiyini dedi. Və onu da dedi ki, sənin kimi övladın ata-anası sağdırsa, Allah can sağlığı versin, rəhmətə gedibsə, Allah rəhmət eləsin.

*10.XII.2013*

***

Birisi Üzeyir Hacıbəyova deyir ki, iki nəfər bir-biri ilə yola getmir. Mən nə edim ki, onlar yola getsinlər. Həmin adam acığından yola getməyənləri eşşək adlan-

dırır. Yəni iki eşşək yola getmir deyir. Üzeyir bəy isə cavab verir ki, sən iki eşşəyin arpasını bölə bilmirsənsə, nəyə və kimə lazımsan.

***

Vətəni, milləti, öz məşuqunu sevənlər çox vaxt əzab və əziyyət çəkirlər. Axı Məcnun da Leylini sevdiyi üçün çox əzab və əziyyət çəkmişdir.

*20.XII.2013-cü il*

***

Əslində insanlar təbiəti təqlid edirlər. İnsanlar həm də heyvanları təqlid edirlər. Hər bir insanın içində bir heyvan xisləti yatır. Hər bir insanın üz cizgilərində müəyyən heyvanın prototipi var. Hətta qarışqalar, tarakanlar daha nələr, nələr və nələr xislətində olan insanlar var.

*21.XII.2013-cü il*

***

Yalan, böhtanla yaşayan insanlarda ləyaqət, vicdan olmaz. Ləyaqəti, vicdanı olmayanlar həyatda əziyyət çəkmədən yaşayırlar.

***

Səməd Vurğun istedadlı olduğu üçün istedadsızların qaragüruhçuluğu ilə çox üzləşibdir. Bir dəfə həmin garagüruhçulara üz tutub deyibdir ki, siz məndən nə istəyirsiniz. Bu zaman həmən garagüruhçulardan birinin

gözləri yaşarıbdır. Görünür ki, həmin məqamda garagüruhçulardan birinin vicdanı ayılıb, baş qaldırıbdır. Ancaq elə garagüruhçular var ki, onların vicdanı heç zaman ayılmır. Bəlkə də bütün ömrü boyu heç vicdanları olmur.

***

Nadan adam eşitməyi bacarmır, ona görə də məcbur edir ki, ağıllı adam ucadan danışsın. Eyni zamanda nadan adam dinləməyi də bacarmır, ona görə də məcbur edir ki, ağıllı adam astadan, pıçıltı ilə danışmasın.

*22.XII.2013-cü il*

***

Pulun açmadığı qapı yoxdur. Ancaq pul cənnətin qapılarını aça bilmir. Bu istisnadır.

***

Hər bir insan xatırlamağı, axtarmağı, üzr istəməyi, bağışlamağı bacarmalıdır. Şəms Təbrizi deyirdi:

“Bir an dayan, arxana bax və unutduqlarını xatırla... İtirmisənsə, axtar, qırmısansa, üzr istə, qırılmısansa bağışla... Çünki həyat çox qısadır”.

***

Hər birimiz alçaqlığa tələsənlərlə tez-tez qarşılaşırıq. Platon deyirdi:

“Abırsızlıq ruhun öz mənfəəti üçün alçaqlığa tələsməsidir”.

***

Bir kişinin bir qadına, bir qadının da bir kişiyə həmişə ehtiyacı var. Onların hər ikisi qocalanda bu ehtiyac sadiqliyə çevrilir.

İmmanuel Kantdan soruşurlar:

– Hansı qadınlar ərlərinə sadiq olurlar: Qara saçlılar, yoxsa sarı saçlılar?

Filosof cavab verir: Ağ saçlılar.

***

Əlibala Hacızadə ilə söhbət edirdik. Söhbətimizdə bir neçə dost da iştirak edirdi. Soruşduq ki, Əlibala müəllim, siz ağsaqqalsınız, bilərsiniz, bizim düşmənimiz ermənidir, rusdur, ingilisdir? O dedi ki, bizim düşmənimiz bir-birimizə olan paxıllığımız və qısqanclığımızdır.

***

Zahid Xəlillə Adil Cəmil Bakı şəhərinin orta məktəblərinin birində görüşdə olurlar. Məktəbin direktoru uşaqlara Zahid Xəlili Zeynal Xəlil, Adil Cəmili Əhməd Cəmil kimi təqdim edir. Hər iki şair pərt olur. Direktor deyir ki, nə fərqi var, şair şairdir, əsas odur ki, uşaqlar bildilər ki, şairlər görüşə gəliblər.

***

“Azərbaycan” jurnalının baş redaktoru İsmayıl Şıxlı, baş redaktorun müavini isə Qabil imiş. Həmin vaxt

gənc şairlərin “Azərbaycan” jurnalında bir şeirdən artıq şeiri çap olunmurmuş. Çox təsadüfi hallarda gənc şairlərin jurnalın bir nömrəsində bir neçə şeiri çap olunurmuş. Adil Cəmil şeirlərinin bir qismini çap olunmaq üçün şair Qabilə təqdim edir. Qabil elə bilir ki, Adil Cəmil Əhməd Cəmilin qardaşı oğludur. Bir neçə gündən sonra Qabil Adil Cəmilə deyir ki, əminə salam de. Adil Cəmil heç nə başa düşmür və Qabilin bu sözlərinə əhəmiyyət vermir. “Azərbaycan” jurnalı çap olunanda görür ki, onun Qabilə verdiyi şeirlərin hamısı çap olunubdur. İşi başa düşür... Qabil də işi başa düşür. Artıq hər şey gec imiş...

***

Şair Qabil “Azərbaycan” jurnalında baş redaktorun müavini olanda gənc şairlərin çap olunmaq üçün təqdim etdikləri şeirlərin ən yaxşısını seçib çap edərmiş, digərlərini isə geri qaytarıb deyərmiş ki, bunları da məşhur olandan sonra çap etdirərsən.

***

Şair Qabil xoşu gəlməyən adamla bir yerdə olmağı da sevməzdi. Günlərin birində Adil Cəmillə bir yerdə çay içirlərmiş. Bu zaman üçüncü bir adam da gəlir. Həmin adamdan Qabilin xoşu gəlmirmiş. Qabilin xoşu gəlməyən həmin adam onlardan ayrılıb getmək istəyir. Tez-tez deyir ki, getmək istəyirəm, tələsirəm. Onun fikri Qabilin ürəyincə olsa da, dediyinə əməl etmir. Qabil nə qədər

gözləyir ki, bu adam çıxıb getsin, ancaq getmir. Növbəti dəfə bir də deyəndə ki, getmək istəyirəm, bu zaman Qabil deyir ki, sən getsən yaxşıdır.

***

Günlərin bir günü Qabil Yazıçılar Birliyində keçirilən tədbirlərdən birini aparırdı. Tədbirdə iştirak edən adamlara bir-bir söz verirdi. Bir aşığa da söz verdi. Söz verdi ki, həmin aşıq çalıb oxusun. Ancaq aşıq çalıb oxumaq əvəzinə başladı uzun-uzadı danışmağa. Bu zaman Qabil aşığın sözünü kəsib dedi ki, a kişi, burada danışanlar çoxdur. Sənə söz verdim ki, oxuyasan...

***

Adil Cəmil və digər bir şair Azərbaycanın regionlarından birinə ezam olunubmuş. Ezam olunduqları rayonun avtovağzalında onları qarşılayacaq adamı gözləyirlərmiş. Birdən görürlər ki, avtovağzalda Hüseyn Arif də göründü. Onlar Hüseyn Arifə yaxınlaşırlar və deyirlər ki, qulluğunda olaq. Hüseyn Arif deyir ki, bura gəlmişik ki, öz pulumuzla bir-birimizə xidmət edək?! Bizə xidməti bizi bura dəvət edənlər etməlidir. Bu vaxt onları avtovağzalda qarşılayacaq vəzifəli adam peyda olur. Görüşürlər. Səhər tezdən yeməkxanaya gedirlər. Süfrəyə şor, pendir... gəlir. Hüseyn Arif şoru çörəyin üstünə yaxıb ləzzətlə yeyir. Yedikcə deyir ki, bu şor olmasaydı Böyük Vətən Müharibəsində acından qırılardıq. Onu da deyir ki, nə

yaxşı ki, bu şor varmış. Birdən vəzifəli şəxs deyir ki, indi şor, pendir... süfrədən yığışdırılsın və süfrəyə balıq gətirilsin. Elə bu dəmdə səhərdən şoru, pendiri tərif edən Hüseyn Arif deyir: Başın haqqı düz deyirsən, bu köhnəliyin qalığını (şoru, pendiri nəzərdə tutur) yığışdırın, süfrəyə müasirliyi gətirin.

***

Müdriklərdən biri deyib ki, mən keçmişimə görə məsuliyyət daşımıram. Ona görə ki, mən keçmişdə yaşamıram.

***

Bu tarixlər məni düşündürür: Atam Əzizin doğum və ölüm tarixi – 1927-ci il yanvar ayının 17-si doğum tarixi, 2008-ci il dekabr ayının 17-si ölüm tarixi. Anam Sonanın doğum və ölüm tarixi – 1929-cu il yanvar ayının 12-si doğum tarixi, 2007-ci il fevral ayının 21-i ölüm tarixi.

Atam Əzizin doğum və ölüm tarixinin 17 olması – bu rəqəm. Görəsən niyə hər ikisi 17-dir?!

Anam Sonanın doğum tarixinin 12, ölüm tarixinin 21 fevral Beynəlxalq Ana Dili gününə təsadüf etməsi yenə də məni düşündürür. Yadımdadır 2007-ci ilin fevral ayının 21-i Atatürk Mərkəzində Beynəlxalq Ana Dili gününə həsr olunmuş tədbirə məni dəvət etmişdilər. Həmin gün gecə saat $2^{00}$-da anam dünyasını dəyişdi. Həmin gün saat $13^{00}$-da anamın dəfni idi. Yenə də deyirəm, ana-

mın ölüm tarixinin 21 fevrala təsadüf etməsi – Beynəlxalq Ana dili gününə təsadüf etməsi məni düşündürür...

*03.I.2014-cü il*

***

Atamın qəbrində sinə daşının üstünə aşağıdakı sətirləri mən yazdırmışam və bu sətirləri mən yazmışam:

Əziz o Əzizdir ki, əzizlərə hörmət. Ondakı bütövlük, kişilik, mərdlik, izzət, hörmət və ədalətlilik nadirdir.

Anamın qəbirində sinə daşının üstünə aşağıdakı sətirləri də mən yazdırmışam və bu sətirləri də mən yazmışam:

*Ağlasan mən narahat,*
*Sən sevinc tap, mən – rahat.*
*Oyatma öz yuxumdan*
*Mən Allaha əmanət.*

***

Bu dünyada kimsəsiz heç kim, yiyəsiz heç nə yoxdur. Ancaq bəzən kimsəsizlərə və yiyəsizlərə rast gəlmək olur. Onlar nədənsə Allahın da diqqətindən yayınırlar.

Dünyada dirilərin yiyəsi olduğu kimi, ölülərin də yiyəsi var. Ancaq bəzən dirilərin də, ölülərin də yiyəsi olmur.

Ceyranbatan qəbristanlığına atamın, anamın qəbrini ziyarət etməyə getmişdim. Gördüm ki, qəbristanlıqda 18

yaşlı bir gəncin qəbri var. Ancaq baxımsızlıq ucbatından qəbrin yan-yörəsini ot, kol-kos basmışdı. Hiss olunurdu ki, bu gəncin qəbrinə baxan yoxdur.

***

Müqəddəs yerlərə ziyarət zamanı məkan olduğu kimi qalır, həm də zaman dəyişmir. Müqəddəs yerləri nə zaman ziyarət etsən zaman dəyişmir.

Dostum Tahir 2013-cü ilin oktyabr ayında Məkkə ziyarətinə getmişdi. Qayıdanda mənə dedi ki, Məkkə ziyarətində 24 saat ərzində zaman dəyişmir. Ziyarətçilər üçün 24 saatın hər anı, hər saatı eynidir. Məncə, bunun səbəbi müqəddəsliyin əbədiliyindədir.

***

Qafiyə şeirin nəqliyyat vasitəsidir.

*19.06.2015*

# Mən - biz, sən- siz, o- onlar barədə deyimlərim – IX yazı

Bəlkə də dünyada istər maddi, istərsə də mənəvi cəhətdən əziyyət çəkənlər bu dünya üçün artıq olanlardır. Dünyanı nizam-intizama, qayda-qanuna salmaq istəyənlərdir. Ədaləti, haqqı qoruyan və yaşadanlardır. Dünyanı yaşatmaq naminə dünya üçün artıq sayda olanlardır.

Hərdən fikirləşirəm ki, mən ailəmizdə beşinci övladam, beşinci qardaşam. İndi isə ailələrdə bir, iki, çox nadir hallarda üç övlad olur. Bəlkə də mən beşinci övlad kimi müasir dünyanın ailələrindəki övladların sayında artıq olanlardanam. Bəlkə də ona görə mənəvi cəhətdən daha çox əziyyət çəkirəm. Bəlkə də mənim kimi mənəvi cəhətdən əziyyət çəkənlər də belədir.

***

Birisi o birisinə gəl-getdən, olub keçənlərdən danışır. Onun danışdıqlarının doğruluğunu təsdiq etmək üçün ondan şoruşanda ki, bu dediklərin düzdürmü? O cavab verir: Öz gözlərimlə görməsəm də, onu deyə bilərəm ki, dediklərimdə düz olmayan nə varsa, günah qulağımdadır. Günah qulağımdadır ifadəsində dərin məna vardır. Yəni dediklərimi eşitmişəm.

***

Allahdan qorxan adam başqa heç kəsdən qorxmaz. Ona görə ki, Allahdan qorxan kəs Allah xatirinə günah işlətməz. Günahı olmayanın da başqa kəslərdən nə qorxusu olmalıdır?!

***

Deyilənə görə, Anar uşaq vaxtı Səməd Vurğungilə gedir. Səməd Vurğun zarafatla soruşur ki, kim böyük şairdir. O cavab verir ki, Rəsul Rza, Sabit Rəhman (ona Sabit əmi deyirmiş). Səməd Vurğun gülür və deyir ki, bəs mən?!

***

Səttar Axundov adlı bir dramaturq Azərbaycan Yazıçılar Birliyində dramaturgiyamız barədə məruzə edirmiş. İclasın sədri Səməd Vurğun imiş. Səməd Vurğun çox diqqətlə qulaq asırmış. Səməd Vurğundan bu diqqəti görən Səttar Axundov daha da ürəkli danışmağa başlayır. O, danışıb qurtardıqdan sonra Səməd Vurğun deyir ki, indi neçə dramaturq vardır. O cavab verir ki, qırx. Səməd Vurğun deyir: Kaş bu qırx dramaturq öləydi, ancaq Cəfər Cabbarlı sağ olaydı, yaşayaydı.

***

Azərbaycan Yazıçılar İttifaqında olan söhbətlərin birində deyilir ki, ədəbi tənqidin özü də axsayır. Belə olan yerdə ədəbiyyatın inkişafından danışmaq olmaz. Onu da qeyd edək ki, bu söhbətdə Səməd Vurğun da iştirak edirmiş. Odur ki, Səməd Vurğun deyir:

– Ədəbi tənqid ona görə axsayır ki, tənqidçilərimiz Əkbər Ağayev, Yəhya Seyidov, Pənah Xəlilovdur.

Səməd Vurğun bu tənqidçilərin adını ona görə çəkir ki, onlar fiziki cəhətdən qüsurlu olublar, ayaqları axsaq olub.

***

Deyilənlərə görə, istedadsız şairlərdən biri şeirlərini çap etdirmək üçün Azərbaycan Yazıçılar Birliyinin mətbuat orqanlarına aparır. Şeirlər zəif olduğu üçün redaktor onu çap etmək istəmir. Həmin istedadsız şair Azərbaycan Yazıçılar İttifaqının sədri Mirzə İbrahimovun yanına şikayətə gedir. Mirzə İbrahimov həmin redaktoru yanına çağırıb deyir ki, özünü qorumaq üçün belə istedadsızları da çap et. Ona görə ki, istedadsızlar sayca çoxdur. Onlar sənə qənim kəsilə bilərlər.

***

Haqsızlıq həmişə olub. Haqqı olan adamlara qarşı haqsızlıq həmişə tüğyan edib. Belə haqsızlıqlar Azərbaycan Yazıçılar İttifaqında da az olmayıbdır.

İsmayıl Şıxlı Azərbaycan Yazıçılar İttifaqında katib işləyirmiş. Günlərin birində ona haqsızlıq edirlər, tənqid edirlər və tənqidlər baş alıb gedir. Hətta tənqid etmək üçün az qala növbəyə dayanırlar. Bu zaman Anarı bu haqsız tənqidlər çox kövrəldir. Gözləri dolur. Bu haqsız tənqidlərə doluxsunaraq etiraz edir.

***

Deyilənə görə (Səməd Vurğunun qızı Aybəniz xanımın dediyinə görə), Səməd Vurğun xanımların (qızların, qadınların) şairliyinə, yazıçılığına çox da ciddi yanaşmamış və bu işin onlara aid olmadığını söyləmişdir.

***

Şair Oqtay Rza görür ki, onun dostlarından biri özünə deyir ki, boyu alçaqdır. Oqtay Rza onun bu səhvini düzəldir. Və deyir ki, sənin boyun alçaq yox (alçaq sözünün pis mənasını nəzərdə tutur) bəstəboydur. Ona görə də özünün boyun barədə belə demə...

***

Şair Oqtay Rza dostları ilə birgə Azərbaycanın cənub bölgəsinə tədbirə gediblərmiş. Bu tədbirdən qayıdan zaman onun dostlarından biri deyir ki, sən (yəni Oqtay Rza) mənimlə qayıdacaqsan. Məqsədi də o imiş ki, Oqtay Rzaya yaxşı bir qonaqlıq versin. Belə də olur. O biriləri qayıdır. Axşama tərəf isə Oqtay Rzagil qayıdır. Yolda dostu Oqtay Rzaya yaxşı qonaqlıq verir. Gecə də qonaq evində qalırlar. Hər şey ürəkaçan olur. Birdən Oqtay Rza deyir ki, yaxşı olardı ki, mən də o biri dostlarımızla şəhərə qayıdaydım. Bu söz Oqtay Rzanın dostunun xətrinə dəyir. Oqtay Rza görür ki, dostunun kefi yaxşı deyil. Və dostu Oqtay Rzaya deyir ki, niyə belə deyirsən? Oqtay Rza cavab verir ki, o biri dostlarımızla mənim şəhərə qayıtmağım yaxşı olardı,

ancaq səninlə qayıtmağım əladır. Beləliklə, Oqtay Rzanın dostunun kefi açılır.

***

İş olan yerdə güc olmalıdır. Gücsüz hər hansı bir işi görmək olmur. Təsadüfi deyil ki, dilimizdə *iş-güc* sözü var.

İki yaxın adam bir-biri ilə səhər vaxtı görüşür. Biri o birindən soruşur ki, hara gedirsən? O deyir ki, *işə* gedirəm. Bu biri isə soruşur ki, bəs sən hara gedirsən. O isə cavab verir ki, mən də *gücə* gedirəm.

***

*İki eşşəyin arpasını bölə bilmir* ifadəsi belə yaranıbdır. İki ağıldan kəm adam bir ağıllı adama yaxınlaşıb deyir ki, üç kiloqram arpanı iki eşşəyə necə bölərsən? Ağıllı adam deyir ki, bir kiloqramını sənə, birini dostuna verərəm (yəni ikiniz də eşşəksiniz), birini isə özüm götürərəm.

***

Yaxşı deyilibdir:

*Qalmaqallı bir məclisə*
*Salam versən yelə gedər.*
*Qoca kişi cavan qızı*
*Alarsa da, elə gedər.*

Qoca kişi hara, cavan qız hara? Ancaq belələri var. Elə qocalar var ki, cavan qızlara aşiq olurlar. Yaşlarına və başlarına uyğun olmayan işlər görmək istəyirlər. Ancaq yaş hər şeyi deyir. Yaşla zarafat etmək olmaz. Baxmayaraq ki, bəziləri zarafat edirlər.

Deyilənə görə, bir qoca kişi cavan bir qızı alır. Toy gecəsi qoca kişi deyir: Çayımızı içək, qəlyanımızı çəkək, qalaya hücum edək. Toy gecəsi beləcə keçir. Səhərisi günü qoca kişi yenə də eyni sözləri deyir. Belə olanda cavan qız qoca kişiyə deyir: Çayını iç, qəlyanını çək, ancaq qala sənin sadağan oldu.

***

Sovet dövründə kolxozçular əkin sahəsində işləyirlərmiş. Əkin sahəsi qəbiristanlığın yanında imiş. Tənbəllərdən biri-bir kişi aradan çıxıb qəbir daşlarının arasında yuxuya gedir. Kolxoz sədri əkin sahəsinə gəlir və görür ki, hamı işləyir, bir nəfər yoxdur. Onu yaxınlıqdakı qəbir daşlarının arasında yatmış vəziyyətdə tapır. Kolxoz sədri qəbir daşları arasında yatan kişini oyadaraq deyir ki, hamı işləyir, sən isə yatırsan. Ayağa dur, işlə. Qəbir daşları arasında yatan kişi kolxoz sədrinə deyir ki, o birilərini (o, qəbiristanlıqda yatan ölüləri nəzərdə tutur) də oyat, onlar da işləmir.

***

ADPU-nun fizika fakültəsinin müəllimi İsrail Məmmədov 48 yaşında fizika üzrə fəlsəfə doktoru diplo-

munu almışdı. Bu barədə dost-tanışa məlumat verirdi. Bu məlumatı Mahir Qabiloğluna da dedi. Mahir Qabiloğlu dedi ki, mən bir İsrail tanıyırdım. O, İsrail Mustafayev idi. Üzünü mənə tutub dedi: Buludxan, sənə İsrail Mustafayev dərs deyib. Dedim ki, deyib. Qayıdıb dedi ki, mən onu tanıyırdım. O, əlli yaşında dünyasını dəyişdi. Bu İsrail isə 48 yaşında fizika üzrə fəlsəfə doktoru olubdur.

***

Günlərin bir günü İsmayıl Şıxlı, Hüseyn Arif və digər dostları yaxşıca yeyib içirlər. Hüseyn Arif bədahətən deyir:

Şuşanın dağları çəndi, dumandı İsmayıl Şıxlı yamanca vurandı.

***

Amasiyaya – Ağbabaya dönən olsa, məndən salam söyləsin. Mənim gəzdiyim yer - yurdlara salam söyləsin. Futbol oynadığım, xizək sürdüyüm, qaçma - tutma oynadığım, çilik-ağac oynadığım yerlərə salam söyləsin, üstündə gəzdiyim, əzdiyim güllərin, çiçəklərin torpağın dərin qatlarındakı kökünə salam söyləsin. Ulularımızın, müqəddəslərimizin narahat ruhlarına salam söyləsin.

***

Bir xahişim var. Mənə dünyaya gəldiyim kənddən bir qəbir yeri verin. Bu barədə bir xəbər bilsəniz, söyləyin. Allah eşqinə mənə deyin!!!

***

Şair Oqtay Rza mənim barəmdə bədahətən bu misraları dedi:

*Bütün ürəkləri dərk edən dekan,*
*Hamıdan tez gəlib gec gedən dekan.*

***

Məmməd Araz, Söhrab Tahir və digər bir neçə şair Moskvada yeməkxanaların birində çörək yeyirlərmiş. Bu zaman həmin yeməkxanaya Səməd Vurğunla birgə Fadeyev də daxil olur. Məmməd Araz, Söhrab Tahir tez yeməklərini yeyib yeməkxanadan çıxmaq istəyirlər. Bu böyük sənətkarın yanında utanıb çəkinirlər. Ona görə də yeməkxanadan tez çıxmağa çalışırlar. Və çıxanda nə qədər pul ödəyəcəklərini soruşurlar. Ancaq onlara deyilir ki, sizin pulunuzu Səməd Vurğun ödəyibdir.

***

Dilimizdə belə bir misal var: "Burada alaqarğa bala çıxarmaz". Bu misalın mahiyyəti belədir ki, qarmaqarışıq, səsli - küylü, təbiəti təmiz olmayan, suyu, havası təmiz olmayan yerdə alaqarğa yurd salmır, yaşamır. Alaqarğa çox həssas, təmizliyi sevən bir quşdur. Hətta onu da deyirlər ki, alaqarğa olmayan yerdə yaşamaq olmaz. Yəni alaqarğa yaşamayan yerin təbiəti, suyu, havası insanın yaşaması üçün münasib deyildir.

Deyilənlərə görə, qədim insanlar ilk məskunlaşdıqları yerin yaşayış üçün nə qədər əhəmiyyətli olduğunu bilmək məqsədilə fikir verirlərmiş ki, burada alaqarğa

yaşayırmı. Əgər alaqarğa yaşayırmışsa, onda həmin yerdə məskunlaşmağı məqsədəuyğun sayırlarmış.

***

Mən hər cür adamla yol gedərəm, ancaq ədalətsiz adamnan yol gedə bilmərəm.Ona görə ki, hər pis şey ədalətsizlikdən başlayır.

***

"Qocanın ağlı, gəncin biləyi". Bu o deməkdir ki, qocanın ağlı, gəncin isə biləyi güclü olar.

***

Əminliklə demək istəyirəm ki, ədəbiyyat tariximiz müstəqilliyimizin, dövlətçiliyimizin, milliliyimizin maraqları istiqamətində yenidən öyrənilməli və tədqiq edilməlidir. Klassik ədəbiyyatımız, ümumiyyətlə, ədəbiyyatımız ideoloji basqıların təsiri altında tədqiq edilibdir. Zaman isə göstərdi ki, ədəbiyyat, əsl ədəbiyyat sənətdir, onu ideoloji təsirlər altında öyrənmək olmaz. Heç şübhəsiz, Nizami, Füzuli, Yunis İmrə, Nəsimi, Ş.İ.Xətai, M.F.Axundov, Aşıq Ələsgər, C.Cabbarlı, S.Vurğun, S.Rüstəm və digərləri yenidən tədqiq edilib öyrənilməlidir.

***

İnsanda əsas xüsusiyyətlərdən biri onun ruhudur. Ruh insanı daha canlı və cəlbedici edir. İnsan ruhsuz olanda ölü kimi bir şeydir. Təsadüfi deyil ki, "Ruh ki bədəndədir sənindir" deyilmişdir.

Heykəllər də, qəbirlər də ... ruhsuzdur. Ona görə də hər hansı görkəmli bir şəxsin heykəli onun özü deyil, məhz elə heykəlidir. Qəbirlərdə isə uyuyanlar canlı insanın özü deyil, cəsədidir. Müdriklərdən biri demişdir ki, mən öləndən sonra harada istəyirsiniz orada da dəfn edin. Ona görə ki, mənim qəbrimin harada olması əsas deyil. Yəni həmin qəbir mən deyiləm. Mənim cəsədimdir. Məni ziyarətə gələnlər məni yox, mənim qəbrimi görəcəklər.

***

Dünyada elə insanlar var ki, onlar ölü kimidir. Onları nə itirib - axtaran olur, nə yada salan olur, nə də onlara baş çəkən olur. Əslində dünyasını dəyişən insan hələ ölmür. O vaxta qədər ölmür ki, onu yada salırlar, ondan danışırlar, onu yad edirlər, qəbrini ziyarət edirlər və s. Elə ki, dünyasını dəyişmiş adam unudulur, onda o artıq ölür.

***

Görkəmli aktyor Əliağa Əliyev küçə ilə gedirmiş. Birdən binanın yuxarı mərtəbəsinin birindən bir xanım ona olan hörmətini, sevgisini bildirmək istəyir. Balkonda olan dibçəkdəki gülün çiçəklərinin birini qırıb onun üstünə atır. Bunu görən Əliağa Əliyev zarafatından qalmır, dayanır xanıma baxır. Xanım yenə də onun üstünə çiçək atır. Əliağa müəllim zarafatından geri qalmayaraq yerindəcə durur. Xanım əsəbiləşir və balkondakı gül dibçəyini götürüb yerə atır.

***

Bir neçə sənət vardır ki, onunla məşğul olanların fəaliyyəti maraqlı və düşündürücüdür. Bunladan biri geoloqdur. Heç nə itirməyib, ancaq ömrü boyu nəyisə axtarır. Digəri müəllimlikdir. Ömrü boyu danışır, izah edir. Ancaq hər danışığından, izahından sonra deyir ki, elə deyilmi, elədirmi. Sanki dediklərinə və izahına özü inanmır. Başqa bir sənət isə sürücülükdür. Hər yerə maşınla gedir, evinə piyada.

***

*Dilçi Azər Hüseynov mənim barəmdə dedi: Qardaşların yekunu, qızılı, xalqa lazım olanı sənsən.*

***

Birindən soruşursan ki, bu iş niyə belə oldu? Cavab verir ki, əcəb oldu. Yaxud da deyir ki, yaxşı oldu. Bəzən də deyir ki, əlimin içindən gəlir, əcəb oldu. Bəzən də utanmadan deyir ki, yaxşı eləmişəm və s. Ancaq bu cavabların heç birində məntiq yoxdur. Başqa xalqlarda bu məntiqə söykənən ifadə forması da yoxdur.

***

Tənbəldən soruşurlar ki, yemək yaxşıdır, yoxsa yatmaq. Tənbəl cavab verir ki, yeyə - yeyə yatmaq. Fikrə baxın, yeyə - yeyə yatmaq. Görəsən bu mümkündürmü? Bunu fizioloji cəhətdən etmək olarmı? Burada da bir məntiq yoxdur.

***

İş dalınca qaçanın işi də olur, pulu da. Pul dalınca qaçanın işi də olmur, pulu da.

***

Sevən kəs sevdiyini ürəyinin ən dərin guşəsində həbs edir. Sevginin həbsini heç nə ilə müqayisə etmək olmaz. Ona görə ki, haqsız həbs olunmuş hər bir kəs bəraət ala bilər. Vəkil tuta bilər, öz haqqını qoruya bilər. Ancaq sevən kəs bunu öz sevdiyinə qarşı edə bilməz.

***

Həqiqəti heç nəyə dəyişmək olmaz. Həqiqət elə bir gerçəkdir ki, onun qarşısında hamı acizdir.

***

Hər hansı bir peşəyə, sənətə bağlanan insan ondan əl çəkə bilməz. Heç onsuz yaşaya bilməz. İnsanlara olan bağlılıq da belədir. Kiməsə bağlanırsansa, ondan ayrılmaq, yaxud onu itirmək çox çətin olur.

***

İnsan bəzən öz hisslərini, duyğularını, istəyini sözlərlə, cümlələrlə ifadə edə bilmir. Nə qədər istəsə də, öz istəyini çatdıra bilmir. Bu, insanın acizliyi deyil, bəlkə də səmimiliyi və təmizliyidir. Sevginin təmizliyidir. Sevginin saflığıdır. Sevginin kor, kar, lal olması ayrı bir məsələdir: Kor, kar və lal yolla gedirlərmiş. Birdən kar dünyasını dəyişir. Bu zaman lal kora karın dünyasını dəyiş-

məsini deyə bilmir. Axı bu mümkün deyil. Bunu necə deyə bilər?!

***

Yaxşı adamlar yaxşı meyvələrə, pis adamlar yaxşı meyvələrin içərisindəki qurdlara bənzəyir.

***

Xoşbəxtlik barədə hərə bir cür fikirləşir.

Anrı Matiss yazır: "Xoşbəxt o kəsdir ki, təmiz və açıq bir ürəklə oxuya bilir. Hər yerdə – göydə, yerdə, ağaclarda belə sevinc tapmağı bacarır. Müğənninin səsi olduğu kimi, rəssamın da rəngi hiss etmək qabiliyyəti olmalıdır".

***

Səslə sözün bir fərqi də odur ki, səs tərcümə olunmur. Ancaq söz tərcümə olunur.

***

Müdriklərdən biri deyib ki, yaxşı nə varsa onu istəyin, o, sizin olacaq. Bu, ümumdünya cazibə qanunudur.

*25.06.2015*

# Mən-biz, sən-siz, o-onlar barədə deyimlərim – X yazı

Övladların valideynlərinə olan hörməti bir də odur ki, valideynlərinin üzünü ağartsınlar.

Bir kişi rəsullahdan soruşdu: “Valideynin övlad üzərində haqqı nədən ibarətdir?”

Peyğəmbər buyurdu: “Onlar sənin cənnətin və cəhənnəmindir”.

Övlada gözəl tərbiyədən, yaxşı təhsildən qiymətli hədiyyə vermək olmaz. Ona görə də tərbiyəli övlad, bilikli övlad öz əməlləri ilə valideynlərinə həmişə rəhmət oxudur. Bu oxunan rəhmətlər də valideynlərə cənnət qazandırır. Eyni zamanda rəhmət qazanmayan valideynlər cəhənnəmlik olurlar.

Bir dəfə koordinasiya şurasının iclasında təsdiq olunan mövzulardan birinin adı çox qarmaqarışıq idi. Mən mövzunun adını hamının qəbul etdiyi, hamını razı salan bir formaya saldım. Bu, akademik Tofiq Hacıyevin ürəyincə oldu. Dedi ki, Allah atana rəhmət eləsin. Sonra məndən soruşdu ki, atan rəhmətə gedibmi? Dedim ki, bəli. Dedi ki ikiqat Allah rəhmət eləsin.

Ölülərə rəhmət oxutdurmaq lazımdır. Dirilər üçün ən böyük tərbiyə budur.

***

Böyük adamlar, istedadlı adamlar evdə, ailədə, qohumlar arasında adi olurlar. Ailədə, evdə, qohumlar arasında bəzən böyük adamların böyüklüyünü, istedadlı adamların istedadını görmürlər. Bunları (böyüklüyü, istedadı) qohumlar adi sayırlar.

***

Mənim içimdəki böyüklüyü, istedadı aurası müsbət olanlar tez görə bilir, tez duya bilirlər.

***

Filologiya üzrə elmlər doktoru, professor Adil Babayev dedi ki, bizim universitetdə (yəni Azərbaycan Dillər Universitetində) sizin tələbələriniz – məzunlarınız, ADPU-nun filologiya fakültəsinin məzunları magistraturada təhsil alırlar. Dahilərdən söhbət düşdü... Həmin magistrlər Buludxan müəllimin ... (!) qeyri-adi keyfiyyətindən ağızdolusu danışdılar.

Adil Babayev onu da dedi ki, Buludxan Xəlilov heç kəsə bənzəməyən, heç kəsə oxşamayan heç kəsi təqlid etməyən orijinal alim və şəxsiyyətdir.

***

İstedadlı adamlar ciddi olurlar. Bu ciddiliyin içərisində məsuliyyət, nizam - intizam və özünə inam olur.

***

Birisi nəşriyyatların birinin sifarişi ilə kitab yazır. Kitab tamamlanır, nəşr olunur. Ancaq nəşriyyat müəllifin qonorarını vermir. Müəllif nəşriyyata tez - tez getdiyindən yorulur, usanır. Günlərin birində maddi ehtiyacı olduğu üçün yenə də nəşriyyata üz tutmalı olur. Birdən nəşriyyatın yanında yerləşən bir mərmər sexinə gözü sataşır. Görür ki, sexin qabağında belə bir reklam yazılıbdır: Qəbir daşı, xatirə lövhəsi sifariş etmək istəyənlər müraciət edə bilərlər. Gözünə sataşan bu reklam hər şeyi dəyişir. O, hər bir şeyin sonunu yada salır. Əl - ayağı hər şeydən soyuyur. Beləliklə, qonorar almaq üçün nəşriyyata getmək fikrini dəyişir.

***

Dünyada insanın ömrünə, gününə balta vuran işlərdən biri də harasa tələsməkdir. Tələsə - tələsə insan ömrünü - gününü yeyir. Axı fikirləşəndə hər şeyin sonu vardır. Tələsmək isə insanı sona doğru aparır. Məntiq belə deyir, həyat isə bunu təsdiq edir.

***

Ucqar kəndlərin birində öz işini, məsuliyyətini yaxşı bilən məktəb direktoru müəllimlərinə nəzarət edirmiş ki, vaxtı - vaxtında dərslərinə getsinlər, dərsə yubanmasınlar. Bir gün belə olur ki, zəng içəri vurulur. Ancaq müəllimlərin bir qismi dərsə getməyə yubanırlar. Ağsaqqal müəllim-

lərdən biri görür ki, məktəb direktoru müəllimlərin bir qisminin dərsə yubanmasına əsəbləşibdir. Yeri gəlmişkən onu da qeyd edək ki, məktəb direktorunun pəncərəsindən kəndin qəbiristanlığı görünürmüş. Odur ki, ağsaqqal müəllimlərdən biri direktora yaxınlaşır. Onun qoluna keçib pəncərənin qabağına gətirir. Pəncərədən qəbiristanlığı göstərərək deyir ki, o, qəbiristanlıqda yatanların heç biri işini qurtarmayıbdır. Ancaq o biri dünyaya köçüblər. İndi məzarlarda uyuyurlar. Çox da narahat olma, bəzi müəllimlərin isə dərsə yubanmasına əsəbləşmə.

***

Zəlimxan Yaqub bir dəfə müsahibələrinin birində heyvanların hissiyyatının güclü olması barədə belə bir hadisəni danışdı. Dedi ki, o, Hüseyn Ariflə birlikdə ova gedibmiş. Meşəbəyi onların başının üstünü alır və deyir ki, indi sizə qeyri - adi bir hadisə göstərəcəyəm və qəribə bir səs çıxarır. Bu zaman onların ətrafına xeyli maral toplaşır. Meşəbəyi bir alma götürüb yeyir. Sonra ikinci almanı bir dəfə dişlədikdən sonra marallardan birinə uzadır. Həmin maral üz çevirib gedir. Meşəbəyi sübut etmək istəyir ki, görün maral nə qədər təmiz, həssas heyvandır. Ona görə də maral başqasının (hətta insanın) ağzı dəymiş meyvəni yemir, üz döndərib gedir.

***

Cavanlıq çağında çoxlu ov etmiş bir ağsaqqal mənə bir hadisəni danışdı. O, dedi ki, meşəyə donuz ovuna ge-

dibmiş. Maqnitofona yazdırdığı donuz səsini səsləndirməklə ətrafına xeyli donuz yığır. Sonra onun üçün ov etmək asanlaşır.

Deməli, heyvanlar bir - birinin səsinə səs verə bilirlər. Bir - birinin səsinə (eynicinsli heyvanlar) toplaşa bilirlər.

***

Qara günüm, yaxud qara günlərim o vaxt başlayır ki, qarşıma biganə, laqeyd, etinasız, ürəksiz, qaragüruhçu, pis niyyətli adamlar çıxır. Onlar şeytan əməlləri ilə mənim qara günümə çevrilirlər.

***

Mənim üçün nə əvvəl, nə də axır vardır. Əvvəl yoxdur, ona görə ki, ora gedib çıxa bilmirəm. Axır yoxdur, ona görə ki, axıra qala bilmirəm.

***

Mən kimin qəlbində, sevgisində yoxamsa, həmin adamları axtarın. Görəcəksiniz ki, həmin adamlar yaxşı adam deyildir.

***

Haqqa, ədalətə , vicdana əyilmək onları dəyərə çevirir, onların hər birini qiymətli edir.

***

Hələ əllərini heç nədən, heç kimsədən üzmə. Sabah var və ona olan inam var...

***

Allah yaratdığı bəndələrinə hər şeyi səxavətlə vermək istəyir. Və verir də... Ancaq bədxah olan bəndələr min cür yolla bunun qarşısını almaq istəyirlər. Allah isə o bədxahlara gülür.

***

Sevgi olmayan yerdə hər şey soyuq məzar kimidir.

***

Dünyanın birinci qapısından içəri girdim. Bu qapıdan açılan qırxıncı qapını açmağa hələ ki vaxtım və zaman çatmayıbdır.

***

Bil ki, var olan hər bir şey tükənə də bilər.

***

Təsadüfi baş verən bir şey görünür ki, həm də zərurətdir.

***

Poeziyanın silahı mənalı və məqamında deyilən sözdür.

***

Dalğaların qayaya çırpılması çox əzəmətli və poetik görünür. Sadəcə olaraq bu mənzərəni görmək, gördükdən sonra duymaq, anlamaq lazımdır.

***

Əyilən adamlar bic olur, əyilən adamlar gic olur, əyilən adamlar əyri olur, əyilən adamlar öz işlərinin xatirinə ləyaqətdən, şərəfdən, mərdlikdən uzaq olurlar.

***

Əyilməyi özünə vərdiş edənin birisi deyir ki, o, ona görə əyilir ki, sonra dikələ bilsin. Dikəlmək deyəndə o, dolanmağı, yaşamağı nəzərdə tutur. Beləliklə, o, əyilməyi, bu aciz işi həyatının tərkibinə çevirir.

***

Hər bir şeyə hazır olmaq lazımdır. Yaşamağa da, yaratmağa da, mübarizəyə də, hətta ölməyə də...

***

"Qurban olum düşmənə, qoymur məni düşməyə". Bu fikirlər nə qədər mənalı və məzmunludur. Bu fikri deyilənlərə görə, Zərifə xanım Əliyeva (Heydər Əliyevin həyat yoldaşı) deyirmiş.

***

Ölülərdən yox, dirilərdən qorxmaq lazımdır. Lakin insanlar bunun əksinə əməl edirlər. Dirilərdən yox, ölülərdən qorxurlar...

Birisi qəbristanlığın yanından keçirmiş. Görür ki, bir kişi qəbirlərin birinin yanında dayanıb. Elə dayanıb ki, üzü görünmür. Qəbristanlığın yanından keçən ona üzünü tutub deyir ki, məni qəbristanlığın yanından keçir,

mən qorxuram. O isə üzünü çevirib gedir, buna məhəl qoymur. Arxadan onu qorxan adam tez-tez çağırır. Bu çağırışın müqabilində o geri dönüb deyir ki, mən də ölülərdən qorxuram.

Nəyə görə insanlar dirilərdən yox, ölülərdən qorxurlar? Bunun sirrini heç kəs bilmir. Görəsən nəyə görə insanlar ölülərdən qorxurlar?!

***

Yaşamaq o qədər də asan deyil. Asan olmadığı üçün günlərin bir günü ağsaqqal bir kəs cavana üzünü tutub deyir ki, biz öz ömrümüzü bu dünyada yaşadıq, başa vurduq. Vay siz gənclərin halına.

***

Aqşin Babayev deyir ki, birisi onun hal - əhvalını soruşur. Hal - əhvaldan sonra deyir ki, yaxşı ki, torpağın üstündəyəm, torpağın altında deyiləm.

Doğrudan da, torpağın hikməti adamı dəhşətə gətirir. Torpaq insanları üstündə də gəzdirir, torpaq insanı qoynuna alıb öz bağrında uyudur da. Torpaq müqəddəsdir. Fərq insandadır. İnsanların bir qismi torpağın altında, bir qismi isə torpağın üstündədir.

***

Mən klassikləri həm də ona görə sevirəm ki, oxuyuram ki, onlardan hər zaman öyrənirəm.

***

Mən öyrəndiyim adamların hər birinə özümü borclu sayıram.

***

Mərdlik, mərdlik və sərtlik kişilik xüsusiyyətidir.

***

Mənəm - mənəm dəyənlər məşğul olduqları sahəyə faciə gətirə bilərlər.

***

Təmənnasız dost olanlar çox azdır.

***

Ürəkdən gələnlərə görə insanları qınamaq olmaz.

***

Mənim atam da, anam da çox doğru, dürüst, zəhmətkeş, mərd adamlar olublar.

***

Anam qədər zərif, kövrək, humanist, övladına məhəbbətli qadın-xanım görməmişəm.

***

İnsan idrakdan, ağıldan kənarda nə iş görürsə, başa düşməlidir ki, nəticə faciəyə doğru gedə bilər.

* * *

Ruhən, qəlbən yaxın olan bütün adamları özümə qohum hesab edirəm.

* * *

Adamlığı zəif olan adamlar elə bilirlər ki, hər şeyi bilirlər. Halbuki hər şeyi bilmək yalnız və yalnız Allaha məxsusdur.

* * *

Qabaran və çəkilən dalğalar olmasa, dəniz təmizlənməz.

* * *

Sevgi elə bir hissdir ki, onu uzun müddət gizli saxlamaq olmaz.

* * *

Haqqı dərk etmək ən böyük dərkdir.

* * *

Haqqı dərk etmək insanlarda qorxaqlıq və yaltaqlıq hissini heçə endirir.

* * *

Sevgisi olmayan insanlar var.

* * *

Kamil olmaq ali olmaqdır.

* * *

Maddi aləmin mənəvi aləmi üstələdiyi yerdə eşq (ilahi eşq) yoxdur.

* * *

Elmdən kənarda heç nə yoxdur. Hər bir şey elmin ölçüsündə yaranır.

* * *

Allahın ən sevimli bəndələri ruhunun quludur. Belə insanlarda nəfs ruha tabe olur.

* * *

Deyilənə görə, iki ovçu ceyran ovuna çıxıbmış. Onlar bir ceyranı qovub haldan salırlar. Ceyran haldan düşüb yorulanda dayanır. Ovçuların üzünə mənalı-mənalı baxır. Bəlkə də bu mənalı baxışda ovçulardan soruşurmuş ki, məndən nə istəyirsiniz?! Bu mənalı baxışın müqabilində ovçular ceyrandan əl çəkirlər.

* * *

Adam var ki, heç kimi eşitmir. Səni, məni, onu, bizi, sizi, onları eşitmir. Ancaq adam var ki, eşitmək bir yana, hiss edir, duyur. Səni, məni, onu, bizi, onları hiss edir, duyur.

* * *

Sovet dövründə Tibb Universitetində rus dili fənnindən bir tələbəni müəllim qəsdən kəsibmiş. Müəllimin tələbənin yaxın bir qohumu ilə (dayısı ilə) ziddiyyəti varmış. Həmin tələbə hər dəfə göndəriş alıb imtahana girirmiş, müəllim isə yenidən onu kəsirmiş. Bu hadisəni tələbə valideynlərinə demirmiş. İş o yerə gəlib çatır ki,

sonuncu göndərişi tələbəyə verirlər. Tələbə vəziyyəti dərindən bildiyindən məsələni atasına çatdırır. Atası oğluna deyir ki, imtahana getməsin. Sabah onun özü gedib müəllimlə görüşəcəkdir. Oğlu fikirləşir ki, atası müəllimin yanına gedib ona nə deyəcəkdir. Axı müəllim neçə vaxtdır öz tərsliyindən dönmür. Tələbənin atası səhər tezdən müəllimi görmək üçün Tibb Universitetinə gedir. Axşam evə qayıdanda oğluna deyir ki, narahat olmasın və sabah imtahanını verməyə getsin. Belə də olur. Səhərisi tələbə gedib imtahanını verir, müəllim onun qiymətini yazır. Ancaq tələbə həmişə fikirləşir ki, necə oldu ki, rus dili müəllimi ona qiymət yazdı. Günlərin birində atasından bunu soruşur. Atası deyir ki, o, rus dili müəllimi ilə görüşüb, hal-əhval tutduqdan sonra ona belə bir sual verir. Deyir ki, əgər sən həyətində bir ağac əkib fikirləşirsən ki, nə vaxtsa bu ağacın kölgəsində əyləşəcəksən. Birdən bu ağacı gəlib bir uşaq kəssə nə edərsən? Müəllim deyir ki, uşağa nə etmək olar. Bu zaman tələbənin atası deyir ki, əgər ağacı böyük bir adam, ağıllı bir adam kəssə sən nə edərsən? Müəllim deyir ki, mən o böyük, ağıllı adama əsəbiləşərəm. Bu vaxt tələbənin atası deyir ki, axı mən də əsəbiləşirəm. Mənim arzumdur ki, oğlum həkim olsun. Qocalanda mənə baxsın, xidmətimdə dayansın. İndi sən onu kəsirsən. Mən buna əsəbiləşirəm. Bu söhbətdən rus dili müəllimi böyük bir dərs alır. Tələbənin qiymətini yazır. Deməli, ağıllı söz-söhbət hər şeyi həll edə bilir. Bu ağıllı söhbətin

sahibi isə, yəni tələbənin atası Kürdəmirli Aşıq Ağalar olur. Məşhur Mirzə Bilalın (aşığın) oğlu Aşıq Ağalar. Tələbə isə onun övladı, oğlu Rauf olur.

* * *

Molla qəbristanlıqda ölünü dəfn edərkən ərəb dilində quran oxuyurmuş. Ölünü qəbrin içinə qoyarkən onun yaxın qohumlarından birinin qəbrin içinə düşməsini deyir. Yaxın qohumlardan biri qəbrin içinə düşür. Molla həmin adama deyir ki, quranı oxuduqca o da ölünü tez-tez əli ilə dümsükləsin. Guya belə olduqda ölü quranı eşidir, anlayır. Ölünün yaxın qohumu əsəbiləşir. Mollaya deyir ki, a kişi, 60 ildən çoxdur mən buna Azərbaycan dilində nə dedimsə, məni eşitmədi, anlamadı. İndi bu ölüb, ərəb dilində sənin oxuduqlarını necə anlaya bilər?!

* * *

Dünya öz tarazlığını itirir. Bunun çoxlu göstəriciləri var. Biri də odur ki, dünyanın əksər yerlərində insana insan kimi qiymət yoxdur. Sanki insanlığın sonuna yaxınlaşmaq, yaxud da ona doğru hərəkət etmək faciədir.

Dünyanın düzəlməsi üçün hər bir insana insan kimi yanaşmaq lazımdır. Hər bir insanın özünə, qabiliyyətinə, fəaliyyətinə, insani keyfiyyətlərinə görə qiymət vermək lazımdır. Ancaq belə deyil. İnsanlara özlərinə görə yox, arxalarına, himayədarlarına, kimin adamı olmalarına görə qiymət verirlər. İnsanlara olan münasibəti də bu cür

qururlar. Bu isə dünyanı fəlakətə aparır. Bu cür münasibət üzrə yaranan fəlakəti heç cür qəbul etmək istəmirəm. Bunlara son qoymaq üçün insan, eləcə də insanlar kamilləşməlidir. Səməd Vurğun demişkən:

*Qalib gələcəkmi cahanda kamal?!*

* * *

Bəzən deyirlər ki, filankəsin gözündə var. Yəni filankəsin gözü dəyə bilər. Bu, mif deyil, həqiqətdir.

Günlərin birində birisi vəzifəyə keçmiş, təzəcə vəzifə tutmuş bir adamın yanına gedir. Sən demə bu adamın gözündə varmış. Elə oradaca vəzifəli adamın oturduğu stolun ayağının biri sınır. Gözdə olana bax...

* * *

Təbiətlə bağlı verilişlərin birində cənnət quşunu göstərirdilər. Nə qədər gözəl görkəmi olan bir quş idi. Quş bəzən elə bir vəziyyət alırdı ki, xanım geyimində olurdu. Sanki xanım kofta geyinmiş vəziyyətdə ayaq üstə durur. Cənnət quşunun görkəmi ilahi bir gözəlliyi xatırladırdı.

*03.07.2015*

# Mən - biz, sən - siz, o - onlar barədə deyimlərim – XI yazı

Dan yeri qızaranda günəşin yaratdığı poetikliyi heç nə ilə müqayisə etmək olmaz.

* * *

Günəş qürub edəndə diqqəti çox cəlb edir.

* * *

Qarışqalar həyatın qaynadığı məqamı təsdiq edir.

* * *

Bütün canlılar yaratdığını qoruyur.

* * *

Tısbağalar çox yumurtalayır və uzun ömürlü olur.

* * *

Təbiətin rəngarəngliyi və qeyri-adiliyi Allahın möcüzəsidir.

* * *

Su quzğunu suyu seyr edir. Suda balıq görən kimi suya cumur və balıqları ovlayır.

* * *

İnsanın daxilindəki sevgi onun özündən də güclüdür.

* * *

XIX əsr heç bir əsrə bənzəmir. XIX əsrdə elmlərin sahələri müstəqilləşdi. XIX əsrdə millət formalaşdı. XIX əsrdə maarifçilik genişləndi. Odur ki, XIX əsr xüsusi olaraq araşdırılmalıdır. XIX əsrin ədəbi simaları xüsusi olaraq tədqiq olunmalıdır.

* * *

İnsanlarda yaşamaq istəyi güclənir. Həyata bağlılıq artır. XXI əsrdə insanlarda həyat eşqi güclənir. Yaşamaq həvəsi böyüyür. Görünür ki, elmi - texniki tərəqqinin imkanları insanlarda yaşamaq və həyat eşqini zövqə çevirir. Elə bir zövq ki onun əsasında həyatı dərk etmək, həyatı anlamaq, dünyanın mahiyyət və məzmununa varmaq dayanır.

* * *

İnsanın ağlına, yoxsa ürəyinə güc düşür? Bu suala hərə bir cür cavab verə bilər. Mənim cavabım belədir ki, ürəyə daha çox güc düşür. Ağıl ürəkdən yuxarıda olduğu üçün o da ürəyi yükləyir.

* * *

Xeyirxah adamlar xeyirxahlıq edəndə gül kimi açılırlar.

* * *

Bədxah adamlar bədxahlıq edəndə gül kimi açılırlar.

* * *

Yaltaq adamlar, ikiüzlü adamlar bədxahlıq edəndə adamın üzünə gülürlər.

* * *

Adamlığı olmayan "adamlar" lazım olana qədər istifadə edirlər. Lazım olanı əldə etdikdən sonra səni tanımırlar, heç tanımaq da istəmirlər.

* * *

Görəsən həyatın nəbzini tutanların nəbzi dəqiqədə neçə dəfə vurur?!

* * *

Özünü haqlı hesab edənlərin haqqını kim yoxlayır?

* * *

Gözüm görənə qədər səni görürəm. Ağlım kəsənə qədər səni dərk edirəm. Ancaq gözüm görməyən yerdə, ağlım kəsməyən yerdə nə etdiyini bilmirəm.

* * *

Çox bilmiş adamlar bəzən istedadlı, enerjili adamları əllərində tutub saxlayırlar. Məhz əllərində tutub saxlayırlar. İmkan vermirlər ki, həmin istedadlı adam qabağa

getsin. Özləri üçün işlədirlər. Öz işlərini onların vasitəsilə irəli aparırlar. Tez - tez istedadlı adamlara yalançı vədlər verirlər. Bu yalançı vədlərlə onların (istedadlı adamların) başını qatırlar. Bəzən istedadlı adamları bu cür məhv edirlər.

* * *

Pis adamların çörəyi dizinin üstündə olur. Onlar çörəyə qiymət vermirlər. Kəsdikləri çörəyə hörmət qoymurlar. Düz çörək, duz çörək onları birləşdirmir.

Yaxşı adamlar çörəyə qiymət verirlər. Çörək kəsdikləri adamlara qiymət verirlər. Düz çörək, duz çörək onları birləşdirir.

* * *

İslam aləmində din müsəlmanları və onların ölkələrini bir-biri ilə birləşdirmir. Bunun səbəbini axtarmaq lazımdır.

* * *

Deyilənə görə, İsi Məlikzadə Əli Vəliyevə deyir ki, Əli müəllim, sizin gəncliyinizi xatırladan, gəncliyinizə oxşayan bir oğlan var. Həmin oğlan jurnalist –şair Malik Fərrux imiş. Malik Fərrux ucaboy, yaraşıqlı bir oğlan imiş. Bu sözü Əli Vəliyevə deyəndə o, otaqdan çölə çıxırmış. Otağa geri qayıdanda deyir ki, İsi, məni hər itə, qurda oxşatmayın.

* * *

Söz həm də ona görə ucuzlaşıb ki, adamı söz deməyə məcbur edirlər. Belə ki, hərə öz cızmaqarası barədə söz demək üçün səni dildən - dişdən salır. Məcbur edir ki, onun məqaləsi, kitabı barədə boğazdanyuxarı söz deyəsən. Belə də olur. Nəticədə söz qiymətdən, dəyərdən düşür. Söz ucuzlaşır. Sözü beləcə yavaş - yavaş ucuzlaşdırırıq.

Bu gün sözü ucuzlaşdıran bir məsələ də saysız - hesabsız kitab təqdimatlarının çoxalmasıdır. Bu təqdimatlar o qədər çoxalıb ki, boğazdanyuxarı söz deyənlərin meydanı genişlənib. Onlar nə istəyirlər deyirlər, nə istəyirlər yazırlar. Təki onların qarşısında təqdim olunan kitablar olsun. Onlar təqdimat mərasiminə yığışdıqları kitabın bəzən heç üzünü də açmırlar, içində nə var onu da oxumurlar. Ancaq sözü ucuz edərək ucuz da danışırlar. İstənilən bir kitab təzəcə təqdim olunursa, həmin kitab oxunmamış necə təriflənə bilər, necə təhlil oluna bilər? Bu, sözü dəyərdən salan bir iş kimi hamımızın başını qatıbdır. Bəzən vaxtımızı belə mənasız işlərə sərf etməklə, ağına - bozuna baxmadan boğazdanyuxarı söz deməklə sözümüzü də, özümüzü də ucuzlaşdırırıq.

* * *

Müasir dövrün insanları nədənsə tez bir zamanda məşhur olmaq, tanınmaq, nüfuz qazanmaq, əzab - əziyyətə qatılmaq istəməmək arzusundadırlar. Belə yerdə deyirlər: “Allah bəlalərindən saxlasın”.

* * *

Ucsuz - bucaqsız səhralarda torpağın cızdağı çıxır. Günəş şüaları torpağı elə yandırır ki, yazıq torpaq bir damcı suya möhtac qalır. Bəzən görürsən ki, bomboz torpaq cadar-cadar olub, bomboz torpaq elə bil yanıb külə dönüb.

Günəş şüalarının torpağı yandırması torpaqda çatlaqlar yaradır. Torpaq belə olanda acgözlüklə su istəyir, yağışa möhtac olur. Torpaqdakı çatlaqlar-çatlar elə bir torpağın bağrını yarır, ürəyini deşir. Belə olanda torpağın suya ehtiyacı olur. Yağış yağanda belə çatlaqlar-çatlar birləşir. Yağış o çatlaqların-çatların arasına dolur, torpağı yumşaldır. Qurumuş torpaq dənələrini bir-birinə birləşdirir. Ona görə də bəzən el arasında belə deyirlər: Nə olub, yağış yağıb torpaqdakı çatlaqlar-çatlar birləşib.

* * *

Təbiətin başına olmazın oyun açırıq. Guya ki, təbiəti özümüzə tabe edirik. Unuduruq ki, təbiət bizdən əvvəl mövcud olub. Biz ona uyğunlaşmalıyıq. Təbiəti süni şəkildə dəyişə - dəyişə özümüz dəyişirik. Özümüz süniləşirik.

İnsanın təbiət üzərində hakim olmaq iddiası eqoizmidir. Bu eqoizmi təbiət insana bağışlamır.

* * *

İnsan təbiətə də, ilin fəsillərinə də uyğunlaşmalıdır. Hər fəslin imkanlarından düzgün faydalanmalıdır.

Bəzən insanın gündə neçə saat yatması barədə həkimlər fikir söyləyirlər. İnsanın özü də, bədəni də təbiətin bir parçasıdır. Ona görə də insan təbiətə uyğunlaşaraq yatmalıdır. Belə ki, qaranlıq çökəndə insan yatmalıdır. İşıqlaşanda insan yuxudan durmalıdır. Hələ keçmişdə saat olmadığı dövrdə qədim insanlar da bu cür yatıb və yuxudan durublar. Məsələn yayda tez işıqlanır və gec qaranlıq çökür. Deməli, insan buna uyğun olaraq yatmalı və durmalıdır. Yaxud qışda tez qaranlıq çökür və gec işıqlanır. Yenə də insan buna uyğun olaraq yatmalı və durmalıdır. Beləliklə, bədənin yatmağa və işləməyə olan tələbatı da bu cür ödənilməlidir.

* * *

Səbr Allahın insana vergisidir.

* * *

İnsanın əlindəki barmaqlar ovucda birlik yaradır. Barmaqların ovucda qatlanaraq birləşməsi birlikdir, yumruqdur.

* * *

İnsan qorxu hisslərinin təsiri altında başqasına yaxşılıq etməməlidir. Yaxşılıq insanın iç dünyasından gəlməlidir. Yaxşılıq insani bir keyfiyyət olmalıdır.

* * *

Dərdi dərd üstünə yığıb dərddən imarət tikənlər var.

* * *

Bəzi insanlar köhnə vərdişlərindən əl çəkmirlər.

* * *

İnsanların xeyli bir qismi özünü və başqalarını görə bilmir. Məsələn, birisi ağzında siqaret səninlə üz - üzə dayanır. Tüstünü üzünə üfürür, siqaretinin külünü az qala sənin üz - gözünə və üstünə tökür. Özünün isə heç vecinə olmur.

* * *

Daşlar daş olub divarları bəzəyənə qədər başlarına nələr gəldiyini kim bilir?!

* * *

Görəsən nazımızı çəkənlər çoxdur, yoxsa nazını çəkdiklərimiz çoxdur?!

* * *

Dünyaya gələnlərlə bu dünyadan gedənlərin fərqi nədədir?!

* * *

Biz hadisələrin harasındayıq? Kənarındayıq, içindəyik, yoxsa hadisələr içimizdədir?!

* * *

Zaqatala ərazisində məskunlaşmış axvaxlar öz dilini qoruyur. Axvaxlar Dağıstan ərazisində 5 kənddə də

yaşayırlar. Onları bəzən səhv olaraq avar adlandırıblar. Hər kəsi öz adı ilə niyə çağırmırlar?

* * *

Oyuncaqlar da, robotlar da insanların yaratdığı əllamələrdir. Bu əllamələr çoxaldıqca insanlıq azalır. İnsan öz insanlıq məsuliyyətini itirir.

* * *

Dünyanın başını qatanlar bir vaxt ayılıb görəcəklər ki, özlərinin də axırı çatıbdır.

* * *

İnsanlar dünyadan həmişə narazı qalır. Ancaq dünyaya həmişə insan gəlir.

*09.07.2015*

# Mən - biz, sən - siz, o - onlar barədə deyimlərim – XII yazı

İnsan iki ömrü yaşayır. İnsanın birinci ömrünü bütün insanlar kimi, bütün canlılar da yaşayır. İnsan ikinci ömrünü öləndən sonra yaşayır. Daha doğrusu, öləndən sonra insanın ikinci ömrü başlayır. İkinci ömrünü yaşayan insanlar az olur. Onlar minlərin, milyonların içərisindən seçilənlər olur. Onlar minlərin, milyonların içərisindən seçilən ləyaqətlilər, qeyrətlilər, ədalətlilər, mərhəmətlilər, xeyirxahlar olur. Onların sayı çox olmur.

***

Adamlardan istifadə edənlər yalançı adamlar qədər qorxuludur. Onlar yalançı adamlar qədər etibarsızdır. Onlar yalançı adamlar qədər sədaqətsizdir. Belələri tez-gec inamını itirir. Tez-gec onlara inanan olmur. Belə olduqda onlar dəyərdən düşürlər.

***

Mən bir məsələyə həmişə təəccüblə baxıram: bəzi insanlar bu ağılla bu qədər işləri necə görürlər?!

***

Təbii seçmə yolu ilə insanlar seçilir. Onlar təbii seçmə yolu ilə bir-birinin həyatından, tərcümeyi-halından

çıxıb gedir. Qalanlar az olur. İnsanların həyatında, tərcümeyi-halında qalanlardan söhbət gedir. Həmin qalanlar içərisində dostları, yaxınları, sədaqətliləri axtarmaq olar. Həm də həmin qalanlar içərisində düşmənləri və namərdləri də axtarmaq olar. Əslində həyat (insanın həyatı) dostlar, yaxınlar, sədaqətlilərlə yanaşı, düşmənlərin, namərdlərin mövcud olduğu illərin, günlərin, anların içərisindədir.

***

Bəzi adamlar səhv olduqlarını başa düşmürlər. Ona görə də belələri öz səhv işlərini, adam içinə çıxmağa üzü olmayan işlərini utanmadan, çəkinmədən təqdim edirlər, göstərirlər. Onlar elə işlər törədirlər ki, elə işlərin arxasında dayanırlar ki, bunu yalnız və yalnız dayaz adamlar edə bilər. Təəssüflər olsun ki, onlar dayaz olduqlarını bilmirlər.

***

Elmi-texniki tərəqqi insanların mənəviyyatına təsir edir. İnsanları qeyri-səmimi edir. İnsanları yalan danışmağa vadar edir. İnkişaf elmi-texniki tərəqqiyə söykənmədikdə hər şey təbii olur. Elmi-texniki tərəqqi təbiiliyi insanların əlindən alır. Təbii düşünənlər, təbii danışanlar, təbii olanlar çox azdır. Ancaq onların təbiiliyini qısqananlar gün-gündən çoxalır. İnsanlar öz təbiiliklərini itirməkdən usanmayıb təbiətin təbiiliyini itirməyə çalışırlar. Təbiətin başına elə olmazın oyunlar açırlar ki, təbiət nə edəcəyini bilmir. Təbiətə hakim olan insanlar təbiətin

təbiiliyini əlindən alıblar. Təbiət qədər insanın şıltaqlıqlarına dözən heç nə yoxdur.

***

Şadlıq evlərinin qapısından içəri girən kimi insanı ilk qarşılayanlardan biri də pul qutusu olur. Birinin üstünə “Oğlan evi”, digərinin üstünə “Qız evi” yazılmış bu pul qutuları təzəcə qurulacaq ailənin təməlini belə əks etdirir. Buradan da aydınca görünür ki, mənəvi marağı maddi maraq üstələyir. Bəy və gəlinin xoşbəxt olmasına gedən yol pul qutularının nəzarətindən keçir. Yenə də hər şey gəlib çıxır pulun üstünə. Ancaq bu pulun bəy və gəlinə nə xeyri?!

***

Bir övlad atasından pul istəyir və ona deyir ki, özümə geyim alacağam. Atası övladına deyir ki, nə alacaqsan? Övlad atasına deyir:

– Şalvar-malvar, ayaqqabı-mayaqqabı, köynək-möynək, kostyum-mostyom...

Atası deyir:

– Nə qədər pul lazımdır?

Övlad cavab verir:

– İki yüz manat.

Ata övladına yüz manat pul verir. Övlad narazılıqla:

– Ata, axı iki yüz manat dedim.

Ata səbrlə, təmkinlə deyir:

– Bala, alacağın geyimlərin içərisindən malvarı, mayaqqabını, möynəki, mostyomu... çıxsan bu pul sənə bəs edəcəkdir.

***

Bir yaşlı qadın dedi ki, onun həyat yoldaşı çox vətənpərvər olubdur. O, dünyasını dəyişən zaman həyat yoldaşı fikirləşib ki, son sözü onu övladlarına tapşırmaq olacaqdır. Ancaq ömrünün son anında kişi yatağında dirsəklənərək yumruğunu sıxır və deyir: Yaşasın vətən! Bununla da canını tapşırır. Bu hadisə vətənindən qaçqın olan bir kişi ilə bağlı olan hadisədir.

***

Birisi bir yerdə torpaq zəbt edir və ora gətirib tikiliş aparmaq üçün daş tökdürür. Ancaq iş elə gətirir ki, həmin zəbt etdiyi torpağı ala bilmir, rəsmiləşdirə bilmir. Başqa birisi bu torpağı rəsmi şəkildə alır və rəsmiləşdirir. Və daş tökən adama deyir ki, sənin gətirib tökdüyün daşı mən divara qoya bilmərəm. Odur ki, bu daşlarını yığışdır və apar. Belə də olur. Daş tökən adam daşlarını yığışdırıb aparır. Torpağı qanuni yolla alan adam bunu halallıq naminə edir.

***

Gəncə tərəfdə bir kişi dağın çılpaq ətəyinə ağaclar əkirmiş. O, meşədən saysız-hesabsız ağacları kökündən çıxarıb dağın çılpaq ətəyinə basdırırmış. Sonralar dağın

çılpaq ətəyi ağaclarla dolur. İndi həmin əraziyə ağac əkən kişinin adı ilə Abbasın bağı deyirlər. Bu cür bağ salmaq ən böyük xidmətdir. Bir ağacı əkməyənlərə, bir daşı daşüstə qoymayanlara yaxşı bir nümunədir.

***

Rəsul Rzanın doğum gününü qeyd etmək üçün "Fəxri xiyaban"a getmişdik. Şair Oqtay Rza tənqidçi Vaqif Yusifliyə dedi ki, məqalənizi qəzetdə oxudum. O da qayıdıb dedi ki, yazmaqdan başqa əlimizdən nə gəlir ki.

***

Yoluma nə çıxırsa, qismətimdir. Yoluma qızılgül də çıxır, qanqal da, tikan da. Bunların hamısı qismətimdir. Hələ onu demirəm ki, arxadan və öndən əsən küləklər başıma nələr gətirir. Bəzən üst-başımı, sir-sifətimi o qədər döyəcləyirlər ki, lap məni əldən salırlar. Başımın üstündə şığıyan günəş şüası ilə bulud topaları bir-birinə güzəşt etmək istəmirlər. Onlar bir-birini və elə mənim özümü də əldən salırlar. Hiss edirəm ki, uzaqda, lap uzaqda bir işıq var. Orada məni əldən-dildən salan heç nə yoxdur. O işığın xatirinə hər şeyə dözürəm. O işığın xatirinə incimiş ruhuma sığal çəkirəm. O işığın xatirinə incimiş ruhumun ağrılarına dözürəm. O işığın xatirinə incimiş ruhumu özümlə gəzdirirəm. O işığın xatirinə incimiş ruhumu yaşadıram. O işığın xatirinə incimiş ruhuma vəkillik edirəm. O işığın xatirinə yaşayıram, içdiyim

zəhər və çəkdiyim əzablara dözürəm. Ömrümə, günümə buxov vuranların buxovlarına dözürəm. Havam çatmasa belə, öz ürəyimə, özümə gücüm çatdığından dözürəm. Axı qarşıda işıq var...

***

Hərdən siqaret çəkənlərə qibtə edirəm. Onlar bu dünyanın ağrı-acısını çəkdikləri siqaretin içindəki tütündə yandırır, tüstüsünü göyə sovururlar. Bununla da ağrı-acının özünə bir dərs verirlər.

***

Gözünə eynək taxıb gözlərini günəşdən, küləkdən, soyuqdan, sudan qorumaq istəyənlər də az bilmir. Bəlkə də başqalarını görə bilməyənlərin gözlərində ikiqat, üçqat, yüzqat eynək vardır. Ona görə də onlar yalnız özlərini görürlər. Belələri az bilmirlər.

***

İnsanların xarakteri müxtəlif olduğu kimi, bədbəxt və xoşbəxt insanların da xarakteri bir-birindən fərqlənir. Eləsi var ki, özü xoşbəxtdirsə, çalışır ki, hamı xoşbəxt olsun. Eləsi də var ki, özü bədbəxtdirsə, çalışır ki, hamı bədbəxt olsun. Eləsi də var ki, özü bədbəxt olsa da, başqalarının bədbəxt olmasını istəmir. Belə ki, arvadı deyingən olan bir kişidən soruşurlar:

– Həyat yoldaşın deyingəndir. Onu niyə boşamırsan?

Kişi cavab verir:

– Mənim baş-beynimi aparmaqla məni bədbəxt edibdir. Mən onu boşasam, başqa birisinə ərə gedəcək və onu da bədbəxt edəcəkdir. Məni bədbəxt etdiyi bəs deyilmi?

***

Cazibədarlıq nədir? İddiadır, gücdür, bədbəxtlikdir, xoşbəxtlikdir? Bilmirəm. Onun nə olduğunu itirəndən sonra bilmək olar.

***

Bəzən ölümün özü ölür.

***

Buludlar ağlamağa yer axtarır.

***

Çayın, gölün, dənizin, okeanın suları buludun hansı damcılarını gözləyir? Bunu çaydan, göldən, dənizdən, okeandan soruşa bilərsənmi?

***

Heç ulduzlar da əbədi və möhtəşəm parlamır. Bunu gecədən yox, gündüzdən soruşsan, sənə açıq danışacaq.

***

Həyalı yaşamaq hər adamın işi deyil.

***

İnsan beynində çoxlu fikirlər mehmandır.

***

Səmanın üzü qarışanda günəş, ay, ulduz görünmür.

***

Duman, toz, torpaq müharibədir. Yerin, göyün başını qatmışdır.

***

Vəhşi çiçəklər içərisində zanbaq görünmür.

***

Buludlar yağışa çevrilmədən sulara qarışa bilməz.

***

Ölüm o qədər çoxalıb ki, dəyərdən düşübdür.

***

Yazda yağan yağış təbiətə nəğmə oxuyur.

***

Ölüm o qədər çoxalıb ki, artıq adiləşibdir.

***

Görəsən yer üzünü işıqlandıran Günəşin, göy üzünə çıxan Ayın və sayrışan ulduzların Allahdan başqa kimlərəsə borcu varmı?

***

Ölümü çoxları heç vecinə almır.

***

Birisinin bağında çoxlu sayda meyvə ağacları varmış. Bağ sahibi o qədər səxavətli imiş ki, dost-tanışdan başqa, hər yoldan keçən də onun bağının meyvəsindən dadarmış. Günlərin birində yoldan ötən bir kişi bağdakı meyvələrdən dadmaq istəyəndə həyətdəki it hürməyə başlayır. İt fasiləsiz olaraq o qədər hürür ki, kişinin baş-beynini aparır. Vəziyyəti belə görən kişi deyir ki, ay Allahın heyvanı, niyə hürürsən?! Bağ o qədər böyükdür və meyvələr o qədər çoxdur ki, sənə də, mənə də, hamımıza da çatar. Bağ sahibinin səxavətinə isə söz ola bilməz. Daha niyə hürürsən?!

***

Gərək sözü deməyi də bacarasan. Sözü elə deyəsən ki, qarşıdakının kimliyindən, nəçiliyindən asılı olmayaraq səni anlaya bilsin. Nə isə... Bir kişi qonşu kənddəki bir tanışının oğlunun toyuna gedirmiş. Həyətindəki iti də ondan əl çəkmir və arxasına düşüb gedir. Kişi nə qədər iti geri qaytarmaq istəsə də, it geri qayıtmır. Birdən kişi görür ki, artıq qonşu kəndə yaxınlaşıb, it isə ondan ayrılmır. Elə bu dəmdə bərk əsəbləşir. İtin üstünə qışqıraraq deyir ki, ay Allahın iti, onda sən al bu pulu, get toya, iştirak et toyda, pulu da yazıl. Mən isə geri qayıdım və sənin

zəncirini boynuma bağlayıb həyətdə hürüm. İt sahibinin əsəbləşərək ona dediyi bu sözdən sonra onu başa düşür və geri qayıdır.

***

Keçmişlə indinin bir fərqi də ondadır ki, keçmişdə arzudan arzu doğardı, indi isə problemdən problem yaranır.

*21.07.2015*

# Diri ikən özlərinə qəbir qazdıranlar...

Elələri var ki, diri ikən özlərinin qəbirlərini qazdırırlar. Hətta qəbrin başına öz şəkillərini də böyüdüb qoyurlar. Tez-tez qəbirlərini ziyarətə də gedirlər, yasin də oxudurlar. Bayram günlərində öz qəbirlərinə olan ziyarətlərin və oxutduqları yasinlərin sayını da artırırlar. Ölülərin qəbirlərindən daha çox öz qəbirlərini ziyarət edirlər. Qəribədir, insan diri ikən özünə qəbir qazdırır və qəbrini ziyarət edir, yasin oxutdurur. Hələ onu demirəm ki, diri ikən özlərinə qəbir yeri götürürlər. Bunun fəlsəfəsi nədir? Mahiyyəti nədir? Bunu edənlər nə demək istəyirlər? Bəlkə də ölümlərini yada salırlar. Bəlkə ölümdən qaçmağın mümkün olmadığını demək istəyirlər. Bəlkə də bütün bu işləri heç mahiyyətinə varmadan edirlər. Bəlkələr çoxdur... Bir bəlkə də var. Diri ikən özlərinə qəbir qazdıranlara qazdırdıqları qəbir nəsib olacaqmı?!

Elələri var ki, diri ikən qəbir daşlarını da hazırladırlar. Yenə də bəlkələr yaranır. Bəlkə insan öləcəyi günü düşünür. Bəlkə insan öləcəyi günü yada salır. Bəlkələr yenə də çoxdur... Bu bəlkələr barədə kim nə düşünür?! Və düşünürmü?!

Bəlkə də belələri göz qaytarırlar. Ömürlərini uzadırlar. Ancaq məni ayrı bir məsələ narahat edir. Birdən dirilərin rəqabəti başlaya bilər. Onlar rəqabətə girib özləri

üçün qəbir yerləri, qəbir daşları düzəltdirə bilərlər. Diriykən özlərinə təmtəraqlı ehsanlar verə bilərlər. Vay o gündən. Vay o gündən ki, təmtəraqlı yaşayanlar diri ikən təmtəraqlı qəbirlərini də fərqləndirsinlər. Necə ki, ölülərin qəbirlərini fərqləndirirlər. Axı təmtəraqlı həyat tərzi, təmtəraqlı qəbirlər insanlığa nə verir? Görünür ki, bu dünyada təmtəraqlı yaşayanlar o dünyada da təmtəraqlı qəbirləri ilə fərqlənmək istəyirlər. Bunun çıxış yolu varmı? Bəlkə də var... Var... Bir çıxış yolu da odur ki, gərək xislətimizi dəyişək.

Bütün maddi nemətlər dirilər üçündür. Dirilər də bir çox şeylərin naminə bir-birindən fərqlənirlər. Maddi nemətlər naminə hər pis əmələ gedirlər və bir-birindən fərqlənirlər. Bu dünyada hər şey dirilər üçündür. Gəlin diriləri qoruyaq və dirilərdən qorunaq. Dirilərin daxilində eqoizmin artması, güclənməsi bəşəriyyətin faciəsidir. İnsanların daxilində eqoizmin artması, güclənməsi bəşəriyyət üçün qorxudur. Ona görə də, ay insanlar, eqoist olmayın, daxilinizdəki eqoizmi boğun, daxilinizdəki eqoizmi dəfn edin, daxilinizdəki eqoizmə qəbir qazın, daxilinizdəki eqoizmə başdaşı qoyun.

*27.07.2015*

# Bədxahlıqlarını “şöhrət” hesab edənlərə

Bir-biri ilə intriqada, ziddiyyətdə olan adamlardan uzaq olmaq lazımdır. Onlar çalışırlar ki, öz intriqalarına başqalarını da qoşsunlar. Bədbəxt o kəslərdir ki, bir-biri ilə intriqada, ziddiyyətdə olanların intriqasına, ziddiyyətinə qoşulurlar. Beləlləri unutmasınlar ki, onlar intriqaya, ziddiyyətə qoşulmaqla intriqaların, ziddiyyətdə olanların əlində oyuncaq olurlar. Oyuncaqlar isə tez-gec sınır, dağılır. Yenə də qazananlar başqaları olur. Ona görə də başqalarına yem olmamaq üçün insan öz yolunu getməlidir, özü olmalıdır. Başqasının probleminin hədəfinə çevrilməməlidir. İmkan verməməlidir ki, problem yaradanlar ondan istifadə etsin. İmkan verməməlidir ki, problem yaradanların problemləri ilə o, məşğul olsun. Onsuz da təcrübə onu göstərir ki, dünyada problem yaradanlar az olmayıbdır, indi də var. Onların yaratdığı problemlərlə ağıllı adamlar həmişə üz-üzə qalıbdır. Bizim hər birimiz dünyaya gələnə qədər dünyada çoxlu problemlər olubdur. Bizim hər birimiz istəsək də, istəməsək də, dünyada mövcud olan hazır problemləri qəbul etmişik. İndi bu azmış kimi intriqaların, ziddiyyətli adamların probleminə qoşulmaq bağışlanılmaz haldır. Bu, süni şəkildə insanın özünə problem yaratmasıdır. Bu, süni şəkildə insanın

özünü problemin içərisinə atmasıdır. Bu, süni şəkildə insanın özünü məhv etməsidir. Bu, süni şəkildə insanın öz başını qatmasıdır. Yaxşı deyiblər ki, "İnsanın özü özünə elədiyini el yığışsa edə bilməz".

Bir-biri ilə intriqada, ziddiyyətdə olan adamların intriqasına, ziddiyyətinə qoşulmaq bir-birinə nifrət edən adamların cərgəsinə süni şəkildə qoşulmaqdır. Nifrət də, məhəbbət də təbii olaraq yaranmalıdır. O, süni yolla yaranırsa, onda insanın təbiiliyini əlindən alır, insanın özünü süniləşdirir. Bəzən həyatda belə süni yolla məhəbbət və nifrətini bildirənlər olur. Onlar tərəflərin hansının ədalətli olub-olmamasından asılı olmayaraq birtərəfli mövqe tuturlar. Daha doğrusu, asılı olduqları, yalmandıqları tərəfdə dayanaraq o biri tərəfə öz məhəbbət və nifrətlərini bildirirlər. Belələrinin özü həmin o intriqantlardan, ziddiyyətli adamlardan qat-qat qorxulu olurlar. Ona görə ki, onlar tərəfbazlığın tərəfdarı kimi insanları və insanlığı dəyərdən salırlar. Belələri bir gündə yüz dəfə mövqelərini, münasibətlərini dəyişə bilirlər. Belələri abır-həya, ləyaqət və şərəf nə olduğunu bilmirlər. Belələri üçün müqəddəs heç nə yoxdur. Belələri üçün hamının qəbul etdiyi müqəddəslər tez-tez dəyişir. Sifətlərində, davranışlarında, münasibətlərində müqəddəslikdən uzaq olan bütün göstəricilər, əlamətlər onlar üçün adidən adi görünür. Onlar elə hesab edirlər ki, elə belə də olmalıdır. Onlar elə hesab edirlər ki, elə belə də hamıdan haqlıdırlar. Onlar elə hesab edirlər ki, elə belə də hamıdan düzdürlər.

Onlar elə hesab edirlər ki, hamıdan çox hamıya gərəkli və lazımdırlar. Onlar elə hesab edirlər ki, onlarsız heç nə yoxdur, hər şey lazımsızdır. Belələrinin nə qədər ikrah doğurduğunu ölçən tərəzi yoxdur. Heç onlar imkan verməzlər ki, belə bir tərəzini quraşdıran olsun. Axı onlar sayca o qədər çoxdur ki, qarşılarındakıları məhv etmək yolları da saysızdır, hesabsızdır. Onlar bir-birini tez tapır, tez başa düşür, tez anlayırlar. Ancaq nizam tərəzisini qurmaq istəyənlər bu barədə fikirləşmirlər. Yəni bir-biri ilə birləşmək fikrindən çox-çox uzaqdadırlar. Onlar bir-birindən uzaq olduqları üçün bədxahlar, intriqantlar bir-biri ilə yaxındırlar, tez birləşib tez də hərəkətə keçməyə hazırdırlar. Dünyadakı bütün hadisələrin kökündə bədxahların, intriqantların əli var. Belələrinin vətəni və milləti olmur. Onlar bütün bədxahlıqlarını "şöhrət" hesab edirlər. Ancaq bu "şöhrət"dən xilas olub insanları qorumaqla təsəlli tapmaq olur. Dantenin "İlahi" komediyasında deyildiyi kimi: "Ən gözəl, dadlı sözlər, nə var – işə salaraq, Get onu xilas elə, bu böyük zəhməti çək, Bundan sonra təsəlli tapa bilərəm ancaq".

Yaxud:

*"Yoxsa eşitməyirsən nələr çəkir o insan?*
*Görmürsənmi taqətdən salıb aparır onu*
*Dəniz fırtınasından daha dəhşətli tufan?" –*
*Qəlbində təkrarlayıb hər sözü, hər vurğunu*
*Kədərin əllərindən qurtarıb, sevinclərə*
*Gedən bir insan kimi qəbul etdim mən bunu,*

*Uğurlu pillələrlə gəlib çıxdım bu yerə,*
*Sənin tərifə layiq dadlı kəlamlarını,*
*Şərəfli sözlərini dinləməkçün bir kərə”*

Yaxud da:

*Birdir arzumuz bizim, buyur, gedək bərabər:*
*Sən mənim müəllimim, rəhbərim, şah vüqarım!*
*Səfərimiz başlandı qurtarantək bu sözlər,*
*Biz getdik arasıyla vəhşi uçurumların.*
*Səsləyirəm mən sizi səfillər aləminə,*
*Səsləyirəm əsrlik nalələrin içindən,*
*Səsləyirəm məhv olan nəsillər aləminə.*

(Dante. İlahi Komediya. Bakı, “Öndər nəşriyyat”, 2004, s.26-28)

*03.08.2015*

# Tarixi yaşadan daşlar – I yazı

Azərbaycan dilində *elçi daşı* ifadəsi işlənir. Belə bir *elçi daşı* evimizin qabağında vardı. Mən onun *elçi daşı* olduğunu sonralar başa düşmüşəm. Təbii ki, uşaq olanda anlamamışam. Həmin daş uzun və kvadrat şəkilli böyük bir daş idi. Onun üzərində rahatlıqla 3-4 nəfər əyləşə bilirdi. Uşaqlıqda bu daşın üzərində otururduq. Hətta bir işin arxasınca gedəndə bu daşın üzərində oturub onun halallığını alıb gedərdilər. Bu *elçi daşının* xeyir duası ilə insanlar arzu və istəklərinə çatırdılar. Görünür ki, bu daşda qeyri-adi bir güc, enerji varmış. Yeri gəlmiş-kən, onu da qeyd edək ki, daş mənfi enerjini, gözdə olan pis nə varsa, onun hamısını öz üzərinə götürə bilir. Təsa-düfi deyil ki, hər bürcün öz daşı var. Və həmin daşlardan daş-qaş kimi istifadə edirlər. Bu daş-qaşlar insanları xəbis gözlərdən qoruyur. Birisi mənə danışdı ki, o, öz bürcünün daşından hazırlanmış daş-qaşı taxıb toya gedir. Əgər o, toyda bəd gözlü, bəd niyyətli, mənfi enerjili adamların mühitində olursa, evə qayıdan kimi həmin daşlar sınır, dağılır. Deməli, daş mənfi enerjini özünə çəkməklə onu üstündə gəzdirən adamı qoruyur. Tarixən iri sal qayaların, nəhəng və iri qayalıqların, daşların olduğu yer müqəddəs hesab edilmişdir. Bu müqəddəs yerlərdən biri də Amasiya rayonunun Ellərkənd kəndində idi. Ellərkənd kəndinin yuxarı hissəsində *Maraldaş*

deyilən bir yer vardı. Burada çox qeyri-adi bir iri daş istər-istəməz insanı özünə çəkirdi. Bu daşa nə yumrudan yumru, nə də kvadratdan kvadrat daş demək olurdu. Ancaq olduqca iri və qeyri-adi daş idi. Deyilənlərə görə, vaxtilə marallar bala verərəkən, yaxud bir təhlükə olarkən bu daşın ətrafına yığışarmışlar. Bu daş bütün çətinliklərdən, bəlalardan bura yığışan maralları xilas edərmiş. İnsanlar bu daşın və onun ətrafının təmiz saxlanılmasına xüsusi diqqət yetirərdilər. Bu daşı və onun yerləşdiyi ərazini müqqədəs bir yer sayardılar. Onu da qeyd etməyi vacib bilirik ki, Amasiya rayonu, o cümlədən Ellərkənd kəndi dağlıq ərazidir. Yəni burada meşəlik yoxdur. Görünür ki, burada maralların yaşaması daha əski çağlarda olmuşdur. Və *Maraldaş* deyilən yer də daha əski çağlarda yaranmışdır. Həmin əski çağlarda bu ərazilərdə, görünür ki, meşəlik olmuşdur. Sonra təbiət dəyişmiş, iqlim dəyişmişdir. Bir sözlə, *Maraldaş* bu ərazilərin tarixi coğrafiyası və təbiəti barədə müəyyən məlumat verən mənbə, qaynaq rolunu oynayır. Onu da qeyd edək ki, bu ərazidə və Ellərkənd kəndinin digər ərazilərində ağac kolluqlarına rast gəlinirdi. Bu da təsdiq edirdi ki, həmin ərazilərin təbiəti, iqlimi sonralar dəyişmişdir.

Nəvaidə dəvənin diz çöküb oturduğunu xatırladan daş ziyarətgah var. Deyilənlərə görə, onun arxa hissəsindən keçib çıxan adamların duaları qəbul edilir, onlar istək və arzularına çatırlar.

Sabirabad rayonunda *Babasəmt* deyilən pir vardır. Bu pirin içərisində yumurtavari (uzunu enindən böyük olan) qara çay daşı vardır. Müəyyən arzu və niyyət məq-

sədilə həmin daşı yerdən qaldırırlar. Əgər kim o daşı yerdən qaldıra bilirsə, onda onun arzu və niyyəti gələcəkdə baş tutur. Qəribə burasıdır ki, həmin daş zahirən o qədər də ağır deyildir. Ancaq onu qaldıran adamların bəziləri üçün daş yüngül, bəziləri üçün isə ağır olur. Onu da qeyd edək ki, *Babasəmt* piri qəbristanlığın içərisindədir. Bu qəbristanlıqda keçmişdə ancaq nüfuzlu, müqəddəs adamlar dəfn olunubdur. İndi isə burada kiminsə dəfn olunmasına icazə verilmir.

Deyilənlərə görə, Bakının Fatmayi kəndində bir ziyarətgahın qabağında iri daş və həmin daşın ətrafında xırda, yumurta boyda, bəziləri yumurtadan iri daşlar varmış. Bəzən bu daşları böyük daşın ətrafından uşaqlar uzaqlaşdırar, yerindən tərpədər, başqa yerə atarmışlar. Uşaqlar böyük daşın ətrafından kiçik daşları kənara atanda böyük daş yaş, nəm olarmış. Həmin balaca daşları böyük daşın ətrafına yığdıqdan sonra böyük daşın nəmişliyi çəkilərmiş. Ağsaqqallar, ağbirçəklər belə hesab edərmişlər ki, bu balaca daşlar böyük daşın balalarıdır. Ona görə də guya balaca daşların hər hansı birini böyük daşdan uzaq salmaq onu incidir və ağladırmış. Bu səbəbdən balaca daşlardan hər hansı biri böyük daşdan aralı düşsə, böyük daş yaş, nəm olurmuş. Belə bir hadisəni nəzərimdən keçirməklə aşağıdakı misraları yazmalı oldum.

*Gördünmü daş ağladı?*
*Ah çəkdi daş ağladı.*
*Təkcə insanlar deyil,*
*Dərd çəkib daş ağladı.*

*Əziziyəm o daşı*
*Daşlar gördü o daşı.*
*Daşın dərdi olarmı?!*
*Dərd yandırdı o daşı.*

*Gördünmü böyük daşı?*
*Balalı böyük daşı.*
*İnsan kimi dərd çəkir,*
*Anlasan böyük daşı.*

Daş, özü də iri daş (və daşlar) tarixin elə mərhələrində və təbiət hadisələrinin elə dövrlərində yaranmışdır ki, onları incəliklərinə qədər təhlil etməyə elmin gücü çatmır. Ancaq daş yarandığı vaxtdan insanın karına gəlib. Ən azı insan yorulanda onun üzərində oturub. Yaxud özünə ev tikərkən ondan istifadə edib. Başqa birini qorxutmaq üçün, vurmaq üçün ona daş atıb və s. Ta qədim dövrdən başlayaraq indiyə qədər insanlar şeytana daş atmış, pis əməl sahiblərini daşa basmışlar. Bunların hamısı onu göstərir ki, şər qüvvələrə, bədxah qüvvələrə qarşı daşdan ilk silah kimi istifadə olunmuşdur.

Sonralar iri daşları və onların olduğu yeri pirlərə, ziyarətgahlara çeviriblər. Görünür ki, qədim insanlar bəşəriyyətin qədim çağlarında daşlıq, qayalıq yerləri sığınacaq yeri kimi seçiblər. Daşa sığınmaq, daşdan istifadə etmək sonralar insanların düşüncəsində daş pirlərin, ziyarətgahların yaranması ilə nəticələnibdir.

*18.11.2015*

# Tarixi yaşadan daşlar – II yazı

*Daş* insanların, o cümlədən türklərin məişətində, həyatında, inam və inancında böyük rol oynadığı üçün yer-yurd adlarında *daş* komponenti izini qoruyub saxlayıbdır.

Məsələn, Amasiyada *Daşkörpü* (kənd adı), Şəkidə *Daşbulaq*, *Daşüz* (kənd adı), *Daşağıl*(kənd adı), *Aşağı Daşağıl* (kənd adı), *Yuxarı Daşağıl* (kənd adı), *Daşqaya* (Şəkinin girəcəyində yer adı), Naxçıvanda Biçənək adlanan ərazidə *Sandıq daş*, *Miz daş*, *Saat daşı* (yer-yurd adlarıdır), Oğuzda *Daşüz* (yer-yurd adı), *Daşağıl* (yer-yurd adı), Göyçənin Ağbulaq kəndində *Daşdıqlı dərə* (dərə adı), *Daşçıxan* (örüş və yurd adı), *Daşdı gəzdək* (örüş və yurd adı) və s. Həm də *qaya* sözü *daş* sözü kimi öz izini yer-yurd adlarında mühafizə edibdir. Məsələn, Amasiyada *Qayabaşı* (biçənək yeri), Naxçıvanda Biçənək adlanan ərazidə *Ağ qaya* (yer-yurd adı), *Qara qaya* (yer-yurd adı), *Ballı qaya* (yer-yurd adı), *Sarı qaya* (yer-yurd adı), *Gəlin qayası* (yer-yurd adı), Göyçənin Ağbulaq kəndində *Kəmənd qaya* (qaya adı), *Danaçı qayası* (qaya adı), *Qatar qaya* (qaya adı), *Muqoyun qayası* (qaya adı), *Məkə qayası* (qaya adı), *Aralıq dərənin qayası* (qaya adı), *Ağıllı qaya* (qaya adı), *Qaçaq qayası* (qaya adı), *Kazım düşən qaya* (qaya adı), *Ovux qaya* (qaya adı), *Sarı qaya* (qaya adı), *Şişqaya* (qaya adı)

və s. Burada *daş* və *qaya* sözlərinin bütün yer-yurd adlarında qorunub saxlanılmasını vermək məqsəd deyildir.

Məqsəd odur ki, *daş* və *qaya* komponentinin yer-yurd adlarında işlənməsi səbəbinin bu komponentlərə olan inamla bağlı olmasını diqqətə çatdırmaqdır. *Daş, qaya* qədim türkün düşüncəsində mifonimləşmiş bir obrazdır. Yaddaş kodumuz bu mifonimə arxalanır, güvənir. Bu mənada M.Arazın aşağıdakı şeiri təsadüfi sayılmamalıdır:

*Bir qayaya söykənmişəm, deyirəm kaş:*
*Bax beləcə daşa dönəm yavaş-yavaş*
*Taleyimi qayaların taleyinə bağlayam mən.*
*Bircə insan düşüncəmi saxlayam mən.*
*Daş ayaqlı, daş əlli bir insan kimi*
*Enib daşdan-daşa düşəm.*
*Qayaların lal dilini başa düşəm.*
*Onların daş qulağına bir daş atam,*
*Qayaların keçmişini qayalara xatırladam,*
*Deyəm: bir vaxt insan oğlu insan olub bu qayalar.*
*İnsanların nərəsindən doğulub bu qayalar.*
*Nər igidlər düşmən üstə gedən zaman*
*Babalar da baş qaldırıb yer altından,*
*Qaya kimi, dayaq olub, yumruq olub, ox olublar.*
*Qayadöşlü qəhrəmanlar qayalıqda yox olublar,*
*Bu torpağın taleyində o da elə bir gün idi.*
*İgidlərin yaşaması daş olmaqla mümkün idi.*
*Yoxsa onun qismətinə hardan düşə*

*Bu qədər daş!*
*Danış görüm, a daş qardaş!*
*Siz nənəmin bacılığı,*
*Siz babamın qardaşlığı,*
*Təbiətin səpdiyi bir zəmi sanım*
*Bəlkə elə bu daşlığı!*
*Siz ey qədim əfsanələr,*
*Şeirimə yağ, səsimə yağ!*
*Nə zamansa bu daşlarla bir dil tapan tapılacaq*
*Bu daşların, qayaların keçmişini oyadacaq,*
*Ordu-ordu qayalıqlar insanlığa qayıdacaq.*
*Bu basılmaz nərlər-ərlər,*
*Bu qaya sərkərdələr*
*Onda məni bir balaca daş əsgəri*
*Qoyar yəqin qoşulmağa bu cərgəyə,*
*Qayaların keçmişini qayalara yazdım, deyə.*
*Onda Vətən sanar məni*
*Bir balaca Vətən daşı,*
*Vətən daşı olmayandan*
*Olmaz ölkə vətəndaşı...*

Daşla bağlı atalar sözlərinin yaranması daşın insan həyatında oynadığı önəmli roldan qaynaqlanır. Məsələn, "Daş atan bəlli, baş tutan bəlli", "Daş daşa, dırnaq daşa, siz savaşa, biz tamaşa", "Daş daşa söykənərək – divar olar", "Daş düşdüyü yerdə ağır olar", "Daş qayaya rast gəlib", "Daşa mıxı çaxanda biri mıxa, üçü özünə dəyər", "Daşın böyüyü dostdan (yaxından) gəlir", "Daşürəkli düşmənin

bağrın yarar yumşaqlıq" və s. Göründüyü kimi, daşla bağlı atalar sözlərinin hər birinin arxasında bizə məlum olan və olmayan tarix durur. Ancaq bu tarix onu söyləməyə əsas verir ki, daş həmişə insanın karına gəlib, onun həyatında önəmli rol oynayıbdır. Bunu "Yük əyməsə, daş qəribçiliyə düşməz" ifadəsinin izahında da bir daha təsdiq etmək olar. Belə ki, qədim zamanlarda yüklərin daşınmasında karvanlardan istifadə edilmişdir. Yüklər dəvələrə, qatırlara yüklənmişdir. Əgər yüklənmiş heyvanın sağ və sol tərəfindəki yüklərin çəkisində azacıq da fərq olsaydı, onda heyvan yükü aparan zaman yük ağır olan tərəfə doğru əyilməyə başlayırdı. Ona görə də yük heyvanın üstündən aşmasın deyə yükün yüngül tərəfini ağır tərəfi ilə bərabərləşdirmək lazım gəlirdi. Belə olan təqdirdə yerdən lazım olan çəkidə daşı götürüb yükün yüngül tərəfinə qoyurdular. Bununla da yükdə tarazlıq yaranırdı və karvan mənzil başına çatdıqdan sonra həmin daşı bir tərəfə atırdılar. Beləliklə, daş götürüldüyü yerdən uzaq düşürdü. (bax: Məmmədəli Qıpçaq. Söz aləminə səyahət. Bakı, "Bakı Universiteti" nəşriyyatı, 2002, s.97-98) Bununla onu qeyd etmək istəyirik ki, daş qədim insanların həyatında, məişətində istifadə etdiyi ən gərəkli vasitələrdən biri olub. Hətta daşdan hazırlanan kəsici alətlər yenə də daşın insan üçün faydalı bir vasitə olduğuna inandırıcı dəlildir. Onu da qeyd edək ki, daş insan həyatında ilk silah olub.

*25.11.2015*

# Tarixi yaşadan daşlar – III yazı

Daş qədim türklərin həyat, cəmiyyət, dünya barədə düşüncəsini qoruyub saxlayan mənbələrdən olmuşdur. Orxon-Yenisey yazıları, Gəmiqaya və Qobustan abidələri buna sübutdur. Bu da sübutdur ki, qədim türklər çay, göl, bulaq ətrafında, bir sözlə, su obyektlərinin yanında yaşamaqla yanaşı, həm də dağlıq ərazilərdə, daş və qayalarla örtülü olan yerlərdə məskunlaşmağa da üstünlük vermişlər. Bəzi bölgələrdə bu izlər indi də qorunur. Məsələn, Qərbi Azərbaycan ərazisində yaşayış məntəqələrinin əksəriyyətinin ətrafında, yaxınlığında daş abidələr mövcud olmuşdur. Bu ərazilərdə qeyri-adi "Oğuz qəbirləri" aşkarlanmışdır. Həmin "Oğuz qəbirləri"nin qeyri-adiliyi ondadır ki, onlar qeyri-adi dəfn otaqlarında yerləşdirilmişdir. "Oğuz qəbirləri" iri sal daşlarla hörülmüşdür. Həmin sal daşların hündürlüyü 2,5 metr, uzunluğu 3 metr, eni 2 metr olmuşdur. Qərbi Azərbaycanın coğrafiyasını, təbiətini yaxşı bilənlərin hər biri bu qeyri-adi mənzərələrlə yaxşı tanışdır. Onlardan biri (Niftalı Göyçəli) yazır: "Ən çox ermənilərin "yunan qəbirləri" adlandırdıqları tuf qəbir daşlarının üzərində alban yazılı kitabələrə rast gəlinirdi. Erməni alimlərinin göstərişilə həmin yazılar ya pozulurdu, ya da hərflərə əl gəzdirilib erməniləşdirilirdi. Qədim alban xaçlarının ucları aypara şəkillidir, ermənilər

xaçların uc hissəsindəki əyriləri pozub düz formaya salmaqla təqdim edirdilər ki, erməni xaçıdır". Öz gözləri ilə ermənilərin bu qərəzli hərəkətlərini görən soydaşlarımız indi-indi bu məsələlər barədə fikir söyləyir, məqalələr yazırlar.

Göyçə mahalının Pəmbək kəndindəki qəbristanlıqda olan böyük tuf daş üzərindəki rəsmlər barədə Niftalı Göyçəli yazır: "Göyçə mahalının Pəmbək kəndinin qərbində, Şivri dağının ətəyində "yunan qəbri" adlandırılan bir qəbristanlıqda (uzunluğu bir metr, eni səksən santimetr olan) böyük tuf daş üzərində belə bir rəsmlər var idi: daşın baş tərəfində günəş şüaları ilə, ondan aşağı at üstündə əyləşmiş dəmir zirehli geyimli, başında şiş dəbilqə, çiynində kaman döyüşçü rəsmi və ondan aşağıda əllərini yuxarı günəşə sarı qaldırıb şükr oxuyan başqa piyada döyüşçü, qarşıda isə maral başının rəsmi çəkilmişdir. Bu yazı qədim piktoqrafik yazı idi: yəni iki döyüşçü ova getmişlər, ov uğurlu olduğuna (Atəşpərəstlik rəmzi olan günəşə üz tutub) Ahrumazdaya dua edirlər. Həmin döyüşçünün dünyasını dəyişdikdən sonra mahir ovçu olmasını bildirmək üçün belə bir piktoqrafik qəbirüstü kitabə həkk olunmuşdur. Pəmbək kəndinin sakinlərinin əksəriyyəti bu görüntünü təsdiq edərlər. Rayonun erməni millətindən olan tarixi abidələri mühafizə idarəsinin işçiləri həmin tuf daşı hava çəkici ilə uzununa deşmişdilər. Deyilənlərə görə, daşın içində qızıl olub-olmamasını yoxlayırmışlar...

Əfsuslar olsun ki, belə yazılı və rəsmi daşlara az-az olsa da, Qərbi Azərbaycan ərazilərində rast gəldiyimiz zamanlar heç olmasa, onların foto şəkillərini çəkib götürməmişik...” Deməli, qədim türklərin tarixi sözün həqiqi mənasında daşlarda yaşayır. Belə daşlar türklərin yaşadıqları ərazilərdə kifayət qədərdir. Onların hər birinin tədqiq olunması, siyahıya alınması olduqca vacibdir. Qədim türklərdə qaya, daş güc, qüvvət verən, el-obanın hakimiyyətini qoruyub saxlayan inam və inanc kimi qəbul edilmişdir. Məsələn, “Köç” dastanında qeyd olunur ki, Tanrı dağının yaxınlığında Kutlu dağ adında bir qaya varmış. Uyğurların hakimiyyəti, onların gücü bu qayadan asılıymış. Ona görə də çinlilər uyğurların hakimiyyətini sarsıtmaq üçün qayanı yox etmək istəyirlər. Daha doğrusu, bu qayanı özləri ilə Çinə aparmaq niyyətində olurlar. Uyğur hökmdarı öz oğlunu Çin hökmdarının qızı ilə evləndirmək istəyir. Çin hökmdarı bunun əvəzində Kutlu dağındakı qayanı istəyir. Uyğur hökmdarı razılaşır. Ancaq bu böyük qayanı aparmaq mümkün olmur. Ona görə də çinlilər qayanın ətrafına odun yığır və tonqal qalayırlar. Qayanı möhkəm qızdırdıqdan sonra onun üzərinə sirkə töküb parçalayırlar. Beləliklə, qayanın parçalanmış parçalarını Çinə aparırlar. Qayanın parçalanmasına ətrafdakı bütün canlılar – quşlar, heyvanlar ağı deyirlər. Qayanın parçalanması uyğurlara fəlakət gətirir. Yeddi gündən sonra uyğur hökmdarı ölür. Uyğur elində xalq rahatlıq tapmır, ölkəyə başçılıq edən hökmdarlar

tez-tez ölür. Ona görə də uyğur hökmdarı paytaxtın yerini dəyişir. Deməli, uyğurların xoşbəxtliyi qayada olduğu üçün onun parçalanması və Çinə aparılması ölkəyə bədbəxtlik gətirir.

"Köç" dastanının başqa bir variantında da yenə də daşa olan inamı görməmək mümkün deyildir. Belə ki, Buku xanın yuxusuna ağ saqqalı, ağ dəyənəkli bir qoca girib ona fıstıq boyda daş verir. Və ona deyir ki, bu daşı saxlamaqla hakimiyyətinizin genişlənəcəyinə nail olacaqsınız. Sonralar Buku xanın övladlarından biri daşı itirir. Bu zaman bütün heyvanlar "köç!..", "köç!.." deyərək qışqırırlar. Xalq bundan həyəcanlanır və qaçmağa başlayır. Beş Balıq deyilən əraziyə çatanda "köç!..", "köç!.." səsləri kəsilir. Xalq burada dayanır və məskən salır. Göründüyü kimi, xalqın xoşbəxtliyi fıstıq boyda bir daş ilə bağlı olur. Onu itirmək xalqın xoşbəxtliyini əlindən alır, xalqın başına bəlalar gətirir. Bir daha qeyd edək ki, daşa daş kimi baxmaq olmaz. O həm də sehrdir, möcüzədir, qeyri-adi qüvvədir, tarixdir.

*01.12.2015*

# Tarixi yaşadan daşlar – IV yazı

Hələ elmi-texniki tərəqqinin mövcud olmadığı dövrdə insan öz düşməninə daş atmaqla ona öz nifrətini, qəzəbini bildiribdir. Bu mənada Əli Kərimin "Daş" şeiri yerinə düşən bir şeirdir. Əli Kərimin "Daş" şeirində qədim insanın daş atması, daşı sonralar qılınc, güllə, mərmi, atom əvəz etməsi öz fəlsəfi izahını poetik formada tapır. Şeirdə vaxtilə qədim insanın atdığı daş bu gün elmi-texniki tərəqqinin yaratdığı atomla, neytronla, elektronla müqayisə olunur. Deməli, düşmənə olan münasibət də qədim insanın düşüncəsində daşdan başlamışdır. Bir daha qeyd edək ki, qədim insanın daşla başladığı düşmənçiliyi Əli Kərim qədər fəlsəfi və poetik şəkildə ifadə edən başqa birisi yoxdur. Bu şeir insanların insanlara, millətlərin millətlərə, dövlətlərin dövlətlərə düşmənçiliyinin ifadəsinin daşdan başladığını təsdiq edir. Ona görə də Əli Kərimin "Daş" şeirini hər bir insan oxumalı, öyrənməli və əzbərdən bilməlidir. Bu şeir hər bir kəsi dərketməyə çağırır. Hər bir kəsi düşünməyə məcbur edir. Fürsətdən istifadə edib bu şeiri təqdim etməyi məqsədəuyğun bilirik.

*Yarıçılpaq*
*Qədim insan*
*Düşməninə bir daş atdı,*
*Qana batdı.*

*Daş düşmədi*
*Amma yerə.*
*Uçub getdi*
*Üfüqlərdən üfüqlərə.*
*Deməyin ki, daş yox oldu.*
*Oldu qılınc,*
*güllə,*
*mərmi.*
*Dayanmadı fikir kimi.*
*Atom kimi*
*Meridianı qırıq-qırıq,*
*Arzuları zərrə-zərrə,*
*Okeanı parça-parça*
*Edib keçdi...*
*Həmin o daş*
*İndi yenə dayanmayır*
*uçur hara?*
*O neytron,*
*elektron -*
*Dönüb*
*nələr,*
*nələr olur.*
*Alov olur,*
*ölüm olur,*
*zəhər olur.*
*Ey həməsrim,*
*Həqiqətin qan qardaşı,*

*Dayandırmaq olmazmı, de,*
*Yarıçılpaq,*
*yarıvəhşi*
*Qədim insan*
*atan daşı?!*

Daş yer üzərində insanın insanı öldürməsi üçün istifadə olunan ilk silah olubdur. Hamımız Adəmlə Həvvanın övladları Qabil və Habil arasında nə baş verdiyini yaxşı bilirik. Yaxşı bilirik ki, Habili öldürmək fikrinə düşən Qabil yerdən iri bir daş götürüb Habilin başına vurur. Bununla da yer üzündə ilk insan qanı tökülür. Görəsən daş olmasaydı, insan qanı tökülərdimi? Daş olmasaydı, Qabil Habilin başına nə vurardı? Hər halda ilk ölüm və ilk qan tökülməsi daşın başa vurulmasından başladı. Bundan sonra dünya və onun suları bulandı. Bundan sonra insanlar bir-birinə daş atmağa başladılar. Bu pis əməl bir vərdişə çevrildi. Daş yaddaşdan gələn bu pis vərdişə qarşı nə qədər mübarizə aparılsa da, heç bir fayda vermədi. Vaxtilə Səməd Vurğun "Qalib gələcəkmi cahanda kamal" söylədi. Ancaq heç bir ağıl, kamal, müdriklik bu pis vərdişin qarşısını ala bilmədi və bu pis vərdiş sahiblərini tərbiyə edə bilmədi. Bizcə, daş yaddaşımızdan gələn bu pis vərdişə qarşı poeziya vuruşdu və insan həyatı üçün əbədi rol oynayan ədəbiyyat bu pis vərdişə qarşı həmişə vuruşacaqdır. Ancaq bu, fayda verəcəkmi?!

Bizə elə gəlir ki, ilk addım atıldıqdan sonra o, vərdişə çevrilir və onun qarşısını almaq heç cür mümkün

olmur. Təbii ki, bunun qarşısını almağa ədəbiyyatın da gücü çatmır. Ancaq Azərbaycan ədəbiyyatında Əli Kərimdən sonra Ramiz Rövşənin "Daş" şeiri də daş yaddaşımızın pis vərdişlərinə qarşı həm fəlsəfi, həm də poetik baxımdan yaxşı bir etiraz nümunəsidir.

*Bu sulara kim daş atdı?*
*Bu suları kim oyatdı?*
*Sular oynadı, daş yatdı,*
*Ağlama, daşım, ağlama.*

*Ağaclarım yaşıl-yaşıl,*
*Yarpaqları aşıb-daşır,*
*Yarpaqların arasında*
*Daşla vurdular bir quşu*
*Ağlama, ağacım, ağlama.*

*Daş altından bir quş uçdu,*
*Gözündəki bu nə yaşdı?!*
*Qəbrimin üstündəki daş*
*Bir quşa atdığım daşdı,*
*Ağlama, bacım, ağlama!..*

İlk tökülən qan, ilk ölüm atılan daşdan başladı. Bununla belə, son mənzildə insanın məzarı üzərində də daşdan sinədaşı, başdaşı qoyuldu. Qəribədir. Elə deyilmi?!

*07.12.2015*

## MÜNDƏRİCAT

Yaşamaq istəyən adam................................................ 3
Mirzə İbrahimovun jurnalistlə əhvalatı… ................ 10
Mir Cəlalla Mehdi Hüseynin zarafatı ......................... 14
Hər şeydən yazan Mirzə Cəlil... ............................... 17
Molla kitab açır........................................................ 22
Azərbaycanda tələbələrin problemlərini necə həll etməli –TƏKLİFLƏR ............................................... 25
Təhsilin inkişafı üzrə Dövlət Strategiyası: Ən vacib hədəflər ..................................................... 35
Təhsilin İnkişafı üzrə Dövlət Strategiyasının əsas hədəfi .......................................................................... 39
Əziz dost, nə vaxt qayıdıb gələcəksən?! ................... 49
İnsan sığınacaqlara doğru tələsir................................ 59
Tarix insanların gözünü qamaşdırır ........................... 63
Həyat əbədi olmadığı kimi gözəllik də əbədi deyil ... 66
İnsan ömrü nəyə sərf olunur?..................................... 73
Yaxşı və pis, arzu və istək, sevgi və məhəbbət .......... 75
İnsan bunları bilməlidir............................................... 79
“Nuh tufanı və Gəmiqaya-Qobustan əlifbası” – I məqalə ........................................................................ 83
“Nuh tufanı və Gəmiqaya-Qobustan əlifbası” – II məqalə ....................................................................... 94
Mən-biz, sən-siz, o-onlar barədə deyimlərim – I yazı ............................................................................ 104
Mən - biz, sən - siz, o - onlar barədə deyimlərim – II yazı ........................................................................... 109
Mən - biz, sən - siz, o – onlar barədə deyimlərim III yazı.......................................................................... 117
Mən - biz, sən- siz, o – onlar barədə deyimlərim – IV yazı.......................................................................... 127

Mən - biz, sən- siz, o – onlar barədə deyimlərim – V yazı ........ 137
Mən - biz, sən- siz, o – onlar barədə deyimlərim – VI yazı ........ 144
Mən-biz, sən-siz, o-onlar barədə deyimlərim – VII yazı ........ 156
Mən- biz, sən- siz, o- onlar barədə deyimlərim – VIII yazı ........ 168
Mən - biz, sən- siz, o- onlar barədə deyimlərim – IX yazı ........ 182
Mən-biz, sən-siz, o-onlar barədə deyimlərim – X yazı ........ 195
Mən - biz, sən - siz, o – onlar barədə deyimlərim – XI yazı ........ 209
Mən - biz, sən - siz, o - onlar barədə deyimlərim – XII yazı ........ 218
Diri ikən özlərinə qəbir qazdıranlar... ........ 228
Bədxahlıqlarını "şöhrət" hesab edənlərə ........ 230
Tarixi yaşadan daşlar – I yazı ........ 234
Tarixi yaşadan daşlar – II yazı ........ 238
Tarixi yaşadan daşlar – III yazı ........ 242
Tarixi yaşadan daşlar – IV yazı ........ 246

**BULUDXAN XƏLİLOV**

# ZAMANIN SINAĞINDAN KEÇƏNLƏR...

Çapa imzalanmışdır: 15.11.2016
Formatı: 84×108 1/32
Həcmi:15,75 ç.v.
Sifariş:41
Miqdarı: 500
Qiyməti: Müqavilə ilə.

«Adiloğlu Çap Evi»nin mətbəəsində
çap olunmuşdur.

Ünvan. Bakı şəh., Ə.Salamzadə 9c